# Yeni Azərbaycan Partiyasının II Qurultayı

*21 noyabr 2001-ci il*

2405

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

AZƏRBAYCAN NƏŞRİYYATI
BAKI-2001

lazımi qərarlar qəbul olunubdur. Ancaq son aylarda bu konfransların və onların nəticəsi olaraq indi partiyanın II qurultayının keçirilməsi Yeni Azərbaycan Partiyasının nə qüdrətə malik olduğunu, nə qədər yüksək ideallara xidmət etdiyini və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasındakı xidmətlərini Azərbaycan cəmiyyətinə, Azərbaycan xalqına, bütün ölkəyə bir daha nümayiş etdirdi.

**Məruzədə və çıxışlarda çox gözəl, məzmunlu və partiyamız üçün, onun daha da sıx birləşməsi üçün, gələcək fəaliyyəti üçün dəyərli sözlər deyildi, ifadələr işlədildi, fikirlər irəli sürüldü. Mən hesab edirəm ki, partiyamızın qurultayı tam işgüzar şəraitdə keçərək, eyni zamanda partiyada mövcud olan əhval-ruhiyyəni, ruh yüksəkliyini və partiya üzvlərinin partiyaya daha da sədaqətlə xidmət etməsini bir daha göstərdi.**

Mən hesab edirəm ki, partiyamız, onun yerli təşkilatları və Siyasi Şura, idarə heyəti ötən iki il ərzində böyük işlər görmüşdür. Ona görə buradakı təkliflərə mən də qoşuluram, deyirəm ki, partiyanın işini, partiyanın rəhbər orqanlarının işini tam qənaətbəxş hesab etmək olar.

Bizim partiya 1993-cü ildən iqtidar partiyasıdır. 1992-ci ildə Naxçıvanda ağır bir şəraitdə, böyük təzyiqlər altında biz partiyanın yaranması ilə əlaqədar xeyli işlər gördük və ilk konfrans keçirdik. O vaxt, əlbəttə ki, partiyanın yaranması yalnız ayrı-ayrı şəxslərin, bu partiyanın yaranmasında çox təşəbbüs göstərmiş insanların, o cümlədən təkcə mənim xidmətim deyildir. **Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zəruriyyətdən yaranmış bir partiyadır.** Biz partiyanı yaradarkən heç də düşünmürdük ki, qısa bir müddətdən sonra hakimiyyətə gələcəyik. Baxmayaraq ki, ölkəmizdəki vəziyyət – sizin hamınıza məlum olan vəziyyət bizim hamımızı düşündürürdü. Ona görə də, bir tərəfdən, biz hesab edirdik ki, partiyanı yaradaraq biz xalqımıza müəyyən bir xidmət göstərə bilərik. İkinci tərəfdən də, sadəcə, ölkənin belə ağır vəziyyətində bir çox insanların ümidi, istəyi, nəhayət, bu partiyanın yaranmasına gətirib çıxardı.



Biz işə başladıq. Qısa bir zamanda, demək olar ki, Azərbaycanın əksər guşələrində partiyanın özəkləri, təşkilatları yarandı. Sizə deyim ki, mən Naxçıvanda olduğum zaman heç o qədər də bilmirdim ki, harada hansı təşkilat yaranıbdır, kimlər bu təşkilatı yaradıblar. Yeni partiyanın yaranması o vaxt bizim əhalinin ölkəmizin düşdüyü vəziyyətdən çıxmasına olan istək və arzuları ilə əlaqədar olmuşdur. Ona görə də qısa bir zamanda bizim partiya böyüdü və genişləndi.

Amma qısa bir zamandan sonra, mənim Azərbaycanın rəhbərliyinə dəvət olunmağımla əlaqədar, parlamentə sədr seçilməyimlə və Prezident seçilməyimlə əlaqədar bizim partiya iqtidar partiyası statusunu aldı. **Bu gün tam cəsarətlə və böyük iftixar hissi ilə demək olar ki, 8 il iqtidar partiyası adı daşıyaraq partiyamız Azərbaycan xalqına hədsiz xidmətlər göstərmiş və xalqımızı, millətimizi, ölkəmizi o ağır günlərdən çıxarıb bugünkü vəziyyətə gətirib çatdırmışdır.**

Burada məruzədə, çıxışlarda partiyamızın keçdiyi yol haqqında danışıldı və 1990-1991-ci illərdən 1993-cü ilə qədər Azərbaycanın ağır vəziyyəti haqqında çox ətraflı söhbət getdi. **Biz bunları unutmamalıyıq. Nəinki biz, bütün Azərbaycan xalqı, gələcək nəsillər bu dövrü unutmamalıdırlar.**

Biz bu günlərdə Azərbaycanın istiqlaliyyətinin, dövlət müstəqilliyinin 10-cu ildönümünü böyük qürur hissi ilə, təntənə ilə keçirdik. Azərbaycanın bu 10 illik müstəqillik dövrünün səkkiz ili, bir az da dəqiq desək, səkkiz il yarımı indiki iqtidarın zəhməti ilə, Yeni Azərbaycan Partiyasının xidməti ilə bağlı olan bir dövrdür.

Mən dəfələrlə demişəm, bizim xalqımızda azadlıq, müstəqillik əhval-ruhiyyəsi həmişə yaşamışdır. Ancaq bizim yaşadığımız Sovet

dövləti və 70 il hökm sürən kommunist ideologiyası, o dövlətin yaratdığı sistem bu istəklərin, arzuların yerinə yetirilməsi üçün heç bir imkan verməmişdir. Burada natiqlərdən biri, mənə elə gəlir ki, son çıxış edən natiq bir çox əhəmiyyətli hadisələri yada saldı və mən indi sizə danışarkən görəcəksiniz ki, biz o illər nə vəziyyətdə yaşayırdıq.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olundu. 1978-ci ildə müttəfiq respublikaların konstitusiyaları qəbul edildi. Biz iki-üç ay idi ki, öz Konstitusiyamızın layihəsini hazırlayırdıq. Orada bir maddə yazdıq ki, Azərbaycan Respublikasında dövlət dili Azərbaycan dilidir. Ancaq nə ilə rastlaşdıq? Moskva buna qəti etiraz etdi və bildirdi ki, bu, ola bilməz. SSRİ-də yeganə dövlət dili var və hamı bu dövlət dilindən istifadə etməlidir. Biz isə çox inadkarlıq etdik. Böyük müqavimətlərin qarşısını aldıq. Hətta mən sizə deyim ki, Moskvada bu məsələ müzakirə olunarkən bəzi müttəfiq respublikaların başçıları bizim bu fikrimizi qəbul etmirdilər. Çünki bütün müttəfiq respublikaların başçıları konstitusiya komissiyasının üzvü idilər, orada iştirak edirdilər. Onlar bu fikri dəstəkləmirdilər, qəbul etmirdilər.

**Ancaq buna baxmayaraq, biz buna nail olduq və 1978-ci ildə bizim Konstitusiyamızda Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi həkk olundu. Ancaq bilməlisiniz, demək olmaz ki, Konstitusiyada qəbul etdirəndən sonra biz həqiqətən bunu dövlət dili kimi işlədə bildik. Çünki o vaxtlar, bu, sadəcə, o dövlətin sisteminə görə mümkün deyildi. Amma eyni zamanda, biz insanlarda milli şüur, milli əhval-ruhiyyə, öz dilimizə doğma münasibət, sevgi hissiyyatları yaratdıq.** Əgər çox vaxt rus dilindən istifadə olunurdusa, - burada oturanların çoxu bilir, - məsələn, mən Bakıdan çıxıb kənd rayonlarında olarkən biz bütün toplantıları Azərbaycan dilində aparırdıq. Yəni dilimizdən istifadə edirdik, amma yarımçıq istifadə edirdik. **Bununla mən bir də onu təsdiq etmək istəyirəm ki, bizim xalqımızda bu arzu – müstəqillik arzusu, istiqlaliyyət arzusu, azadlıq arzusu yaşayıbdır. Birində çox, birində az. Amma**



**əksəriyyətində yaşayıbdır.** Ancaq o dövrdə buna nail olmaq mümkün deyildi.

Məhz 1991-ci ildə Sovetlər İttifaqında, dünyada gedən ictimai-siyasi proseslərin nəticəsində artıq SSRİ kimi super dövlət dağılmağa məhkum oldu. O dağılan kimi, dərhal bütün müttəfiq respublikalar, biri tez, biri gec öz dövlət müstəqilliyini bəyan etdi. Azərbaycan o birilərdən gec elan etdi. **Azərbaycanda bəziləri deyirlər ki, biz milli azadlıq hərəkatı təşkil etmişik, canımızı qurban vermişik, Azərbaycanın müstəqilliyinə nail olmuşuq. Birincisi, o, xalq hərəkatı idi. Kimlərsə, özləri üçün sərfəli olduğuna görə, ona milli azadlıq hərəkatı deyirlər.** O, xalq hərəkatı idi. Xalq hərəkatı da Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Moskvanın və xüsusən Qorbaçovun Azərbaycana qarşı ədalətsizliyindən meydana gəlmişdi. **O meydanda toplaşan adamların əksəriyyəti, oraya ancaq və ancaq Dağlıq Qarabağ məsələsinin ədalətli həll olunması üçün gəlirdilər. Ona görə bu, ümumxalq hərəkatı idi.**

O da təbiidir ki, bu, bizim tariximizdə çox gözəl səhifələrdən biridir. Demək, hətta o dövrdə xalqımızın lazım olanda öz hüquqlarını, ölkəsinin hüquqlarını qorumaq üçün ayağa qalxmaq imkanı varmış. Ancaq nə qədər də o mitinqlər, filanlar olsaydı, SSRİ kimi böyük, qüdrətli dövlət, böyük hərbi potensiala malik olan dövlət heç bir müttəfiq respublikaya müstəqillik əldə etmək imkanı verməzdi. Təsəvvür edin, 20 yanvar 1990-cı il. Ondan qabaq Azərbaycanda bir neçə dəfə fövqəladə vəziyyət tətbiq edilmişdi. 20 yanvarda Azərbaycana dövlət tərəfindən, yəni SSRİ dövləti tərəfindən misli görünməmiş hərbi təcavüz edildi və buraya böyük qoşun kontingenti yeridildi. Günahsız insanları şəhid etdilər. Faciə baş verdi. Onda SSRİ-yə, onun rəhbərliyinə xalqın nifrəti daha da artdı. **Amma xatırlayın, həmin o gün, onun sabahısı günü Azərbaycanda hökumət, dövlət bir qərar qəbul etmək əvəzinə, parlamenti - Ali Soveti toplamaq əvəzinə, sadəcə, təslim oldu.** Bilirsiniz ki, yanvarın 21-22-də yalnız bir çox vətənpərvər insanların təşəbbüsü ilə Ali Sovetin sessiyası keçirildi. **Qəribə hadisə idi ki, Ali Sovetin rəhbərliyi orada**

**yox idi. Amma Ali Sovetin iclasına bizim hörmətli şairimiz Bəxtiyar Vahabzadə rəhbərlik edirdi. Niyə? Çünki qorxurdular. Niyə? Çünki hesab edirdilər ki, bundan bir şey çıxmaz, özünü qorumaq lazımdır.**

Bir fakt da mənim xatirimdədir. Həmin o günlər Bakıda tonqallar qalanmışdı. Təkcə Bakıda yox. Mən Moskvada idim, amma bunu bilirdim. Çoxları gətirib partiya biletlərini o tonqallara atırdı. Elədir, yoxsa yox? Mən burada yox idim. Amma Azərbaycan iqtidarı bu fürsətdən istifadə etmək əvəzinə, bir müddətdən sonra müəyyən təbliğat işi apardı, həmin o partiya biletlərini atan adamlar getdilər, partiya biletlərini götürdülər. Yəni mən sizə demək istəyirəm ki, o proseslər bax, bu cür gedibdir. **Əgər SSRİ 1991-ci ilin sentyabr ayında dağılmasaydı, Azərbaycan öz dövlət müstəqilliyini əldə edə bilməzdi.**

**Bu, bizim üçün, necə deyərlər, Allah vergisi idi. Talein bizim xalqımıza bəxş etdiyi bir şeydi. Biz bunu qiymətləndiririk. Bu, tarixi hadisədir.** Oktyabrın 18-də Ali Sovetdə Konstitusiya aktının qəbul olunması, Azərbaycanın istiqlaliyyətinin bəyan edilməsi ölkəmizin tarixində çox böyük əhəmiyyətə malik olan hadisədir. Ancaq o zaman dağılmaqda olan SSRİ hələ ki, gücünü burada saxlayırdı. Ordu da burada idi, başqası da burada idi. Ona görə də müstəqilliyi qoruyub saxlamaq, - mən dəfələrlə demişəm, – onu bəyan etməkdən çox çətin olmuşdur. **Bəli, 1991-ci ilin sonundan 1993-cü ilin iyununa qədər müstəqilliyi o vaxt hakimiyyətdə olanlar yaşatdılar. Amma nə qədər faciələr, nə qədər qanunsuzluqlar, nə qədər özbaşınalıqlar oldu.**

Bəziləri indi deyirlər ki, müstəqilliyi biz əldə etmişik. Əgər siz həqiqətən bu müstəqilliyi almısınızsa, bəs bunu nə üçün qoruyub saxlaya bilmirdiniz? Nə üçün? Təxminən 1 il 6-7 ay yaşı olan müstəqil Azərbaycan dövləti artıq dağılırdı, parçalanırdı, vətəndaş müharibəsi başlamışdı. Təbiidir ki, Azərbaycanın müstəqilliyi böyük təhlükə altında idi. Sizə bunları deyərək onu bildirmək istəyirəm ki, həqiqi müstəqillik ancaq bizim bu partiyanın 8 il ərzində iqtidarda



olaraq həyata keçirdiyi tədbirlər nəticəsində mümkün olubdur. Ona görə də biz müstəqilliyin 10-cu ildönümünü artıq dünyada tanınmış, daxildə ictimai-siyasi vəziyyəti sabitləşdirmiş, ölkəni iqtisadi, sosial, siyasi böhrandan çıxarmış və nəhayət, 1995-ci ildən başlayaraq bütün sahələrdə inkişafı təmin etmiş bir müstəqil Azərbaycan dövləti olaraq qeyd etdik. **Bunlara görə də bizim əsasımız vardır deyək ki, Yeni Azərbaycan Partiyası, bizim hamımız və təbiidir ki, Azərbaycanın Prezidenti və partiyanın sədri müstəqilliyin həyata keçirilməsinin əsas qüvvəsidir və təkcə onun qorunub saxlanmasının yox, Azərbaycanın müstəqil dövlət kimi ağır şəraitdə inkişaf etməsinin təminatçısıdır.**

Bu illər ərzində bizim partiyamız inkişaf edib, genişlənib, möhkəmlənibdir. Onun ideya səviyyəsi çox artmışdır. Buradakı yekdillik, həmrəylik, buradakı ruh yüksəkliyi buna əyani sübutdur.

Biz partiyanın birinci qurultayını iki il bundan öncə keçirdik. Birinci qurultay tarixi hadisə idi. **Bəzən soruşurlar ki, nə üçün biz birinci qurultayı belə gec keçirdik? Bu, çox aydın məsələdir. Biz o partiyalardan deyilik ki, ildə üç qurultay keçirsinlər, heç bilməsinlər ki, bu qurultayları nədən ötrü keçirdilər və nə nəticə əldə etdilər. Biz partiyanı inkişaf etdirirdik. Biz partiyanı genişləndirirdik. Biz Azərbaycanın məsələlərinin həll olunmasında partiyanın iştirakını təmin edirdik. İqtisadiyyatın inkişafında, əmin-amanlığın yaranmasında, ictimai-siyasi sabitliyin təmin olunmasında onun fəal iştirakını təmin edirdik.** Ona görə də, məsələn, 1995-1996-cı illərdə, ondan sonra da, YAP-ın qurultayının keçirilməsi o qədər də məqsədəuyğun deyildi.

Amma o vaxt ki, biz çox məsələləri həll etdik və partiyamız gücləndi, genişləndi, biz birinci qurultayı keçirdik. Onun gözəl nəticələri indi məlumdur. Partiyanın rəhbər orqanlarını seçdik. Bu gün də ikinci qurultaya gəlmişik. Məhz bütün bu görülən işlərin nəticəsidir ki, birinci qurultayla ikinci qurultay arasındakı iki il müddətində partiya böyük sürətlə inkişaf edibdir.

Burada bəyan edildi ki, partiyanın 230 min üzvü var. Ancaq mən təkcə sayı demirəm. Mən partiyanın keyfiyyətcə yüksəlməsini ən əsas nəticə hesab edirəm. Yəni, biz həm kəmiyyət haqqında, həm də keyfiyyət haqqında düşünməliyik. Keyfiyyətsiz kəmiyyət bizə lazım deyildir. Ona görə də bu 230 min üzv partiyanın böyük gücə malik olduğunu göstərir.

Burada deyildi ki, bu dövrdə bəzi adamlar partiyadan xaric oldular, bəziləri ayrı-ayrı təşkilatlarda sədrlik işini apara bilmədilər, onlar dəyişdirildilər. Bunlar hamısı təbiidir.

Partiya canlı orqanizmdir, heç kəs heç vaxt düşünməsin ki, bu partiyada hamı eynidir. Ola bilər, kimsə partiyaya öz şəxsi məqsədləri üçün, partiyadan istifadə etmək üçün gəlibdir. Ona görə partiya həmişə baxır, süzgəcdən keçirir, ələyir. O şəxslər ki, partiyanın tələblərinə cavab vermir, onlar bir bəhanə ilə ya özləri uzaqlaşır, yaxud da ki, partiya onlardan imtina edir. **Bu barədə danışarkən mən bildirmək istəyirəm ki, bizim partiyamıza qəbul partiyanın inkişafı çox sağlam təməllər əsasında qurulmuşdur.**

**Burada kimsə dedi ki, bu müddətdə partiyaya filan qədər adam cəlb edibdir. Mən bu fikirlə razı deyiləm. Biz heç kəsi partiyaya cəlb etmirik və etməyəcəyik. Bizim partiyaya üzv olan adamlar, bizim partiyaya qoşulmaq istəyənlər, bizim partiyaya gələn adamlar ancaq və ancaq öz qəlbinin, öz zehninin hökmü ilə gəlməlidir, öz könlü ilə gəlməlidir. Bilməlidir ki, bu partiya onun bütün arzu və istəklərinə cavab verən partiyadır.**

**Biz partiyaya yeni-yeni üzvlər qəbul edirik, ancaq partiyaya gələnləri. Partiyaya heç kəsi cəlb etmirik. Bu, bizə lazım deyil, qətiyyən lazım deyildir. Xahiş edirəm, mənim bu fikirlərimi həm partiyanın idarə heyəti, həm də partiyanın bütün yerli təşkilatları nəzərə alsınlar. Mən əminəm ki, bizim partiya getdikcə inkişaf etdiyinə görə və iqtidarın fəaliyyətindəki uğurlara görə insanlar bu partiyanın nə olduğunu daha da yaxşı anlaya bilirlər və beləri öz talelərini Yeni Azərbaycan Partiyası ilə bağlayırlar. Bizə belə sədaqətli, saf niyyətlə və saf duyğularla gələn partiya üzvləri lazımdır.**



Partiyamız, onun yerli təşkilatları çox iş görüblər. Ancaq hesab etməyin ki, həm yerli təşkilatların içərisində, həm partiyanın rəhbərliyində nöqsanlar, çatışmazlıqlar, bəzən səhvlər də yoxdur. Bunlar var. Bir yerdə çox, bir yerdə az. Biz heç vaxt "Hər şey yaxşıdır", "Hər şey – urra" – belə fikirdə olmamalıyıq. Partiyada gərək elə mühit yaransın ki, yaxşı ilə pis seçilə bilsin. Fəal və passiv partiya üzvləri bir-birindən seçilə bilsin.

Kimsə, haradasa bizim partiyaya mənsubiyyətindən sui-istifadə edirsə, yaxud da ki, partiya üzvü olaraq kimsə müəyyən dövlət orqanlarında vəzifədədirsə, onların səhvlərini heç vaxt bağışlamaq olmaz. Ona görə də partiyadaxili demokratiya, fikir azadlığı mütləq təmin olunmalıdır. Heç kəs, heç nədən qorxmamalıdır. İndi keçmişdəki vaxt deyildir ki, Kommunist partiyasından kim çıxırdısa, hesab edirdilər, o, artıq ölüb getdi. Yox. Yenə də deyirəm, bu partiya könüllülər partiyasıdır. YAP qəlbən ona bağlı olanların partiyasıdır. Ona görə də gərək partiyada, yenə də deyirəm, hər bir təşkilatda, partiyadaxili demokratiya bərqərar olsun. Fikir mübadiləsi olsun, fikir azadlığı olsun. Yalnız bu yolla biz partiyamızı həmişə sağlamlaşdıra, daha da mətinləşdirə, daha da gücləndirə bilərik.

Partiyamız gərək təbliğat işləri ilə də çox ciddi məşğul olsun. Azərbaycanda biz hakimiyyətə gələndən insanlar üçün tam azadlıq, sərbəstlik, o cümlədən söz azadlığı, mətbuat azadlığı Konstitusiya ilə təmin olunubdur. Biz də bunu əməli surətdə yerinə yetiririk. Azərbaycan cəmiyyətində müxtəlif qüvvələr vardır. Bizim partiyaya, bizim iqtidara müxalifətdə olan partiyalar, yaxud qüvvələr var. Buna da təəccüb etmək lazım deyildir. Demokratik dövlətdə hamı bir cür ola bilməz. Hamı eyni fikirdə ola bilməz. Demokratiyanın əsas prinsiplərindən biri budur ki, siyasi plüralizm hökm sürsün. Biz də bunu edirik və etməyə çalışırıq.

Ona görə də Azərbaycanda bizim partiyamıza, bugünkü iqtidara müxalifətin mövcudluğu heç kəsi narahat etməməlidir. Bu tamamilə təbii haldır. Əgər müxalifət olmasa, demokratiya da olmaz. Ancaq bunun ikinci tərəfi də var. Bizim iqtidarda çox yüksək vəzifələrdəki bəzi adamlar partiya üzvü deyillər. Təəssüflər olsun ki,onlar bu partiyanın

kölgəsində, Azərbaycan Prezidentinin, - bağışlayın, mən bu sözü deməyə məcburam, - kölgəsində oturublar, işləyirlər, işlərini görürlər, ancaq siyasi mübarizəyə qoşulmurlar.

Biz böyük partiyayıq, iqtidarda olan partiyayıq. Amma bizimlə mübarizə edənlər var. Əgər ayrı - ayrı adamlar, məsələn, bizim siyasi işlərdə çalışanlar bizimlə mübarizə edənlərlə məşğul olmasalar, partiyanın hər bir üzvü bunu özünün vəzifəsi kimi anlaya bilməsə, bu, əlbəttə ki, həm partiyamızı, həm də iqtidarı zəiflədəcəkdir. **Ona görə də bizim partiyamızın üzvlərinin hər biri, partiya təşkilatları daim partiyamızın və iqtidarın qorunması üçün, möhkəmlənməsi üçün öz payını verməlidir, öz xidmətini göstərməlidir. Düşünməməlidir ki, onsuz da biz iqtidardayıq, müxalifət nə edirsə etsin. Bu, düz deyildir. Müxalifət haqqında mən bir neçə kəlmə deyəcəyəm. Bunu deyərək mən onu da nəzərə alıram ki, bizim müxalifət, - burada artıq çox deyildi, - normal müxalifət deyildir. Bizim müxalifət çox radikal, düşməncəsinə mövqelərdə duran müxalifətdir. Onlar və onlara havadarlıq edənlər çoxsaylı qəzetlər, jurnallar buraxırlar. Bu qəzetlərdə də, təbii ki, onlar özlərini təbliğ edirlər. Amma ondan da çox iqtidarı tənqid edirlər, iqtidarı təhqir edirlər, şayiələr, yalanlar, uydurmalar yazırlar və beləliklə də bizim hamımızı ləkələmək istəyirlər. Ona görə də bunlar ifşa olunmalıdır.**

**Müxalifət müxalifətliyini etsin, amma ona cavab verilməlidir. Özü də tutarlı cavab verilməlidir. Ancaq tək-tək adamlar yox, bizim bir neçə qəzetimiz var, təkcə onlar yox, hər kəs öz yerində cavab verməlidir.**

Çünki ümumiyyətlə, bu, iqtidar-müxalifətin prinsipidir. **Ancaq mən sizə deyə bilərəm ki, bizim müxalifət mənfi nöqteyi-nəzərdən dünyada bütün müxalifətlərdən fərqlidir. Heç bir ölkədə belə müxalifət yoxdur.** Bunlar, üzr istəyirəm, hər bir, hətta çirkin, tərbiyəsiz yollara gedirlər, qəzetlərində təhqir edirlər. Hamıdan çox kimi? Prezidenti.

Mən bu müxalifət qəzetlərini heç oxumuram. Amma mənim işçilərim var, bəzən oxuyurlar, hərdən-bir soruşuram ki, burada nə



var, nə yox? Bir də görürsən ki, "Yeni müsavat" qəzetinin bir nömrəsində on məqalə Heydər Əliyevə həsr olunubdur. Yəni Heydər Əliyevi tərifləmirlər ki? Heydər Əliyevə yaxşı adam demirlər ki? Yalanlar, uydurmalar, təhqirlər, filanlar. İndi də İlham Əliyevi hallandırmağa başlayıblar. Amma bunu elə bizim partiyanın üzvləri də oxuyurlar. **Bizim iqtidarda, mənim yanımda böyük vəzifədə olan adamlar da oxuyurlar, sakit otururlar. Ancaq əgər bizim iqtidarda olan adamlardan kiminsə haqqında hansısa bir uydurma, yalan yazırlarsa, o, artıq partlayır, gecə yata bilmir, nə bilim, özündən çıxır ki, niyə onun haqqında yazıblar. Təəssüflər olsun ki, bəziləri də, məsələn, yazırlar ki, filankəs Prezident olacaq, filankəs Milli Məclisin sədri olacaq, filankəs filankəs olacaqdır. Əlbəttə, mən heç narahat deyiləm. Mən Prezidentəm və uzun müddət Prezident olacağam, narahat olmayın.**

Ancaq başqa vəzifəli şəxslərin bəziləri fikirləşməyə başlayır ki, yəqin onları işdən çıxaracaqlar. Bəziləri fikirləşməyə başlayır ki, bəlkə Prezidentin mənə münasibəti dəyişibdir. Bəziləri deyirlər, yox, bu, bizi təhqir etdi, filan etdi. Bilirsiniz, mən ümumiyyətlə, o qəzetlərdə dərc olunan təhqirləri, yalan şayiələri, uydurmaları və bu kimi məqalələri -mənəviyyatsız, tərbiyəsiz insanlar tərəfindən yaradılan məqalələri mənəviyyatsız, tərbiyəsiz məqalələr kimi qəbul edirəm.

**Dünən "Müsavat" qəzetində yazıblar ki, Heydər Əliyevin səhhətində problemlər var, qurultayda iştirak etməyəcək, çıxış etməyəcək, filan. Ay vicdansızlar, Heydər Əliyev 18 oktyabrda, Azərbaycanın müstəqilliyinin 10-cu ilində burada, bu kürsüdən iki saat nitq söyləyibdir. Ondan bir az sonra, noyabr ayının 9-da dünya azərbaycanlılarının iki gün keçən qurultayında iştirak etmişəm və bir saat yarım nitq söyləmişəm. Bu gün də sizin qarşınızdayam. Qoy bunu görsünlər, eşitsinlər və onların gözləri çıxsın. Mən bunları deyərək, əsas fikri bir də izah etmək istəyirəm ki, bax, belə bir qeyri-normal müxalifət və müxalifət qəzetləri olduğu halda, belə dağıdıcı, yalançı, böhtançı yazılar getdiyi halda, gərək hamımız mübarizədə olaq. Mən**

**mübarizədəyəm. Hamısının cavabını necə lazımdır, verirəm. Amma o yazıların da heç birinə fikir vermirəm. Çünki hamısı yalandır, nəyinə fikir verəcəyəm. Əgər məni bir şey narahat edərdisə, izahat verərdim, bəli, bu, məni narahat edir. Amma neçə ildir ki, bu yalanları yazırlar, yazırlar, yazırlar. Mənə belə gəlir ki, elə ömürlərinin axırlarına qədər yazacaqlar və bəlkə o dünyada da yazacaqlar.**

**Mən sizin hamınızı – həm burada oturanları, həm orada oturanları, həm də bizim bütün partiyanı siyasi mübarizədə iştirak etməyə, onlara tutarlı cavablar verməyə, onların çirkin hərəkətlərini ifşa etməyə dəvət edirəm. Bunlar sizin hamınızın borcudur.**

Siyasi məsələ haqqında danışarkən bir məsələyə toxunmaq istəyirəm. Bizim partiyamızda əsasən çox yüksək səviyyəli insanlar vardır. Burada deyildi, alimlər - professorlar, akademiklər, sadəcə, çox ağıllı adamlar, mütəxəssislər vardır. Ona görə ümumiyyətlə, bizim partiyanın say tərkibi, yəni ümumi tərkibi intellektual nöqteyi-nəzərdən çox yüksəkdir və heç bir partiya bununla müqayisəyə gələ bilməz.

O biri partiyalarda 3-4 adam var. Guya onların başçılarıdır. Onlar da siz bilirsiniz də... Bu barədə danışmaq istəmirəm. Amma qalan kim var, heç bilinmir. Azərbaycan cəmiyyətinin qaymağı bizim partiyadadır. Ancaq bu, o demək deyil ki, biz elə durduğumuz yerdə durmalıyıq. Bizim partiyada gərək partiya üzvlərinin siyasi, iqtisadi və bütün beynəlxalq məsələlərlə əlaqədar, başqa məsələlərlə əlaqədar bilikləri, səviyyələri get-gedə artsın. Heç kəs yerində donub dura bilməz. Kim ki donur, o, artıq cəmiyyət üçün o qədər də lazım deyildir. Hər kəs inkişafda olmalıdır. Bizim partiyanın üzvləri də daim inkişafda olmalıdırlar. Əgər o, bu gün böyük bir işi bilən adamdırsa, alimdirsə, gərək sabah ondan da yüksək alim olsun, yaxud ondan da yüksək mühəndis olsun, ondan da yüksək aqronom olsun, ondan da yüksək ticarətçi, biznesmen olsun və sair. Ona görə də mən hesab edirəm ki, bu qurultaydan sonra bizim partiyanın konkret iş planında bu məsələləri mütləq qeyd etmək lazımdır.



Burada məruzədə və çıxışlarda Yeni Azərbaycan Partiyasında gənclərin tutduğu yer haqqında məlumatlar verildi. Bu, təbii bir şeydir. Həyat inkişaf edir, nəsillər nəsilləri əvəz edir. Naxçıvanda bizim partiyanı yaradanlar, - mən bunu demişəm, indi də deyirəm, - partiyanın veteranlarıdır, partiyanın qızıl fondudur. Bizim partiyada bunlara həmişə hörmət olmalıdır və onların xidmətləri həmişə yüksək qiymətləndirilməlidir. Əgər partiyaya sonra gələnlər olmasaydı, bizim partiyanın 230 min üzvü olmazdı. Əlbəttə ki, kim qəlbinin hökmü ilə, könüldən bizim partiyaya gəlibdir, onların hamısı qiymətlidir. Amma eyni zamanda, gərək partiyada gənclərin sayı daha da artıq olsun. Çünki gənclər bu partiyada bişməlidirlər.

Məsələn, burada universitetdən çıxış edən tələbə dedi ki, 1992-1993-cü illərdə mənim 10 yaşım var idi. Doğrudan da belədir. Bu gün 20 yaşı olan adamın, yaxud 18 yaşı olan adamın 1991-1993-cü illərdə 10 yaşı var idi. O vaxtkı ictimai-siyasi vəziyyəti bizim kimi bilməzdi. Mən bəzən tarixin çox şeylərindən gördüklərimi deyirəm. Ona görə ki, mən bu illəri yaşamışam, çox şey görmüşəm, çox məsələlərlə rastlaşmışam. Əlbəttə, bu qədər həyat sürərək mən hər şeyi görmüşəm və hər şeyi də qiymətləndirə bilirəm. Amma bu gənc, hansı ki, SSRİ dağılanda onun 10 yaşı var idi, indi 20 yaşı var, onun keçmiş dövr haqqında məlumatı yoxdur. Azərbaycanın müstəqillik yolunun nə qədər ağır dövrdən keçməsindən onun məlumatı yoxdur. **Ona görə mənə belə gəlir ki, birincisi, gənclər bizim partiyanın sıralarında xüsusi qayğıya malik olmalıdırlar. Onlara qayğı göstərmək lazımdır. İkincisi də, gənclər arasında geniş iş apararaq, partiyanın nizamnaməsini, məramnaməsini və partiyanın gördüyü işləri onlara anlatmaq lazımdır.** Onda əlbəttə ki, gənclər bizim partiyanı yaxşı tanıyacaqlar. Əgər yaxşı tanıyacaqlarsa, doğrudan da bir gənc adam kimi bizim partiyaya məhəbbəti, könlü olacaqsa, onlar bizim partiyaya gələcəklər.

Hesab edirəm ki, bizim partiyanın bu barədə yaxşı gələcəyi vardır. Çünki indi partiyada olan gənclər, bundan sonra da partiyaya gələcək gənclər bizim gələcək nəsillərimizdir. Onlar 1992-ci ildə Naxçıvanda əsası qoyulmuş və 1993-cü ildən iqtidarda olan partiyamızın gördüyü

işlərin davamçısı olmalıdırlar. **Hesab edirəm, elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xətalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyyatlar yolu ilə və bizim partiyaya sədaqətli yol ilə getməlidirlər.**

Bizim partiyada qadınların xeyli yer tutması da sevindirici haldır. Qadınlar cəmiyyətdə çox həlledici təbəqədir. Deyirlər ki, çox adamlar, kişilər qadınlarından qorxurlar. Yəqin burada oturanlardan da belələri var. Niyə qorxur, nədən ötrü qorxur? Çünki qadın həmişə çalışır ki, ailə sağlam olsun. Qadınların əksəriyyəti ailənin əxlaqını qoruyur. Amma qorumayanlar da var. Qadın ailənin özəyidir, ailəni saxlayan bir insandır. Ona görə də bütün qadınlar bizim cəmiyyətdə çox əhəmiyyətli rol oynayırlar. Təkcə dövlət işlərində, yaxud da ki, biznesdə, filanda yox. Evdə oturub ailəsini saxlayır, öz ailəsi ilə məşğuldur. Amma onun xidməti ondan ibarətdir ki, uşaqları sağlam böyüsünlər. Xidməti ondan ibarətdir ki, onun əri gedib içkiyə qurşanmasın, pis yola düşməsin. Bax, bunlar hamısı qadınların ailədə rolunu göstərir.

**Mən bunları deyərək, qadınların bizim üçün nə qədər əziz olduğunu bir daha bəyan etmək istəyirəm. Ancaq eyni zamanda bizim partiyada olan qadınlar, əgər doğrudan könüldən bizim partiyadadırlarsa, onlar bizim üçün çox əzizdir.** Çünki siyasi işlərlə əksərən kişilər məşğul olur. Elə başqa partiyaların tərkibində də həmişə belə olubdur. Amma bizim partiyada qadınların burada deyilən qədər olması, partiyamızın cəmiyyətin bütün təbəqələrini təmsil etməsini göstərir.

**Partiyamızda, yerli təşkilatlarda qadınlara xüsusi qayğı göstərmək lazımdır. Onların problemləri ola bilər, bunları mütləq həll etmək lazımdır. Onlara kömək etmək lazımdır. Təbiidir ki, bunlar hamısı bizim partiyanın üzvü olan qadınların partiyaya daha da sədaqətlə xidmət etməsinə yardım edəcəkdir.**

Beləliklə, bizim partiyanın mənzərəsini bu gün həm məruzədə, çıxışlarda dedilər, həm də mən öz nitqimdə bildirdim və qarşımızda duran vəzifələr haqqında da danışdım. Biz ötən səkkiz ildə Azərbaycanda böyük sınaqlardan, - bilirsiniz, 1993-cü, 1994-cü, 1995-ci illərdə dövlət çevrilişlərinə cəhd, ondan sonra mənə qarşı terror, raketlə təyyarənin vurulması, körpünün partladılması cəhdləri, başqa şeylər – keçdik və dövlətimiz möhkəmləndi. Bizim dövlətimiz, həm iqtidar, həm də partiyamız məhz bu cür şər, cinayətkar qüvvələrlə, xalqımıza qarşı xəyanətkar olan qüvvələrlə mübarizədə möhkəmləndi. **Ancaq bizim əsas məqsədimiz ondan ibarət olubdur ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirək və inkişaf etdirək. Biz bunu etmişik və artıq Azərbaycanda dövlət müstəqilliyi sarsılmazdır, dönməzdir və əbədidir.** Ancaq bunun üçün çox işlər görmək lazım idi. Təkcə elə deyəsən ki, biz dövlət müstəqilliyini möhkəmləndiririk... Nə cür möhkəmləndirirsən? Nə edirsən? Biz iftixar hissi ilə deyə bilərik ki, 1993-cü ilin o ağır böhran dövründən ölkəmizi çıxardıq və böhran vəziyyətini ləğv etdik, ictimai-siyasi sabitlik yaratdıq və onu qoruyuruq. Baxmayaraq ki, **daxilimizdə olan guya bəzi siyasi partiyalar, qruplar, filanlar demokratiya pərdəsi altında ictimai-siyasi sabitliyi pozmaq istəyirlər, amma bu, onlara müəssər olmayacaqdır. Heç kim bunu poza bilməyəcək, Azərbaycanda ictimai-siyasi sabitlik, insanların rahat yaşaması, insanların əmin-amanlığı daimi olacaqdır.**

Ancaq bunlar hamısı vasitədir. **Əsas vəzifəmiz isə Azərbaycanın dövlət quruculuğudur. Azərbaycanda keçirilən islahatlardır - siyasi, iqtisadi, sosial və başqa islahatlardır. Yəni Azərbaycanı tutduğu yol ilə, demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə ardıcıl surətdə inkişaf etdirməkdən ibarətdir. Biz burada da çox şeyə nail olmuşuq.**

**Biz bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda yeni bir sistem yaranıbdır. Dünya standartlarına yaxınlaşan, dünya standartlarına çatmağa çalışan hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Budur bizim nailiyyətimiz. Bu, nə təhər deyərlər, təkcə bir çərçivədə olan məfhum deyildir.** Bu, bütün sahələrdə özünü göstərir. Bizim Konstitusiyamız, qəbul etdiyimiz qanunlar, onların icrası, cəmiyyətə bütün sahələrdə verilən azadlıq, sərbəstlik – bunlar hamısı bizim dövlətçilik anlayışımızın tərkib hissələridir.





2405
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Mən dedim ki, bir çox sahələrdə, yəni bütün sahələrdə islahatlar apardıq və bunlar öz nəticəsini verir. Bu onu göstərir ki, Azərbaycanın müstəqilliyini elan edəndən sonra bəyan etdiyi demokratiya, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, dünya birliyinə, dünya iqtisadiyyatına inteqrasiya prinsiplərinə biz həm başlamışıq, həm də böyük nailiyyətlər əldə etmişik və elə yola çıxmışıq ki, artıq bundan sonra daha da sürətlə irəliləyəcəyik.

Azərbaycanda müxalifətdə olan partiyalar daim demokratiya haqqında danışırlar. İndi hamısı, hərə özünə bir demkonqres yaradıbdır. Burada bir demkonqres, orada o biri demkonqres, sabah üçüncü demkonqres də yaranacaqdır. Sən hələ Azərbaycan üçün bir iş görməmisən. **Azərbaycanda demokratiyanı yaradan, inkişaf etdirən biz, Azərbaycanda islahatları həyata keçirən biz, Azərbaycanı dünyada tanıdan biz, bütün azadlıqları verən biz, indi necə oldu ki, siz demokrat oldunuz, iqtidar və Yeni Azərbaycan Partiyası antidemokrat oldu?** Mən deyirdim ki, mübarizə apararaq, bax, bunları ifşa etmək lazımdır.

Bilirsiniz, adam özünə istədiyi adı qoya bilər - Həsən də, Hüseyn də, Məmməd də, Şirməmməd də, Aslan da. Bu, insana xas olan şeydir. Ancaq təbiidir, siyasi partiya özünə ad qoyur, amma ondan savayı, özünü hansısa bir mütərəqqi işin aparıcısı hesab edir.

Bizdə isə bu, ona bənzəyir ki, heç bir şey etməyəsən, amma deyəsən, bunu da mən etdim, onu da mən etdim, başqasını da mən etdim. **Azərbaycanda həqiqi demokratiya yaranıbdır, onu yaradan da Azərbaycanın iqtidarıdır, onun Prezidentidir, Yeni Azərbaycan Partiyasıdır və biz heç bir demkonqres tanımırıq.**

Demokratiyanın prinsipləri nədən ibarətdir? Siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, sərbəst iqtisadiyyat, hər bir insanın tam azad olması, demokratik seçkilərin keçirilməsi, demokratiya prinsipləri əsasında dövlət təsisatlarının yaranması və müxtəlif islahatların həyata keçirilməsi. Demokratiya mücərrəd anlayış deyildir, bunlardan ibarətdir. Biz bunları etmişik və edirik. Əgər biz bunları etməsəydik, Azərbaycan ötən dövrdə ağır vəziyyətdən çıxıb indi bu səviyyəyə qalxa bilərdimi? Ona görə həqiqi demokratiya iqtidarın yaratdığı



demokratiyadır. Həqiqi demokratiya Yeni Azərbaycan Partiyasına mənsubdur.

Müxalifətdəkilər indi demokratiya pərdəsi altında nə edirlər? Dedim, qəzetlərdə yazırlar, çalışırlar özlərinə tərəfdarlar toplasınlar. Bu da mümkün deyildir. Burada Qusar rayonundan çıxış edən nümayəndə çox gözəl sözlər danışdı. Mən çox faktlar deyə bilərəm. Amma mən 1993-cü ildə buraya gələndə - bizim o nümayəndə yəqin ki, onların şahidi olubdur – Qusarda nə vəziyyət var idi. Oraya bir icra hakimiyyətinin başçısı qoymuşdular. O, gah Rəhim Qazıyevə xidmət edirdi, gah o birilərinə xidmət edirdi və eyni zamanda orada qeyri-sağlam əhval-ruhiyyə getdikcə güclənirdi. Orada çox gərgin vəziyyət yaranmışdı. 1993-cü ildə, cəmi bir ay idi ki, mən buraya gəlmişdim, Zuxul və Piral kəndlərində böyük bir hadisə baş verdi. Əlbəttə ki, hadisə Azərbaycanı parçalamaq, separatçılıq əhval-ruhiyyələri ilə bağlı idi.

Mən Qusardan gələn bizim nümayəndə ilə yüz faiz razıyam, onların ən böyük səhvlərindən biri o oldu ki, Azərbaycan millətini, yüz illərlə formalaşmış Azərbaycan millətini parçalamağa başladılar - bunlar türklərdir, o birisilər kürdlərdir, ləzgilərdir, avarlardır, talışlardır, filandır, filandır, filandır. Amma, demək, Azərbaycanın nə təhər deyərlər, böyük elitası bunlardır. Bundan da dəhşətli şey yoxdur və bu, Azərbaycanın parçalanma vəziyyətinə düşməsinin əsas səbəblərindən biri olmuşdur. Biz bunları aradan götürdük.

**Mən bu gün deyirəm ki, Azərbaycan xalqı vahid xalqdır. Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulubdur. Biz hamımız, hansı bölgədən olmağımızdan asılı olmayaraq, azərbaycançı kimi on illərlə, yüz illərlə belə böyümüşük. Heç vaxt deməmişik ki, bunun kökü nədir, onun kökü nədir? Azərbaycanda yaşayan insanların hamısı – mən xristianları demirəm – həmişə özünü azərbaycanlı hesab ediblər. Onlar həqiqətən, azərbaycanlıdırlar və hamımız birlikdə ən əsas məqsədimiz azərbaycançılığı möhkəmləndirmək, qorumaq və bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir.**

Mən dedim, müxalifətin fəaliyyəti bir qəzetlərdədir, bir də mitinqlər keçirmək istəyirlər. Keçirirlər, bəzən 500 adam yığılar, bəzən nə bilim, neçə adam yığırlar.

Xatirimdədir, 1993-cü ildə siz məni buraya dəvət etdiniz, xalq da dəvət etdi. Amma həqiqətən, o vaxtkı mərhum Prezident mənə dörd gün telefon açdı, məni dəvət etdi. Parlamentin sədri, baş nazir məni dəvət etdilər. Amma mən gəlmək istəmirdim. Bu hadisələr məlumdur, gəldim, parlamentin sədri seçildim. Bir gün Prezidentin, mərhum Əbülfəz Elçibəyin yanında idim. Azərbaycanda ağır vəziyyət idi, Surət Hüseynov da oradan ordusu ilə artıq Bakıya gəlirdi.

Onlar Prezident sarayının qarşısında mitinq keçirmək istəyirdilər. Mən bunu bilmirdim, Prezidentin yanında oturmuşdum. Gəldilər, dedilər ki, bəy, mitinqə toplaşıblar, sizi gözləyirlər. Mən onun otağında, kabinetində idim, pəncərədən baxdım, gördüm, orada cəmi 200-300-400 adam var, hamısı da hərbi formada. Nə mitinq var, nə vətəndaşlar var. **Bax, onların mitinqi bu idi. İndi döşlərinə çox döyürlər ki, Azadlıq meydanında bir milyon adam yığılırdı. Bəli, yığılırdı, amma sizə görə yox. Siz Azərbaycanda böhran yaradanda heç kəs sizi dəstəkləmədi, heç kəs gəlmədi.**

Biz də mitinq keçirmişik. Nə vaxt? 1994-cü ilin oktyabr ayında Surət Hüseynov və OMON-un başçısı gedib bizim Prokurorluğu zəbt etmişdilər. Onlar bir yerdə hərəkət edirdilər. Surət Hüseynov da hakimiyyəti ələ keçirmək istəyirdi. Gəncədə bir çox şeyləri almışdı. Mən indi həqiqəti sizə deyirəm, o vaxt mənim əlimdə ordunun böyük hissəsi yox idi, ayrı-ayrı adamların əlində, o cümlədən Surət Hüseynovun əlində idi. Mən çox vasitələrdən istifadə elədim. Surət Hüseynovu çağırdım, dedi, mən bilmirəm. Sonra ikinci dəfə çağıranda yox oldu, onu beş-altı saat tapa bilmədim. Amma artıq Gəncədə çox şeyi əllərinə keçirmişdilər. Mən axşam saat 10.00-da camaata müraciət etdim. İki saatın içində Prezident sarayının qarşısında yüz minlərlə insan toplaşdı. Mən baxırdım, bəzi qoca qadınlar, gənc qadınlar qucağında südəmər uşaqla gəlmişdilər. Hətta mən bir uşağı alıb öpdüm, yadımdadır. Orada kimlər yox idi. Mən mitinq etmədim, sadəcə, xalqa müraciət etdim. Dedim ki, dövlətçilik təhlükə altındadır, xahiş edirəm, Prezident sarayının ətrafına toplaşasınız. Bununla da onların qarşısını aldıq.



Xatirinizdədir, sabahısı gün Azadlıq meydanında təkcə Bakıdan yox, başqa yerlərdən bir milyondan artıq insan toplaşdı. Bəli, biz orada mitinq etdik. Amma başqa mitinqə ehtiyacımız yoxdur. İndi siz, müxalifət gedib 500-600, 1000-2000 adam yığıb mitinq etməklə nə istəyirsiniz, nə deyirsiniz? Şüarlar nədir: çörək, xalq səfalət içindədir, bir az da Qarabağ məsələsini çox hallandırırlar. Onların tələbləri bunlardır.

Yaxşı, xatirinizdə deyilmi ki, həmin 1992-1993-cü illərdə burada çörək yox idi? Bunu unutmusunuz? İndi Azərbaycanda çörək doludur, o yer yoxdur ki, çörək olmasın. Əlbəttə, bəzi adamlar var ki, kasıbdırlar, çox şeyləri ala bilmirlər. Amma hamısı çörəyi alır.

Müxalifət deyir ki, bu iqtidar heç bir iş görməyibdir. Mən dövlətçilik barəsində gördüyümüz işlər haqqında danışdım. Ancaq mən sizə iqtisadiyyat sahəsində əldə olunan nailiyyətlər haqqında bir neçə məlumat verirəm ki, həm özünüz biləsiniz, həm də siz bunlardan siyasi mübarizədə istifadə edə biləsiniz. Təəssüf ki, bizim adamların çoxu bu konkret rəqəmləri bilmir və onlardan istifadə etmir.

**1991-1995-ci illərdə ümumi daxili məhsul 58 faiz, sənaye məhsulu 67 faiz, kənd təsərrüfatı məhsulu 48 faiz azalmışdı. Təsəvvür edin. Ancaq 1996-2001-ci illərdə ümumi daxili məhsul üzrə artım 55 faiz olubdur. Təsəvvür edin, ondan qabaqkı beş il ərzində 58 faiz azalmış, amma sonrakı beş il ərzində 55 faiz artmışdır. Sənaye məhsulu təxminən 20 faiz artıbdır. Kənd təsərrüfatı məhsulu üzrə, demək olar ki, 40 faiz artım var. Əmtəə dövriyyəsi 2 dəfə artıbdır. Bizim gördüyümüz işlər, budur.** Hamısı statistikadadır, həm bizim dövlət statistikasında, həm də bütün dünyada maliyyə mərkəzlərində olan rəqəmlərdir.

**Kapital qoyuluşunun həcmi 1991-1995-ci illərdə 43 faiz azalmışdı. 1996-2001-ci illərdə isə 4 dəfə artmışdır. Təsəvvür edin. Əgər 1991-1995-ci illərdə inflyasiyanın səviyyəsi ildə 14-18 dəfə, yəni 1800 faiz artırdısa, 1996-2001-ci illərdə, yəni beş ildə artım cəmi 16 faiz olmuşdur. Yəni, demək olar ki, inflyasiya yox-**

**dur və bu 16 faiz də tamamilə təbiidir.** Bu, maliyyə sistemində olan təbii bir şeydir. **Azərbaycan MDB ölkələri içərisində, demək olar, yeganə ölkədir ki, artıq 5-6 ildir biz inflyasiyanın qarşısını almışıq.**

İnflyasiya nə deməkdir? İnflyasiya artanda pul qiymətdən düşür, alıcılıq qabiliyyəti azalır. Məsələn, indi biz çox böyük ürək ağrısı ilə müşahidə edirik ki, Türkiyədə böyük inflyasiya oldu və bu, dərhal iqtisadiyyata böyük təsir göstərdi. Amma bizdə inflyasiya yoxdur.

Biz konkret olaraq hansı sahədə nələr əldə etmişik? Məsələn, kənd təsərrüfatında biz 1995-1996-cı illərdən torpaq islahatı keçirdik. O vaxt bu, bizim üçün cəsarətli addım idi. Çünki MDB ölkələrinin heç birində torpaq islahatı keçirilməmişdir və çoxunda bu günə qədər də aparılmamışdır. Bəzilərində kolxozlar, sovxozlar var, bəzilərində torpağı 20, 30 illiyə icarəyə verirlər. Amma biz nə etdik? Biz bu islahatla torpağı kəndlilərə verdik. Mal-qaranı kəndlilərə verdik. Texnikanı kəndlilərə verdik. Çünki biz inanırdıq ki, kənd təsərrüfatını ancaq bu yol ilə inkişaf etdirə bilərik və etdirdik.

İndi təsəvvür edin, **1995-2001-ci illərdə taxıl yığımı 2 dəfə artmışdır. Bu il 2 milyon tondan çox taxıl yığılmışdır ki, bu da rekord göstəricidir. Kartof istehsalı 3,9 dəfə artmış, 605 min ton olmuşdur. Mən keçmişdə burada işləyən adam kimi deyə bilərəm ki, biz 1970-ci illərdə cəmi 100 min ton kartof istehsal edə bilirdik və qalanını xaricdən alırdıq. İndi isə, dediyim kimi, 600 min tondan çox kartof istehsal edilib və bu da 1995-ci ilə nisbətən 3,9 dəfə artım deməkdir.**

**Tərəvəz istehsalı 2,1 dəfə artmış, 880 min ton olmuşdur. Bu da rekord göstəricidir. Kartof istehsalı da rekord göstəricidir. Bostan məhsulları 6,9 dəfə artmışdır. Təsəvvür edin, 6,9 dəfə artmışdır. Bu da rekord göstəricidir. Meyvə-giləmeyvə 1,5 dəfə artmışdır. Ət istehsalı 40 faiz, süd istehsalı 1,3 dəfə artmışdır. Bunlar da rekord göstəricilərdir. Heç biri indiyə qədər olmamışdır.** Beləliklə, biz kənd təsərrüfatında nə qədər böyük nailiyyətlər əldə etmişik. Çörək, ərzaq dediyimiz şeylər, bunlardır.



**Burada iki böyük nəticə var. Birincisi, kəndli torpağının sahibidir, işləyir, məhsul isteshal edir, satır, qazanır. İkincisi, respublikamız lazım olan ərzaq malları ilə təchiz olunur. Biz indi xaricdən ət, kartof, başqa şeylər gətirmirik. Daxili məhsul hesabına yaşayırıq. Məhz buna görədir ki, kənd yerlərində - burada kənd yerlərindən gələnlər var, onlar mənim dediyimi təsdiq edərlər – böyük tikinti işləri gedir, evlər tikilir, abadlıq işləri gedir.**

Məsələn, Qaradağda daş karxanası var, mənə deyirlər ki, oradan 400 kilometr məsafəyə mişar daşı aparırlar ki, ev tiksinlər. Birincisi, baxın, bu daşın qiyməti, ikincisi, onun nəqliyyat xərci. Üçünçüsü də, təkcə daş deyil ki, başqa şeylər də var. Demək, bunlar hamısı kəndlinin rifah halının yaxşılaşmasını göstərir. Doğrudur, ola bilər, rayon mərkəzlərində, torpaqla əlaqədar olmayan sahələrdə belə deyildir. Ancaq bu da bizim günahımız deyil, bazar iqtisadiyyatı belədir ki, kim çalışır, iş görür qazanır və təbii ki, nəticəsini də götürür.

Heyvandarlıq məhsulları istehsalının həcmi 1996-cı ildən başlayaraq ildə orta hesabla 4-5 faiz artmışdır. Məsələn, mən sizə bir problem barədə deyim. Biz 1970-ci illərdə maldarlıqla məşğul olurduq. Nə qədər çalışırdıq ki, - kənd yerindən olan adamlar yəqin məni daha yaxşı başa düşərlər, - qaramalda inəklərin sayını 25 faizə çatdıraq. Çünki inək süd verir, inək doğur, bala verir. Demək, qaramalın sayını artırır. Amma 25 faizə çatdıra bilmirdik. 23-24 faiz ən yüksək göstərici olurdu.

**İndi qaramalın sayı 2 milyon başı keçibdir və onun tərkibində məhsuldar heyvanların, yəni inəklərin xüsusi çəkisi, demək olar ki, 50 faiz təşkil edir.** Biz o vaxt 25 faizə çatdıra bilmirdik, indi 50 faiz təşkil edir. Çünki o vaxt kolxozda biri yeyirdi, biri oğurlayırdı, digəri yaxşı baxmırdı. Çünki onun şəxsi malı deyildi. Amma indi onun şəxsi malıdır. Ona görə də çalışır, həmin məhsuldarlığa da nail olur.

Bizim iqtisadi siyasətimizin əsas istiqamətlərindən biri investisiya qoyuluşudur. Həm xarici investisiya, həm də daxili imkanlardan investisiya qoyuluşudur. **1995-2001-ci illərdə iqtisadiyyata 37 trilyon manatdan çox, yəni 9 milyard dollar investisiya qoyulmuşdur.**

**Bunun 27 trilyon manatı və ya 6 milyard dollardan çoxu, yəni 70 faizi xarici investisiyanın, qalanı isə daxili investisiyanın payına düşür.**

Bilirsiniz, nə edirsən, müxalifətin xoşuna gəlmir. Nəinki xoşuna gəlmir, pisləyir. Biz neft müqavilələrini imzalamağa başlayanda onlar deyirdilər ki, "ay, bizim sərvətlər dağıdılacaqdır". Bəziləri də, - sizə məlum bir şəxs var, indi Amerikada cürbəcür çirkin işlərlə məşğul olur, - buna mane olurdular.

Neft müqavilələrini bağladıq. Onların nəticəsini görürük. Burada artıq deyildi ki, biz iki kəmərlə nefti ixrac edirik. Neçə illərdir Bakı-Tbilisi-Ceyhan kəməri üzərində işləyirdik. Onu da reallaşdırdıq. İndi qaz hasil edib Türkiyəyə ixrac edəcəyik. Bunlar reallıqdır, göz qabağındadır. Bunları inkar etmək mümkün deyildir. İndi nə deyirlər? Deyirlər ki, bilirsinizmi, hər şeyi neft sektoru ilə bağlamaq lazım deyil, başqa sektorlara da baxmaq lazımdır. Bunu deyənlər heç bilmirlər ki, iqtisadiyyat nədir? Sektor nə deməkdir? Yaxşı, mən, ömrümün 50 ilini bu işə həsr etmiş adam bilmirəm ki, hansı sektor nədən ibarətdir və nə etmək lazımdır? Deyə bilərəm, həmin dövrdə - 1991-2001-ci illərdə neft sənayesinə 3,5 milyard dollar xarici investisiya qoyulubdur. Digər sahələrə isə 2,5 milyard dollar investisiya yönəldilibdir. Deməli, neft sənayesinə qoyulan investisiya 58 faiz, digər sahələr isə 42 faiz təşkil edir. Yaxşı, neft sənayesi ilə heç bir şey müqayisə oluna bilməz. Amma görün, biz qeyri-neft sektoruna 42 faiz investisiya qoymuşuq. Bu da getdikcə artacaqdır, hələ inkişaf edəcəkdir.

Bizim iqtisadiyyatımızın çox ümumiləşdirilmiş göstəriciləri var. Biz bazar iqtisadiyyatına keçdiyimizə görə özəl sektoru inkişaf etdiririk. Bunun da əsasında özəlləşdirmə proqramının, torpaq islahatının, maliyyə sahəsində islahatların həyata keçirilməsi durur. Bunun nəticəsində ümumi daxili məhsulun 68 faizi iqtisadiyyatımızın özəl sektorunun payına düşür. Təsəvvür edin, sənayedə istehsalın 44 faizi, kənd təsərrüfatında istehsalın 99 faizi özəl sektora mənsubdur. Ticarətdə özəl sektorun payı 98 faiz, tikintidə isə 64 faizdir. Yükdaşımaların 54 faizi özəl sektora aiddir. Sərnişin daşımalarında



özəl sektorun payı 83 faiz, rabitədə isə 61 faizdir. Bizim əldə etdiyimiz nəticələr, iqtisadi siyasətimizin bəhrələri bunlardır.

Bizim dövlətimizin siyasəti iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, birinci növbədə sosial problemləri həll etməkdən ibarətdir.

**1996-2001-ci illərdə işləyənlərin orta aylıq əmək haqqı 4,3 dəfə, pensiyaların orta aylıq məbləği 4 dəfə artmışdır. İndi bir işçinin orta aylıq nominal əmək haqqı 257 min manatdır. Bu da 55 Amerika dolları təşkil edir. Amma 5-6 il bundan əvvəl bu rəqəm heç 10 dollar da təşkil etmirdi.**

**2001-ci ilin on ayında isə əhalinin pul gəlirləri 10,7 faiz artmışdır. Əgər 1990-cı illərin birinci yarısında əhalinin real pul gəlirləri, inflyasiyanı nəzərə almadan, 3 dəfə azalmışdısa, sonrakı beşilliyin əvvəlindən bu günədək 3 dəfə artmışdır. Əli Həsənov burada dedi, məcburi köçkünlərə yemək xərci təkcə 2000-ci ildə, bir ilin içərisində 3 dəfə artırılmışdır.** Bir göstərici də var, bunu bir dəfə demişəm, amma bir də deyəcəyəm. **Bunların hamısı ondan ötrüdür ki, insan normal yaşasın, əhali artsın, insanın ömrü uzansın. İndi deyə bilərəm ki, bu müddətdə əhalinin orta ömür müddəti 2,5 il artmışdır. Orta hesabla ömür 2,5 il uzanmışdır.** Məsələn, əgər biri 60 yaşında ölürdüsə, indi 62-63 il ömür sürür. Bunu bir qədər loru dildə deyirəm ki, hamı başa düşsün. Kişilərin ömrü qadınlara nisbətən bir qədər çox uzanmışdır.

**Ən vacib göstəricilərdən biri, hesab edirəm ki, uşaq ölümü əmsalının 2 dəfəyə yaxın azalmasıdır. Hər bir ölkədə uşaq ölümü, körpə uşaqların ölümü həmişə çox böyük narahatçılıq törədir. Biz SSRİ vaxtında da həmişə bu göstəriciyə baxırdıq və bəzi respublikalarla müqayisə edirdik. İndi ölkəmizin bu ağır, çətin dövründə, - bunu həqiqətən demək lazımdır, - əgər uşaq ölümü əmsalı 2 dəfəyə yaxın azalmışsa, bu, çox gözəl sosial göstəricidir.**

Xarici ticarət... **Biz 120 ölkə ilə ticarət aparırıq. 1995-2000-ci illərdə xarici ticarət dövriyyəmiz 2,2 dəfə artmışdır. İndi 2,9 milyard ABŞ dolları təşkil edir. O cümlədən ixrac 2,8 dəfə, idxal 1,7 dəfə artmışdır.** Bu nə deməkdir? Əgər əvvəlki illərdə biz daha çox idxal və daha az ixrac edirdiksə, indi idxal azalıb, ixrac çoxalıbdır. Bu,

ümumiyyətlə, ticarət dövriyyəsində ən əsas göstəricilərdən biridir. **Daxili istehsalın inkişafı nəticəsində idxalın strukturunda ərzaq məhsullarının payı azalır, investisiya yönümlü malların, maşın və avadanlığın payı isə artır.** Təsəvvür edin, bizim xaricdən ərzaq almağa ehtiyacımız get-gedə azalır. Eyni zamanda idxalın içərisində maşın və avadanlığın həcmi artır. Deməli, bu da onu göstərir ki, bizdə istehsal yaranacaqdır, ölkəmizdə insanlar üçün iş yerləri açılacaqdır.

Nəhayət, iqtisadiyyatın son göstəriciləri dövlətin büdcəsidir. **1993-1994-cü illərdə dövlət büdcəsinin kəsiri 7-10 faizə çatmışdı. Hazırda göstərici 1-1,2 faizdir. Bu da təbii bir haldır. 1994-2000-ci illərdə dövlət büdcəsinin gəlirləri 13 dəfə artmışdır. Dövlət büdcəsinin ümumi məbləği 277 milyard manatdan 3,6 trilyon manata çatmışdır. Biz büdcəni təsdiq etmişik.** Başqa qanunlar da təsdiq olunur. Gələn il üçün nəzərdə tutulubdur ki, büdcənin həcmi, gəlirləri daha da artsın. Beləliklə, **indi bizim büdcə 900 milyon ABŞ dolları təşkil edir.**

Bunlar bizim iqtisadi göstəricilərimizdir və göz qabağındadır. Mən bu gün bunları sizə deyirəm ki, özünüz də yaxşı biləsiniz və hamı inansın ki, doğrudan da Azərbaycanda iqtisadiyyat inkişaf edir. Eyni zamanda, mən həmin o bədxahlara, mitinqlərə çıxıb "çörək", nə bilim filan, filan deyənlərin hamısına cavab verirəm. Ümumi sözlərlə hər şeyi demək olar. Amma bunlar konkret rəqəmlər, konkret göstəricilərdir. **Bunları göstərməklə mən heç də demək istəmirəm və demək istəməmişəm ki, biz əhalimizin bütün təbəqələrinin rifah halını yaxşılaşdırmışıq.** Yox. Çünki, əvvələ, bir sistemdən digər sistemə keçmək, bir də ki, 1990-1993-cü illərdəki, ondan sonra da 1994-cü ildəki bir az geriləmə, əvvəlki illərdəki dağıntı, təbiidir ki, bizi çox ağır vəziyyətə saldı. Biz 1975-ci ildə kondisionerlər zavodunu tikmişdik. Orada 8 min adam işləyirdi. İldə 400 min kondisioner istehsal olunurdu. O vaxt SSRİ-nin heç bir yerində belə bir zavod yox idi. SSRİ-nin bütün yerlərinə, xüsusən Orta Asiyaya, iqlimi isti olan başqa yerlərə biz kondisionerlər satırdıq. Bundan böyük gəlir götürürdük. Təbiidir ki, bunların hamısı dövlətin, SSRİ-nin ümumi büdcəsinə



gedirdi. Amma, 8 min adam işləyirdi. Lakin indi bu zavod ildə cəmi 2,5-3 min kondisioner istehsal edir. Təbiidir ki, indi burada ya min, ya da min beş yüz adam işləyir.

Mən bunu niyə deyirəm? Azərbaycanda mənim yaratdığım fabriklər, zavodlar, körpülər, metro, nə bilim, yaşayış evləri və sair çoxdur. **Amma SSRİ-də ilk dəfə kondisionerlər zavodunun Azərbaycanda tikilməsi üçün mən iki il mübarizə apardım. Onu Azərbaycana vermirdilər. Bu zavodu Ukraynaya, Zaporojye vilayətinə vermişdilər. Mən onu oradan çıxartdım, - yəni özüm əlimlə çıxartmadım, - mərkəzin, Siyasi Büronun qərarı ilə Azərbaycana gətirdim. Ancaq həmin zavodu mənə verəndə də şərt qoydular: Bu obyekti nə qədər müddətə tikəcəksən? Soruşdum, orada neçə müddətə tikəcəklər? Mənə dedilər ki, dörd ilə. Mən dedim ki, iki ilə tikəcəyik. İki ilə də tikdik. O vaxt SSRİ büdcəsindən 120 milyon dollar ayrıldı, Yaponiyadan avadanlıq alındı. Bizim o zavodda işləyəcək 400-500 nəfəri Yaponiyaya göndərdik. Orada bu işləri öyrənib gəldilər. O vaxt Moskvadan Azərbaycana gələn böyük-böyük adamlar birinci növbədə deyirdilər ki, kondisionerlər zavoduna gedək. Çünki o qədər nümunəvi zavod idi, o qədər müasir texnikaya malik olan bir müəssisə idi ki, hamı ona heyran qalırdı.** Amma indi... Başqa ölkələr, xüsusən Yaponiya kondisionerlərin bir çox yeni nəslini buraxır, ucuz qiymətə satır. Ona görə də bizim bu zavodumuz istənilən səviyyədə işləyə bilmir.

İkincisi, o vaxt biz o kondisionerləri istehsal etmək üçün materialların əksəriyyətini SSRİ-nin müxtəlif zavodlarından alırdıq, burada yığırdıq. Amma bir qismini də Yaponiyadan alırdıq. Hər il SSRİ büdcəsindən 10 milyon dollar ayrılırdı ki, biz həmin o şeyləri alaq. İndi ondan da məhrumuq. **İndi bəziləri deyirlər ki, zavod işləmir, fabrik işləmir, nə bilim filan işləmir. Niyə işləmir? Bu adam nə zavodda işləyib, nə fabrikdə işləyib, nə onun qoxusunu görüb, nə də o istehsalın nədən ibarət olduğunu bilir. Amma belə danışır. Əgər Bakıdakı bütün zavod və fabriklərin çoxu şəxsən mənim təşəbbüsümlə yaranıbdırsa, onların hər biri mənim üçün əzizdir.**

**Çünki mən onlara nə qədər zəhmət çəkmişəm. Onların işləməsi, yaxud da ki, az güclə işləməsi məni incidir. Amma mən bunu edə bilmirəmsə, sən necə edəcəksən? Deyir: məni seçin, 15 gündə hər şeyi edəcəyəm. Bilirsiniz, bu, sirkdə göstərilən möcüzəyə bənzəyir: illüziyaçı bu cibindən yumurta çıxardır, o birisindən başqa şey çıxarır.... Çoxları da məəttəl qalır ki, bu yumurtaları, başqa şeyləri nə cür çıxardır. İndi bunlara da demək olar ki, bunlar sirk artistləridir, yaxud illüziyaçıdırlar, nə bilim nədirlər....**

Yaxud prezident seçkilərində namizədlər neçə dəfə demişdilər: siz məni seçin, biz bir aya hər yerə işıq verəcəyik, bir aya hər yerə qaz verəcəyik. Bu qədər ağılsız, məsuliyyətsiz sözlər demək olarmı? Xalqı bu qədər aldatmaq olarmı? Azərbaycanda elektrik stansiyalarının əksəriyyəti burada işlədiyim zaman mənim təşəbbüsümlə tikilmişdi. Mingəçevir su elektrik stansiyası 1955-ci ildə tikilmişdi. Amma ondan sonra Kürün üzərində "Kür" su-elektrik stansiyası tikdik. Onun gücü Mingəçevir stansiyasının gücündən çoxdur. Yenikənd su elektrik stansiyasını tikməyə başladım. Çatdıra bilmədim. Getdim, neçə ildən sonra qayıtdım. Gəlib gördüm ki, eləcə də qalıbdır. Pulumuz yox idi, Avropa Bankından kredit aldıq, onu da tikib başa çatdırdıq. İndi elektrik enerjisi verir. O illərdə biz Mingəçevirdə 9 blokdan ibarət elektrik stansiyası tikdik.

Bunların hər birini Moskvadan zorla alırdıq. Nə üçün? Çünki o vaxt, mən sizə açıq deyim, iqtisadi siyasət belə idi: istəyirdilər bütün bölgələri, xüsusən bizim kimi respublikaları, Orta Asiya respublikalarını Rusiyanın bir çox yerləri ilə bağlasınlar ki, əgər bu əlaqə qırılsa, onda burada işlər pozulsun. Hər dəfə elektrik stansiyası tikilməsi haqqında məsələ qoyarkən mənə deyirdilər ki, sənə nəyə lazımdır. Bizdə - SSRİ-də vahid elektrik enerjisi sistemi var. Ora da var, bura da var, atom elektrik stansiyası var... bütün SSRİ-ni əhatə edən şəbəkə var. Azərbaycana nə qədər elektrik enerjisi istəyirsinizsə, sizə verək. **Mən deyirdim ki, yox, istəyirəm bizim özümüzünkü olsun. Niyə özümüzünkü olsun? İndi məni düzgün başa düşün. Mən istəyirdim ki, müəyyən sahələrdə biz asılı olmayaq. Bu gün mən iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan**



**elekrtrik enerjisi sahəsində asılı deyildir. Özü həmin elektrik stansiyalarında elektrik enerjisi istehsal edir.**

"Siz məni seçin, mən bir aydan sonra sizə qaz verəcəyəm". Bunu deyən heç bilirmi ki, qaz haradan hasil olunur? Bilmir axı. Axı, bunu mən bilirəm. Təbiidir, təkcə mən yox, neftçilər, neft- qaz sənayesi işçiləri bunu bilirlər. Amma 1970-ci ildə biz Azərbaycanda həm qaz hasilatını artırmışdıq, həm də SSRİ-dən, təxminən 3 milyard kubmetr qaz alırdıq. Azərbaycanın bütün ucqar kəndlərinə qədər hamısını qazlaşdırmışdıq. Belədir, yoxsa yox? Belədir. Ancaq məsələ təkcə qazın miqdarında deyildi. Biz burada 16 milyard kubmetr qaz alırdıq, 3 milyard kubmetr də SSRİ-dən, cəmi olurdu 19 milyard kubmetr. Amma bir bununla iş bitmirdi. Hər bir yerə gərək qaz şəbəkəsi çəkiləydi. Bu da çox çətin məsələ idi. Bunun özü böyük xərc tələb edirdi və bu da yenə Moskvanın əlində idi. Bəli, mən iradəmlə, təkidimlə, tələbimlə bütün bu qaz şəbəkələrini çəkdirdim və ən ucqar kəndlərə qaz verildi.

Xatirimdədir, 1990-cı ilin yayında mən Bakıya gəldim, sonra burada yaşamaq mümkün olmadı, getdim Naxçıvana. Orada Şahbuz rayonu var, dağ rayonudur. Onun ən ucqar dağ kəndi var, adına Keçili deyirlər. Çox uzaqda, dağın üstündə olan yerdir. Kəndlilər, yaşlı adamlar, çoxları yığışdılar. Əlbəttə ki, başladılar mənə minnətdarlıq etməyə, məni qucaqladılar. Orada biri dedi ki, bilirsiniz, səhər ki dururam, kibriti yandırıram, qazı alışdırıram, bu, dünyada mənim üçün hər şeydən artıqdır. Çünki indiyə qədər biz təzək yandırmışıq. Bilirsiz də, təzək nədir? Kərmə yandırmışıq. Heç odunumuz da o qədər olmayıbdır. İndi görün, qaz xətləri haralara çəkilmişdi. Bütün Naxçıvan Muxtar Respublikası qazlaşdırılmışdı. Bütün başqa yerlər qazla təchiz olunmuşdu.

Amma indi Azərbaycan cəmi 6 milyard kubmetr, hələ ondan da az qaz çıxardır. Bu, təbiidir ki, Bakını, başqa yerləri təmin edir. O vaxtkı şəbəkələr müəyyən qədər sıradan çıxıbdır. İndi burada İlham Əliyev dedi ki, Rusiyadan 4 milyard kubmetr qaz alınır, burada müəyyən iş görürük. Biz əvvəllər yandırılan mazutun hesabına həm böyük vəsait əldə edirik, həm də ki, **artıq 20-dən çox rayona, şəhərə qaz ver-**

**mişik. Amma bunun üçün biz bir neçə ildir işləyirik. Bunu bir ayda etmək olardımı? Olmazdı.**

**Bunları sizə deyərək, birincisi, mən istəyirəm ki, bizim partiyamız, bütün cəmiyyət real vəziyyəti yaxşı bilsin. Biz çox iş görmüşük, yaxşı nailiyyətlər əldə etmişik. Beynəlxalq maliyyə mərkəzləri bizim iqtisadi, maliyyə məsələlərimizə daim nəzarət edir. Hamısı da müsbət qiymət verir.**

Elektrik enerjisindən danışarkən bir şey yadımdan çıxdı. Xətai rayonunda hələ qədimdən , əsrin əvvəllərində tikilmiş bir istilik elektrik stansiyası vardı. Keçmişdə onu Nobellər tikmişdi. O vaxtdan işləyirdi, sonralar isə dağılmışdı. **Biz 100 milyon dollar kredit götürdük, orada iki böyük blok tikdik. İndi o stansiya həm elektrik enerjisi, həm də buxar verir. Buxar neftayırma zavoduna lazımdır, elektrik enerjisi şəhərə lazımdır. Mən dünən Abutalıbovdan soruşurdum. O dedi ki, Əhmədli qəsəbəsində 15 min ailənin həm elektriklə, həm də istiliklə təmin olunması həll edilibdir. Bu, bizim işlərimizdir. Amma daşı-daş üstünə qoymayan, vaxtını ancaq yalanlara, şayiələrə həsr edən, yaxud da ki, gedib orada-burada mitinq keçirərək boş-boş danışan adamlar bu xalqa heç vaxt heç nə verməyəcəklər.**

Mən müəyyən qədər əvvəlki fikrimə qayıdıram ki, biz partiyada siyasi mübarizəni gücləndirməliyik. Bu baxımdan mən sizi müəyyən qədər silahlandırdım. Siz artıq həqiqəti bilirsiniz. Rəqəmlər var, bunlar dərc olunacaq, götürəcəksiniz. Amma eyni zamanda təkcə bunlar deyildir. Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır. O statistika məlumatı hər ay, hər altı aydan bir çıxır. Oradan götürün. Bizim partiyanın icra aparatı götürsün, paylasın. Götürün və həmin o yalan danışanlara sübut edin ki, həqiqət bundan ibarətdir.

Əziz dostlar!

Hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının ikinci qurultayı bizim həyatımızda tarixi hadisədir. Mən bu gün səhərdən indiyə qədər qurultayın gedişini təhlil edərək, bir daha o qənaətə gəldim ki, biz qurultayın indi keçirilməsi haqqında olduqca doğru, düzgün və çox



əhəmiyyətli qərar qəbul etmişdik. İkinci qurultayın partiyanın 9-cu ildönümündə keçirilməsi onu göstərir ki, bir tərəfdən, biz ildönümünü sadəcə, bayram etmirik. İldönümünü qurultayımızla bir yerdə keçiririk. Qurultayımızda partiyanın əldə etdiyi nailiyyətləri, Azərbaycan iqtidarının əldə etdiyi nailiyyətləri təhlil edirik və bütün xalqa, millətə, cəmiyyətə nümayiş etdiririk. **Əmin ola bilərsiniz ki, partiyanın sədri kimi mən Yeni Azərbaycan Partiyasının bundan sonra da möhkəmlənməsi, inkişaf etməsi üçün öz üzərimə düşən vəzifələri daim yerinə yetirəcəyəm. Əmin ola bilərsiniz ki, bu səkkiz ildə Azərbaycan Prezidenti kimi həyata keçirdiyim daxili və xarici siyasəti bundan sonra da ardıcıl surətdə davam etdirəcəyəm və ölkəmiz inkişaf edəcəkdir. Dünya miqyasında Azərbaycanın hörməti, nüfuzu artacaqdır.**

Biz hər sahədə nailiyyət əldə etmişik. Ancaq bir sahədə, ən ağır sahədə biz hələ istədiyimizə nail olmamışıq. O da Ermənistan-Azərbaycan münaqişəsidir, Dağlıq Qarabağ münaqişəsidir, bunun nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması və bir milyondan artıq köçkünlərin ağır vəziyyətdə, çoxlarının çadırlarda yaşamasıdır. Bu, mənim qəlbimi daim incidir. Burada kimsə dedi, mən nə qədər görüşlər keçirmişəm. əgər mənim köməkçim Dilarə Seyidzadədən soruşsanız, o, tam dəqiq məlumat verə bilər. Səkkiz ildir mən bu məsələni həll etməyə çalışıram.

Bir müddət müharibə apardıq.

Mən 1993-cü ilin noyabr ayında xalqa müraciət etdim. Xalq ayağa qalxdı. Ondan sonra biz erməniləri sıxışdırdıq, bir çox yerləri aldıq. Ancaq o vaxt artıq biz irəliyə gedəndə Moskvadan mənə zəng edirdilər ki, atəşi dayandırın. Ondan qabaq biz demişdik ki, atəşi dayandıraq, ermənilər dayandırmadılar. Mən 1993-cü ilin dekabrında Parisdə idim, rəsmi səfərə getmişdim, Rusiyanın səfiri orada məni axtardı. O da keçmişdən mənim tanıdığım adam idi. Xahiş etdi ki, görüşək. Baxmayaraq ki, imkanım yox idi, gecə saat 11-də mənim yanıma gəldi. Gördüm ki, ona əmr veriblər. Oxudu: Heydər Əliyevdən çox xahiş edin ki, atəş dayandırılsın.

Dedim ki, mən bunu edə bilməyəcəyəm. Çünki biz irəliyə gedirdik. Ancaq o vaxt da yenə satqınlıq oldu. Biz Kəlbəcər rayonunun yarısını artıq almışdıq. Füzuli rayonunda nə qədər irəli getmişdik, Ağdam rayonunda nə qədər irəliləmişdik. O vaxt da satqınlıq etdilər. Harada, kim, nə cür etdi- mən bilirəm. Gördüm ki, bizim o irəliləməyimiz daha mümkün deyil, 1994-cü ilin mayında atəşkəsə razı olduq.

İndi o vaxtdan 7 il keçir. Mən gecə-gündüz bu barədə düşünürəm. Təkcə düşünmürəm, müxtəlif tədbirlər həyata keçirirəm. Müxtəlif görüşlər keçirirəm. Aparıcı böyük dövlətlər ki, var, onların başçıları ilə mən dəfələrlə görüşmüşəm. 1992-ci ildə yaranmış ATƏT-in Minsk qrupu ilə sıx əməkdaşlıq edirəm. Ən nəhayət, həmin o Minsk qrupunun həmsədrlərinin – ABŞ, Fransa və Rusiyanın xahişi ilə mən Ermənistan prezidenti ilə bilavasitə görüşürəm. Ancaq məsələ həll olunmur. Bununla belə, məsələnin sülh yolu ilə həll olunmasına hələ ümidlər çoxdur. Bu ayın axırında biz Moskvaya gedəcəyik, orada da yəqin görüşlər olacaqdır, danışıqlar aparacağıq. Ümidlər daha çoxdur.

Doğrudur, bizim bu çətin vəziyyətimiz hər kəsi ağrıdır. Amma Ermənistan bundan daha da çox zərər çəkir. Yəqin ki, onu da bilirsiniz. Biz belə şəraitdə bu cür nailiyyətlər əldə etmişik. İndi təsəvvür edin, bu olmasaydı, bütün torpaqlarımız əlimizdə olsaydı, nə qədər böyük işlər görə bilərdik. Mən bunu ona görə bildirirəm ki, bu, mənim qarşımda duran əsas, bir nömrəli vəzifədir.

**Bunu həyata keçirmək üçün mən çalışmışam, bundan sonra da çalışacağam. Nəyin bahasına olursa-olsun, bizim torpaqlarımız işğaldan azad ediləcəkdir, qaçqınlar öz yerlərinə qayıdacaqlar və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü təmin olunacaqdır.**

Əziz nümayəndələr!

Bizim qurultayımız işini sona çatdırır. Bir də bildirirəm ki, qurultay çox yüksək səviyyədə keçdi və bizim partiyamızın gələcəyi üçün çox böyük bir mərhələ oldu.

Qarşımızda duran vəzifələr də çoxdur və hesab edirəm ki, hər bir nümayəndə bu qurultayda bir daha silahlanaraq, - yəni iş təcrübəsi nöqteyi-nəzərindən, başqa bizdə silah ola bilməz, - yerlərdə partiyanın daha da inkişaf etməsinə ciddi fikir verəcəkdir. **Bizim bu qurultayın qərarlarını və nəticələrini, təbiidir ki, yerlərdə müzakirə etmək lazımdır. Hər bir rayonda, hər bir təşkilatda müəyyən bir iş planı qurmaq, işi irəli aparmaq lazımdır. Bu, bizim borcumuzdur. Yəni müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də yaşaması bizim üzərimizdə, mənim üzərimdə olan əsas vəzifədir. Sizi əmin edirəm ki, Azərbaycanın Prezidenti kimi, Yeni Azərbaycan Partiyasının sədri kimi mən bu vəzifəmi şərəflə yerinə yetirəcəyəm.**

**Yaşasın Yeni Azərbaycan Partiyası!**

**Yaşasın və əsrlər boyu, əbədi olaraq yaşasın müstəqil, əyilməz, yenilməz Azərbaycan dövləti!**

**Sağ olun!**

(Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı).

## YENİ AZƏRBAYCAN PARTİYASININ II QURULTAYININ AÇILIŞINDA YAP SƏDRİNİN MÜAVİNİ, AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN SƏDRİ MURTUZ ƏLƏSGƏROVUN NİTQİ

Azərbaycan Respublikasının Prezidenti,
Yeni Azərbaycan Partiyasının Sədri,
Zati-aliləri möhtərəm cənab
Heydər Əliyev!

Hörmətli qurultay nümayəndələri!
Hörmətli qonaqlar,
Xanımlar və cənablar!

Yeni əsrdə, yeni minillikdə Yeni Azərbaycan Partiyasının yaranmasının 9-cü ildönümünün tamam olduğu bir gündə biz partiyamızın II Qurultayına toplaşmışıq. Ölkəmizin bütün bölgələrindən gəlmiş qurultay iştirakçılarını və onların şəxsində sayı 230 mini ötən Yeni Azərbaycan Partiyasının hər bir üzvünü bu böyük bayram, mühüm əhəmiyyətli siyasi hadisə münasibəti ilə təbrik edir, bütün xalqımızın və ölkəmizin həyatında yeni mərhələnin əsasını qoyacaq bu əzəmətli forumun işinə uğurlar diləyirəm.

Yarandığı vaxtdan partiyamız siyasi mübarizələrlə dolu şərəfli bir yol keçmişdir. Iqtidar partiyası kimi, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin həyata keçirdiyi siyasətin avanqard qüvvəsi kimi xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə özünün layiqli töhfəsini vermiş, möhtərəm prezidentimizin, müdrik sədrimizin ən yaxın köməkçisi olmuşdur.

Bir ay öncə biz dövlət müstəqilliyimizin on illiyini və bu yaxınlarda dünya azərbaycanlılarının I Qurultayını böyük ruh yüksəkliyi ilə keçirdik. Keçdiyimiz yol bir daha göstərir ki, xalqımızın seçimi doğru seçimdir. Bu yol möhtərəm Prezidentimiz, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur.



Yeni Azərbaycan Partiyasının hər bir üzvü Heydər Əliyev siyasi məktəbinin yetirməsi, Heydər Əliyev yolunun davamçısı və onun ideyalarının daşıyıcısıdır. Bu yol Azərbaycanı müstəqil dövlətçiliyə gətirib çıxarmış, onun istiqlalının əbədiliyini və dönməzliyini təmin etmişdir. Bu müqəddəs yol Azərbaycanı xoşbəxt və işıqlı gələcəyə, firavanlığa aparan yoldur. Heydər Əliyevin rəhbərliyi altında yaranan partiyanın tutduğu yolun düzgünlüyünü həyat özü təsdiq etmiş, partiyamızın nüfuzu getdikcə artmış, Azərbaycanın ictimai-siyasi həyatında tutduğu mövqe daha da möhkəmlənmişdir. Bu gün inamla deyə bilərik ki, I Qurultayda yeni redaksiyada qəbul etdiyimiz Proqramımızın müddəalarının reallaşması istiqamətində möhtərəm Prezidentimiz və müdrik Sədrimiz cənab Heydər Əliyevin rəhbərliyi altında çox böyük işlər görülmüş, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndirilmiş, ölkəmizdə iqtisadi inkişaf davam etdirilmişdir.

Hörmətli Qurultay nümayəndələri!

I Qurultaydan ötən müddət ərzində partiyamızın üzvlərindən dünyasını dəyişənlər olmuşdur. Onların əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməyinizi xahiş edirəm.

Allah rəhmət eləsin!

Hörmətli qurultay nümayəndələrinin diqqətinə çatdırmaq istərdim ki, partiyanın II qurultayının çağırılmasına dair Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 30 avqust 2001-ci il tarixli qərarına əsasən 81 rayon (şəhər) təşkilatında hesabat-seçki konfransları keçirilmiş və qurultaya 1.952 nümayəndə seçilmişdir. Seçilmiş nümayəndələrdən 1.923 nəfəri qurultayın işində iştirak edir. 29 nəfər nümayəndə üzürlü səbəbdən iştirak etmir.Beləliklə, Yeni Azərbaycan Partiyasının II qurultayı öz işinə başlamağa səlahiyyətlidir.. Yeni Azərbaycan Partiyasının II Qurultayı açıq elan olunur.

## YENİ AZƏRBAYCAN PARTİYASI İDARƏ HEYƏTİNİN HESABATI HAQQINDA

### YAP İCRA KATİBİ ƏLİ ƏHMƏDOVUN MƏRUZƏSİ

Azərbaycan Respublikasının Prezidenti,
Yeni Azərbaycan Partiyasının Sədri,
Zati-Aliləri cənab Heydər Əliyev!

Hörmətli Qurultay nümayəndələri!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

İcazə verin, Yeni Azərbaycan Partiyasının yeni əsrdə, yeni minillikdə keçirilən II qurultayının nümayəndələrini, hörmətli qonaqlarımızı səmimi qəlbdən salamlayım, Qurultayın işinə uğurlar arzulayım.

Əlamətdar haldır ki, Azərbaycanı XXI yüzilliyin və üçüncü minilliyin magistral inkişaf yoluna gətirib çıxarmış Heydər Əliyevin yaratdığı və lideri olduğu partiyanın II Qurultayı xalqımız və partiyamız üçün bayram təntənələri günlərinə təsadüf edir. Düz doqquz il bundan əvvəl, 1992-ci il noyabrın 21-də Naxçıvanda xalqımızın və ölkəmizin həyatını kökündən dəyişdirən Yeni Azərbaycan Partiyası təsis olunmuşdur. Qurultayın məhz bu gündə keçirilməsi ona xüsusi məna verir. Qurultay iştirakçılarında bayram ovqatı yaradır. Həmin tarixi anın hər birimiz üçün nə qədər əziz olduğunu vurğulayır, Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan Partiyasını yaradanların xidmətlərinin uca tutulduğunu nümayiş etdirir. İcazə verin, başda Sədrimiz olmaqla qurultayın bütün iştirakçılarını, bütün partiya üzvlərini Yeni Azərbaycan Partiyasının 9-cu ildönümü münasibətilə təbrik edim, Sizin hər birinizə siyasi fəaliyyətinizdə uğurlar arzulayım.

Partiyamızın ali forumunun Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 10-cu ildönümü, Milli dirçəliş bayramı və



Dünya Azərbaycanlılarının cənab Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakıda keçirilən I Qurultayı günlərinə təsadüf etməsi də hamımıza yüksək əhval-ruhiyyə bəxş etmişdir.

Belə bir tarixi məqamda bu möhtəşəm sarayda keçirilən qurultay partiyanın və ölkənin ictimai-siyasi həyatında taleyüklü və tarixi əhəmiyyət daşıyır.

Başa vurduğumuz yüzillik bəşəriyyətin tarixində sürətli elmi-texniki tərəqqi ilə, imperiyaların süqutu və yeni müstəqil suveren dövlətlərin yaranması, sülh, sabitlik, əmin-amanlıq naminə dünyanın inkişaf etmiş dövlətlərinin kollektiv səylər göstərməsi ilə əlamətdar olmuşdur. Dünya ictimaiyyəti XXI əsrə demokratiyanı yeganə məqbul idarəçilik üsulu, insan hüquq və azadlıqlarını isə bütün hüquqi aktların, dövlətdaxili və dövlətlərarası münasibətlərin əsas istinad mənbəyi kimi qəbul edərək qədəm qoymuşdur. Dövlət müstəqilliyinin onuncu ildönümünü qeyd edən Azərbaycan Respublikası da bu qlobal miqyaslı dəyişikliklər prosesində yaxından iştirak etməkdədir. Ölkəmizdə sürətlə həyata keçirilən demokratik dövlət quruculuğu yönündəki islahatlar, sivil, dünyəvi dövlət yaratmaq istiqamətində atılan addımlar da ilk növbədə yuxarıda sadalanan qlobal miqyaslı dəyişikliklər prosesinin tərkib hissəsi kimi başa düşülməlidir. Möhtərəm Prezidentimiz, Partiyamızın Sədri, Zati-Aliləri Heydər Əliyev yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına etdiyi müraciətdə demişdir: «XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur». Xalqımız ötən on il ərzində çətin, mürəkkəb və şərəfli bir yol keçərək öz dövlət müstəqilliyini təmin etmişdir. Dünyada gedən proseslərlə paralel olaraq ölkəmizdə həyata keçirilən və günü-gündən dərinləşən islahatlar hərəkatının aparıcısı və əsas hərəkətverici qüvvəsi isə, heç şübhəsiz, möhtərəm Prezidentimiz, Sədrimiz və ümummilli liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi, bu gün II Qurultayına toplaşdığımız Yeni Azərbaycan Partiyasıdır.

Xalqımızın və dövlətimizin taleyinin həll olunduğu bir zamanda meydana çıxan Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətinin inkişafı üçün son dərəcə əhəmiyyətli və yeni tarixi mərhələnin əsasını qoydu. Güclü sosial bazası, praqmatik və gerçəkliyə əsaslanan bitkin Proqramı, ölkədə və beynəlxalq aləmdə böyük nüfuz qazanmış Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə qədəm qoyması Azərbaycanın XX əsr tarixinin son dərəcə mühüm hadisəsinə çevrildi.

Ötən illər dəfələrlə sübuta yetirmişdir ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən doğmuşdur. Yola saldığımız əsrin 80-ci illərinin sonlarında Azərbaycanda baş verən hadisələr – bir tərəfdən Ermənistanın Azərbaycana qarşı təcavüzü, digər tərəfdən respublika rəhbərliyində bir-birini əvəz edən səriştəsiz və populist dairələrin üzdəniraq fəaliyyəti nəticəsində ölkəmizdə böhran universal xarakter almışdı. Belə bir vaxtda, 1992-ci il oktyabr ayının 24-də möhtərəm liderimiz Heydər Əliyevin məşhur 91-lər kimi tanınan ziyalıların ona ünvanlanan tarixi müraciətinə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaranmasına və ona rəhbərlik etməyə razılıq verməsi xalqımızda yaranmış ümidsizlik sindromunu dağıtdı və gələcəyə inam hissini yenidən gücləndirdi.

Partiyamızın təsis edilməsindən sonra onun keçdiyi yola ötən qurultayımızda geniş və hərtərəfli şəkildə qiymət verilmişdir. Möhtərəm Sədrimiz Partiyanın I Qurultayında həmin tarixi hadisələri xatırlayaraq demişdir: «...Yeni Azərbaycan Partiyasının yaranması, bu münasibətlə keçirilmiş ilk konfrans ... Azərbaycan xalqının və müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaqdır».

"Bizim partiya sağlam düşüncə, sağlam fikir – xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədi ilə yarandı. Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır".

Hörmətli Qurultay nümayəndələri!

Hər bir millət və xalq üçün ən mühüm, ən vacib sərvət onun istiqlalı və müstəqil dövlətinin olmasıdır. Ölkəmizin dövlət müstəqilliyinin on illiyinə həsr olunmuş təntənəli bayram toplantısında cənab Heydər Əliyev xalqımızın milli müstəqillik qazanmasının tarixi əhəmiyyətini qeyd edərək bildirmişdir: «İnsan cürbəcür şəraitdə yaşaya bilər. Amma insan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz müstəqillikdir, azadlıqdır. Biz çox əsrlər boyu bu azadlığın, bu müstəqilliyin arzusunda olmuşuq. Ötən on ildə bu müstəqilliyimizi möhkəmləndirmişik, inkişaf etdirmişik, dönməz etmişik və gələcək nəsillərə bu müstəqilliyi töhfə edirik və inanırıq ki, xalqımız bu müstəqilliyi heç vaxt bir daha əlindən verməyəcək». Təsadüfü deyil ki, Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi səhnəsinə qədəm qoyarkən onun ən başlıca şüarı «Yeni, müstəqil Azərbaycan uğrunda!» şüarı olmuşdur. Məmnunluq hissi ilə qeyd edə bilərik ki, partiyamızın Sədri, möhtərəm Prezidentimiz Heydər Əliyevin dünyada və ölkə daxilində gedən proseslərin dərin, konseptual dərkinə əsaslanan, ümummilli ideyaya praqmatik, realist forma və metodlarla çatmağın ən məqbul variantlarına söykənən rasional zəmin üzərində qurulmuş ardıcıl və məqsədyönlü siyasəti nəticəsində artıq bu şüarda səslənən müddəalar faktiki olaraq həyata keçirilmişdir. Bazar iqtisadiyyatına aparan köklü iqtisadi islahatlar, hüquqi dövlətin yaranmasına xidmət edən hüquqi islahatlar, demokratik cəmiyyətə rəvac verən siyasi islahatlar aparılmış, güclü, qüdrətli ordu yaradılmışdır. Bir sözlə, yeni, müstəqil Azərbaycan dövləti qurulmuş, onun istiqlalının dönməzliyi təmin edilmişdir. Əminik ki, qədirbilən xalqımız müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu olan ümummilli liderimiz Heydər Əliyevin bu xidmətlərini heç vaxt unutmayacaqdır. Unutmayacaqdır ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Əsrlər, minilliklər boyu yaşayacaq möhtəşəm abidədir. Xalqımız bu abidəni yaradanı,- Heydər Əliyevi özünün tarixində və taleyində əbədi yaşadacaqdır.

Bu gün xalqımızın və partiyamızın qarşısında yeni vəzifələr dayanır. Bu vəzifələrin ən başlıcası Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, onu bölgənin və dünyanın ən güclü, qüdrətli və zəngin dövlətləri sırasına çıxarmaqdır. Yeni əsrdə bizim ən başlıca amalımız güclü, qüdrətli, zəngin Azərbaycan uğrunda mübarizə olmalıdır. Əminəm ki, millətimizin qarşısında duran bu tarixi vəzifə də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçiriləcəkdir.

Yeni Azərbaycan Partiyasının üzvləri müstəqil Azərbaycanın, Yeni Azərbaycanın qurulmasında, inkişafında daim partiyamızın sədrinin ən yaxın silahdaşları olmuşdur. Hesabat dövrü ərzində fəaliyyətimizin əsas qayəsini Partiyanın I Qurultayında cənab Heydər Əliyevin dərin məzmunlu, proqram xarakterli nitqində irəli sürülmüş müddəaların, partiyanın proqram prinsiplərinin, qurultayın qəbul etdiyi qərarların yerinə yetirilməsi təşkil etmişdir. Siyasi Şura, İdarə Heyəti və İcra katibliyi ötən müddət ərzində I Qurultayın müəyyən etdiyi qərarları həyata keçirmək üçün təşkilati və ideoloji–siyasi istiqamətlərdə fəaliyyətini genişləndirmiş, partiyanın yaranmasından sonra partiya quruculuğunda əldə olunmuş müsbət təcrübədən, yaradılmış bazadan səmərəli şəkildə istifadə edərək daha ciddi və nəzərəçarpan nailiyyətlər qazanmağa çalışmışdır.

Partiyanın I Qurultayından keçən müddət ərzində onun fəaliyyətinin başlıca nəticələri, fikrimizcə, aşağıdakılardan ibarət olmuşdur.

Birincisi, partiyanın sosial bazasının daha da möhkəmləndirilməsi, onun sıralarında Heydər Əliyevin ideyaları ilə silahlanmış insanların sayının ardıcıl olaraq artmasının təmin edilməsi;

İkincisi, ideya-təbliğat işinin gücləndirilməsi, partiyanın məramının və məqsədlərinin insanlar arasında daha geniş yayılmasına nail olunması;

Üçüncüsü, Yeni Azərbaycan Partiyası kimi kütləvi, çoxsaylı partiyanın səmərəli və çoxtəsirli fəaliyyətinin vacib şərti kimi partiya mütəşəkkilliyinin artırılması yönümündə səylərin gücləndirilməsi;

Dördüncüsü, partiya işinin forma və metodlarının daim təkmilləşdirilməsi, ideya-təbliğat və təşviqat işinin yeni, müasir formalarının axtarılıb tapılması və tətbiq edilməsi;

Beşincisi, partiyanın iş əmsalının və nüfuzetmə imkanlarının, həyat qabiliyyətinin mühüm təminatı kimi onun maddi bazasının möhkəmləndirilməsi;

İcazənizlə, partiyanın bu istiqamətlərdə fəaliyyətinin əsas göstəriciləri ilə qurultay iştirakçılarını qısa şəkildə tanış edərdim.

Hər şeydən əvvəl, hesabat dövründə Yeni Azərbaycan Partiyasının say tərkibinin artımı yönündə müsbət irəliləyişlər əldə edilmişdir. Belə ki, əgər biz I Qurultaya 160 min partiya üzvü ilə gəlmişdiksə, hazırda partiya üzvlərinin sayı 230 mindir.

Partiyanın ilk təşkilatlarının sayı 4300-dən artaraq 5400-ə çatmışdır. Hazırda Yeni Azərbaycan Partiyasının ilk təşkilatları ölkəmizin bütün ərazisində, demək olar ki, hər bir şəhər, kənd və qəsəbəsində fəaliyyət göstərir.

Hesabat dövründə partiyaya gənclərin axınının xüsusilə geniş vüsət alması diqqəti cəlb edir. Bu gün qurultaya məlumat verə bilərəm ki, partiya üzvlərinin 37 faizi, yəni 85 mini 18-35 yaşlılardır. Sevindirici haldır ki, gənclər partiyada ən çoxsaylı demoqrafik qrupdur.

Müşahidə və təhlillər göstərir ki, gənclərin partiya sıralarına axını bir neçə səbəblə əlaqədardır. Birincisi, partiyanın I Qurultayında möhtərəm sədrimizin gənclərlə işi gücləndirmək, gənclərə geniş meydan vermək sahəsində tapşırığı partiyanın gəncləşməsində əsas rol oynamışdır.

İkincisi, Azərbaycanda idman və gənclər hərəkatının inkişafında misilsiz xidmətləri olan hörmətli İlham Əliyevin qurultayda partiya sədrinin müavini seçilməsi gənc oğlan və qızların sözün əsl mənasında partiyaya axınına təkan vermişdir.

Üçüncüsü, partiyada gənclərin öz enerjilərindən və bacarıqlarından istifadə etməsi üçün hər cür şəraitin yaradılması partiyamızın gəncləşməsinin vacib şərti olmuşdur. Hazırda partiyanın

bütün şəhər və rayon təşkilatlarında əsası 1995-ci ildən qoyulmuş Gənclər Birliyi səmərəli fəaliyyət göstərir, gənclər bütün səviyyələrdə daha geniş miqyasda partiya strukturlarında təmsil olunur.

Hesab edirik ki, partiyamızın sıralarında gənclərinin sayının çoxalması onun gənclik enerjisini artırmaqla yanaşı, Yeni Azərbaycan Partiyasının gələcəyin partiyası olmasına ən etibarlı təminat verir.

Partiyamızın tərkibində qadınlar da kəmiyyət və keyfiyyət baxımından xüsusi yer tutmaqdadırlar. Bu demoqrafiq qrup 87.5 min nəfərlə partiyada təmsil olunur ki, bu da cəmi partiya üzvlərinin 38 faizidir.

Qurultay nümayəndələrinin nəzərinə çatdırmağı lazım bilirəm ki, hesabat dövründə partiyanın təşkilati fəaliyyətinin ən mühüm göstəricilərindən biri partiya üzvlük vəsiqələrinin təqdim edilməsi olmuşdur. Partiya vəsiqələrinin ilk təqdimat mərasimi 2000-ci il mayın 10-da, hörmətli Sədrimizin doğum günündə keçirilmişdir. Nəzərinizə çatdırıram ki, keçən qısa müddət ərzində 165 minə yaxın partiya üzvünə vəsiqə verilmişdir.

Partiya vəsiqələrinin təqdim edilməsi partiya həyatının mühüm hadisəsi kimi həm bütövlükdə təşkilatın tarixinə, həm də hər bir partiya üzvünün həyatına əlamətdar an kimi daxil olmuşdur. İnanıram ki, Heydər Əliyevin imzası olan partiya vəsiqəsi onun sahibinin evində ən əziz, ən müqəddəs relikviya sayılır. Onu da qeyd etməyi vacib sayıram ki, partiya vəsiqələrinin təqdim edilməsi hər bir partiya üzvünün partiya mənsubiyyətini gücləndirmiş, təşkilatın mütəşəkkilliyinin artmasına güclü təkan vermişdir. Habelə partiya vəsiqələrinin təqdim edilməsinin partiya sıralarına yeni-yeni insanların axınına səbəb olduğu da müşahidə edilmişdir. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, on minlərlə sadə azərbaycanlı partiyamızın Sədri möhtərəm Heydər Əliyevin imzası olan vəsiqəni öz üzərində gəzdirməkdən şərəf duyur və özünü xoşbəxt sanır.

Hörmətli Qurultay nümayəndələri!

Yeni Azərbaycan Partiyanın qarşısında duran ən mühüm vəzifələrdən biri Heydər Əliyevin müstəqil, qüdrətli və zəngin



Azərbaycan dövləti qurmaq konsepsiyasının ardıcıl surətdə həyata keçirilməsinin müsbət nəticələrini vətəndaşlar arasında geniş təbliğ etmək, partiyanın sosial bazasının daha da genişləndirilməsinin ideya zəminini yaratmaqdır. Buna görə də Heydər Əliyevin irəli sürdüyü, bəyan etdiyi fikirlərin, ideyaların ictimaiyyət arasında geniş və hərtərəfli şəkildə izah olunması, eyni zamanda partiyanın Proqramında təsbit olunmuş prinsiplərin təbliğ edilməsi hesabat dövründə fəaliyyətimizin əsas qayəsini təşkil etmişdir. Dövlətçiliyin bütün prinsiplərini özündə ehtiva edən Heydər Əliyev yolunu rəhbər tutan Yeni Azərbaycan Partiyası müstəqillik, azərbaycançılıq, dövlətçilik, sosial ədalət, dünyəvilik, milli tərəqqi, soykökə qayıdış, bəşərilik və bu kimi dəyərlərin təbliğinə xüsusi yer vermişdir. Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Heydər Əliyevin dövlətçilik təcrübəsini öyrənmək, ondan bəhrələnmək və gələcək nəsillərə çatdırmaq üçün rayon (şəhər) təşkilatlarının bazasında, eyni zamanda ümumrespublika miqyasında mütəmadi olaraq elmi-praktik konfranslar, dəyirmi masa ətrafında müzakirələr, disputlar keçirilmiş və bir çox yerlərdə fəaliyyət göstərən Heydər Əliyev məktəbləri vasitəsilə ideya-siyasi təbliğat işi gücləndirilmişdir. Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə sübut etmişdir ki, o, ölkəmizin taleyüklü problemlərinin həllində ən düzgün mövqe tutmağa, dövlətçiliyimizi və müstəqilliyimizi qorumağa xidmət göstərməyə qadir olan ən mütəşəkkil siyasi qüvvədir. Yeni Azərbaycan Partiyası ictimai-siyasi fəaliyyətində vətəndaş həmrəyliyinə, konstruktiv əməkdaşlığa həmişə üstünlük vermiş, ümumxalq, ümumdövlət mənafelərinə xidmət edən siyasi partiya və ictimai qurumlarla əlaqələrin genişlənməsinə çalışmışdır. Möhtərəm sədrimizin və Prezidentimizin siyasi xəttini müdafiə edən partiya və ictimai qurumlarla Məşvərət Məclisi və Demokratik Alyans çərçivəsində həyata keçirdiyimiz tədbirlər dediklərimizə əyani nümunədir.

Hesabat dövrü ərzində fəaliyyətimizin əsas istiqamətlərindən biri partiyanın mütəşəkkilliyinin daha da artırılması, partiya işinin keyfiyyətinin və səmərəsinin yüksəldilməsi yönümündə I

Qurultayda partiya Sədrinin verdiyi tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar olmuşdur. Qurultay nümayəndələrinə məruzə edə bilərik ki, iki il ərzində bu tapşırıqların yerinə yetirilməsi sahəsində xeyli iş görülmüş, partiyanın bütün strukturlarının mütəşəkkilliyi və fəallığı artırılmışdır. İndi hər bir şəhər və rayon təşkilatında seçkili orqanlarla yanaşı, daimi əsaslarda fəaliyyət göstərən əməkdaşlar çalışır ki, bu təşkilatın işinin səmərəsini xeyli yüksəltsinlər.

Partiya həyatında təşkilatın səmərəli, çevik fəaliyyət göstərməsi üçün partiyanın müasir standartlara cavab verən iş şəraitinin yaradılması vacib əhəmiyyət kəsb edir. Partiyamızın I Qurultayında möhtərəm Sədrimiz partiyanı daha da gücləndirməyin, inkişaf etdirməyin bu zəruri şərtinə diqqəti artırmağın vacibliyini vurğulamışdı. Hesabat dövründə Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının demək olar ki, hamısının iş şəraiti kökündən yaxşılaşdırılmışdır. Hazırda hər bir şəhər və rayon təşkilatları ideya-təbliğat və təşkilati fəaliyyətini həyata keçirmək, yuxarı partiya orqanları ilə mütəmadi əlaqə saxlamaq, partiya işinin operativliyini təmin etmək imkanlarına malikdir.

Qurultay ili hesab etdiyimiz 2001-ci il partiyamızın həyatı üçün daha bir hadisə ilə əlamətdar olmuşdur.

Möhtərəm sədrimiz Heydər Əliyevin böyük diqqət və qayğısı nəticəsində Yeni Azərbaycan Partiyası İcra Katibliyinin istifadəsinə verilən binada yaradılan gözəl iş şəraiti əməkdaşların məsuliyyətini artırmaqla yanaşı, daha səmərəli fəaliyyət göstərmək üçün imkanlar vermişdir.

Lakin bizim üçün daha vacibi və yaddaqalanı odur ki, yeni qərargahın açılışını Sədrimiz möhtərəm Heydər Əliyev özünün ziyarəti ilə şərəfləndirmiş, xeyir-duasını vermişdir. Orası da simvolikdir ki, partiyanın II Qurultayını çağırmaq haqqında tövsiyəsini cənab Heydər Əliyev partiyanın yeni qərargahında keçirilən İdarə Heyətinin iclasında vermişdir.

Hörmətli Qurultay iştirakçıları !

Hesabat dövründə ölkəmizin ictimai-siyasi həyatında baş verən ən mühüm hadisə, habelə partiyanın fəaliyyətinin ən



mühüm göstəricisi 2000-ci ilin noyabr ayında Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilər olmuşdur. Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan ölkəmizdə keçirilən və xalqımızın taleyində mühüm rol oynayan bir sıra seçkilərdə iştirak etmişdir.

Partiyamız seçkilərdə iştirak etməklə bir tərəfdən siyasi təcrübə toplamış, seçki kampaniyaları gedişində təşkilatlanma, ideya-siyasi və təbliğati işdə yeni metodları tətbiq etmiş, digər tərəfdən isə həmin seçkilərdə əldə etdiyi qələbələr vasitəsilə özünün gücünü, potensialını bütün dünyaya əyani şəkildə nümayiş etdirmişdir. Azərbaycanda seçki yolu ilə, qanuni yolla iqtidara gəlib legitim hakimiyyət yaratmağın ənənəsini Yeni Azərbaycan Partiyası qoymuşdur. Partiyamızın indiyə qədər keçirilən seçkilərdə iştirakı və qazandığı uğurlar hamıya bəllidir. Qısaca da olsa seçkilərdə iştirakımızın tarixinə toxunmaq istərdim.

Bildiyiniz kimi, 1993-cü ilin Prezident seçkilərində möhtərəm Sədrimiz Heydər Əliyevin möhtəşəm qələbəsi 1995-ci il parlament seçkilərində Yeni Azərbaycan Partiyasının zəfəri ilə tamamlanmış və Yeni Azərbaycan Partiyası iqtidarının təməlləri daha da möhkəmlənmişdir. 1998-ci il növbəti Prezident seçkilərində partiyamızın Sədri Heydər Əliyevin təkrarən qələbəsi yerlərdə Yeni Azərbaycan Partiyası üzvlərinə olan inamı daha da artırmış və 1999-cu il yerli özünüidarə orqanlarına – bələdiyyələrə seçkilərdə partiyamızın növbəti qələbəsini təmin etmişdir. Bütün bu seçkilərin dərin təhlili sübut edir ki, Yeni Azərbaycan Partiyasının seçkilərdəki nailiyyətlərinin rəhni Heydər Əliyev şəxsiyyəti, Sədrimizin düşüncə və ideyalarından qaynaqlanan Əliyevçilik ideologiyasıdır.

2000-ci ilin parlament seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsi partiyamızın öncüllüyünü növbəti dəfə təmin etdi və seçilmiş siyasi kursun düzgünlüyünün təsdiqinə çevrildi. Yeni Azərbaycan Partiyası iqtidar partiyası və aparıcı siyasi qüvvə olaraq çoxpartiyalı sistem çərçivəsində azad rəqabət aparmağa hazır olduğunu keçirilən seçkilərdə bir daha sübut etmişdir. Çoxpartiyalı sistem əsasında keçirilən parlament seçkilərində Yeni

Azərbaycan Partiyasının qələbəsini təmin edən əsas və həlledici səbəb partiyamızın Sədrinin dövlətçiliyimizi qorumaq naminə məqsədyönlü fəaliyyəti, ölkə iqtisadiyyatını yüksələn xətt üzrə inkişaf etdirməsi nəticəsində xalqın inam və etimadını qazanması olmuşdur. Parlament seçkiləri kampaniyasında Yeni Azərbaycan Partiyasının qazandığı möhtəşəm qələbə sədrimiz möhtərəm cənab Heydər Əliyevin şəxsi nüfuzunun, ona olan ümumxalq məhəbbəti və sevgisinin parlaq təzahürüdür.

Seçkilərdən danışarkən Yeni Azərbaycan Partiyasının uğurunu möhkəmləndirən mühüm faktorlardan biri kimi proporsional siyahımıza rəhbərlik edən hörmətli İlham Əliyev şəxsiyyəti barəsində də fikirlərimizi bildirmək yerinə düşər. Yeni Azərbaycan Partiyasının I Qurultayında Azərbaycan ictimai fikrində xüsusi çəkisi olan, siyasi məsləkdaşlarımızın böyük hörmətini qazanmış İlham Əliyevin partiya sədrinin müavini seçilməsi təşkilatımızın fəaliyyətinə olduqca müsbət təsir etmişdir. İlham Əliyevin neft strategiyasının həyata keçirilməsi, beynəlxalq sazişlərin imzalanması və digər sahələrdə uğurlu fəaliyyəti onu böyük gələcəyi olan siyasi xadim kimi xalqa tanıtmışdır. Etibar olunan bütün digər sahələr kimi Azərbaycan Milli Olimpiya Komitəsinin sədri vəzifəsində də İlham Əliyev böyük əzm və iradə nümayiş etdirmiş, təşkilatçılıq bacarığı göstərmiş və Azərbaycan idmanı onun bu quruma rəhbərliyi dövründə görünməmiş zirvələr fəth etmişdir. İlham Əliyevin nəcib insani keyfiyyətləri və işgüzarlığı Azərbaycan seçicisinin onun proporsional siyahıya başçılıq etdiyi Yeni Azərbaycan Partiyasından millət vəkili seçilməyə irəli sürülən namizədlərə inamını artırmış və beləliklə Yeni Azərbaycan Partiyasının qələbəsində böyük rol oynamışdır. Parlament seçkilərinə hazırlıq kampaniyası zamanı Yeni Azərbaycan Partiyası sədrinin müavini İlham Əliyevin ölkəmizin müxtəlif bölgələrində bir milyondan artıq seçici ilə keçirdiyi görüşlər parlament seçkilərinin taleyini əslində müəyyən etmişdir. Ölkə əhalisi İlham Əliyevin timsalında Azərbaycanın firavan və zəngin gələcəyinin təminatçısını görmüş, Heydər Əliyev siyasi kursunun etibarlı davamçısı kimi ona



inanmış və səs vermişdir. Yeni Azərbaycan Partiyasının mojaritar qaydada irəli sürdüyü namizədlərin qələbəsində də İlham Əliyevin apardığı seçki kampaniyası müstəsna rol oynamışdır. Nəticədə 2000-ci il parlament seçkilərində Yeni Azərbaycan Partiyası mojaritar qaydada 60, proporsional qaydada 16 nəfərin deputat statusu almasına nail olaraq böyük bir uğura imza atmışdır.

Hörmətli nümayəndələr!

Hesabat dövründə partiyamızın təşkilati və ideoloji-siyasi fəaliyyəti ilə əlaqədar həyata keçirdiyimiz müsbət işlərimizi bəyan etməklə heç də nöqsanları və çatışmazlıqları ört-basdır etmək niyyəti güdmürük. Tənqid və özünütənqid ruhu Heydər Əliyevin iş stilinə daxilən xas olan keyfiyyət kimi bütünlüklə Yeni Azərbaycan Partiyasına da sirayət etmişdir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi rayon təşkilatlarının fəaliyyətində partiya Nizamnaməsinin tələblərindən irəli gələn vəzifələrə laqeyd münasibət, məsələlərə formal yanaşmaq, ilk təşkilatlarda partiya işinin istənilən səviyyədə qurulmaması, partiyaya qəbulda nöqsanlara yol verilməsi, partiya üzvlərinin partiya təşkilatı ilə əlaqələrinin zəif olması və s. bu kimi təşkilati xarakterli nöqsanlar mövcud olmuşdur. Qurultay ərəfəsində rayon (şəhər) təşkilatlarında keçirilən hesabat-seçki konfranslarında qeyd etdiyimiz bu çatışmazlıqlar geniş və hərtərəfli müzakirə edilmiş və bu kimi nöqsanların aradan qaldırılması bir vəzifə olaraq partiya təşkilatlarının qarşısında qoyulmuşdur.

Hesabat dövründə partiyamızın Siyasi Şurasının və İdarə Heyətinin müəyyənləşdirdiyi vəzifələri kifayət qədər ardıcıl şəkildə həyata keçirə bilməyən rayon təşkilatlarının rəhbərliyi yeniləşdirilmiş, daha çevik fəaliyyət mexanizmi işlənib hazırlanmış, gənclərin partiya işinə cəlb olunması istiqamətində addımlar atılmışdır.

Hesabat dövründə siyasi təbliğat işinin təşkili və həyata keçirilməsində müəyyən nöqsanlara yol verildiyini də inkar etmək olmaz. Azərbaycanda qəti şəkildə qərarlaşmış demokratik abhava, siyasi plüralizm və siyasi rəqabət şəraiti partiyanın qar-

şısında çox sərt tələblər qoyur. Etiraf etməliyik ki, iqtidar partiyası olaraq möhtərəm Sədrimizin, Prezidentimizin həyata keçirdiyi daxili və xarici siyasətin əsas cəhətlərini əhalinin geniş təbəqələrinə çatdırmaq, bu istiqamətdə çoxşaxəli fəaliyyət göstərmək, iqtidara qarşı hər cür böhtandan, yalandan, şayiədən istifadə edən və özlərini müxalifət adlandıran dairələrin anti-milli, anti-dövlət xarakterli əməllərini ifşa etmək yönündə işlərimizi istənilən səviyyəyə çatdıra bilməmişik. Bəzi rayon təşkilatlarında ideoloji və təbliğat işi günün tələblərinə cavab vermir və bir sıra hallarda tədbirlərin keçirilməsində kampaniyaçılıq meylləri, formalizm müşahidə olunur.

İctimaiyyətlə əlaqələr, gənclərlə və qadınlarla iş sahəsində də müəyyən çatışmazlıqlar mövcuddur. İctimaiyyətlə daha geniş əlaqə yaradılması, görülmüş işlərin Kütləvi İnformasiya Vasitələrində geniş və hərtərəfli işıqlandırılması baxımından ləngilik, bəzən hadisələrə seyrçi münasibət, təşəbbüskarlığın lazımi səviyyədə olmaması və digər bu kimi hallar bir sıra rayon təşkilatlarında hələ də özünü göstərməkdədir.

Hesab edirəm ki, deyilən bu tənqiddən lazımi nəticə çıxarılacaqdır.

Hörmətli Qurultay nümayəndələri!

Yeni Azərbaycan Partiyasının II Qurultayına hazırlıq və bununla əlaqədar olaraq keçirilən çoxsaylı hesabat-seçki yığıncaqları partiyanın həyatında xüsusi canlanma yaratmışdır. Qısa müddət ərzində 5.400 ilk və 81 rayon və şəhər təşkilatında hesabat-seçki yığıncaqları və konfransları keçirilmiş, aktiv şəkildə fikir mübadiləsi və diskussiyalar aparılmışdır. Xüsusilə də Yeni Azərbaycan Partiyasının sədr müavini İlham Əliyevin iştirak etdiyi Qarabağ, Lənkəran və Gəncə təşkilatlarında konfranslar daha canlı keçmiş, həm partiyanın, həm də həmin rayon və şəhərlərin həyatı ilə bağlı diqqətəlayiq təkliflər irəli sürülmüşdür. Bu təkliflər sırasında ən vacibi Azərbaycanın rayonlarının təbii qazla təmin olunması işindəki bir sıra problemlərin həll edilməsi ilə əlaqədar idi. Biz partiyanın qurultayına məruzə edə bilərik ki, hörmətli İlham Əliyevin bilavasitə təşəbbüsü ilə Tovuz, Qazax, Göyçay, Ağsu, Kürdəmir,



İsmayıllı, Astara, Lənkəran, Şəmkir, Goranboy, Samux və bir neçə digər rayona qaz artıq verilmişdir. İkinci mərhələdə isə, daha bir bir sıra rayonlara qaz verilməsi məsələsinə baxılır. Budur xalqın qayğıları ilə yaşamaq, xalq qarşısında məsuliyyəti hiss etmək, xalqa sədaqətlə xidmət etmək. Hesab edirəm ki, özünü siyasətçi adlandıranlar bundan ibrət dərsi götürməlidirlər.

Konfranslarda gənclərin partiyada sayının çoxalması ilə əlaqədar onların təşkilatlarda fəaliyyətinin çevik əlaqələndirmə mexanizminin yaradılması, çoxsaylı üzvləri olan ilk təşkilatların idarə olunmasının təkmilləşdirilməsi ilə bağlı təkliflər də diqqəti cəlb edir.

Qurultay nümayəndələrinin nəzərinə çatdırmaq istərdim ki, bütün yığıncaq və konfranslarda İlham Əliyevin partiyada statusunun artırılması ilə bağlı təkliflər irəli sürülmüşdür. Çoxsaylı partiya üzvləri bildirmişlər ki, İlham Əliyevin neft strategiyasının uğurlar qazanmasında, iqtisadi islahatların həyata keçirilməsində, idman hərəkatının inkişafında xidmətləri, ölkənin daxilində və beynəlxalq aləmdə tanınmış siyasətçi kimi diqqətəlayiq nailiyyətləri, habelə partiyanın sədr müavini kimi Yeni Azərbaycan Partiyasının daha da fəallaşmasında və inkişafında xüsusi rol oynaması partiya üzvləri arasında ona böyük rəğbət və məhəbbət yaratmışdır. İlham Əliyevin Yeni Azərbaycan Partiyası sədrinin müavini seçildikdən sonra siyasi həyatımıza gətirdiyi dinamizm, gənclik enerjisi ilə müdrikliyin vəhdətindən yaranan işgüzarlıq, yüksək intellektual səviyyə, təbiilik və səmimiyyət, ən başlıcası isə Heydər Əliyev ideyalarına, partiyanın məram və prinsiplərinə dərindən bağlılıq onu ictimaiyyətə Heydər Əliyevin ən layiqli davamçısı kimi tanıtmışdır. Ona görə də konfranslarda belə bir fikir və qətiyyət səslənmişdir ki, partiyada İlham Əliyevin daha yüksək status alması onun Heydər Əliyevin davamçısı kimi partiyanın daha da inkişafına, gələcək perspektivlərinə müsbət təsir göstərməsi baxımından zəruri addımdır. Mən bu yüksək kürsüdən on minlərlə partiya üzvlərinin arzusunu ifadə edərək, qurultayın İlham Əliyevə Heydər Əliyev ideyalarının ən layiqli

davamçısı kimi daha yüksək status verilməsinə münasibət bildirməsini xahiş edirəm. Təklif edirəm ki, Yeni Azərbaycan Partiyasının birinci müavini vəzifəsi təsis edilsin və Heydər Əliyevin ən layiqli davamçısı olan İlham Əliyev bu vəzifəyə seçilsin.

Hörmətli Qurultay iştirakçıları!

Yeni Azərbaycan Partiyası ədalətin zəfər çalması naminə mübarizəyə bütün ömrünü həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin ideyalarını həyata keçirməyə xidmət edən bir partiya olduğundan daim öz fəaliyyətində sosial ədalət prinsipini rəhbər tutur. Azərbaycanın sahib olduğu əlverişli coğrafi mövqeyini, təbii sərvətləri və intellektual potensialı xalqımızın rifahı naminə səfərbər etmək, ölkənin iqtisadiyyatını tərəqqiyə çatdırmaq kimi olduqca vacib taleyüklü məsələnin həlli hesabat dövrü də daxil olmaqla son illər ərzində görkəmli dövlət xadimi cənab Heydər Əliyev başda olmaqla Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsas məqsədini təşkil etmişdir. Qarşıda duran məqsədə nail olmaq üçün Heydər Əliyev və onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası mövcud vəziyyətə praqmatik yanaşma mövqeyi nümayiş etdirərək öz dəqiq sosial-iqtisadi proqramını işləyib hazırlamışdır.

Müəyyən edilmiş Proqramın ardıcıl surətdə həyata keçirilməsi və bu yönümdə nümayiş etdirilən əzm, qətiyyət və iradə bütün sahələrdə ciddi irəliləyişlərin əldə edilməsinə gətirib çıxarmışdır. Vaxtın məhdudluğunu nəzərə alıb həmin irəliləyişləri əks etdirən yalnız bir neçə vacib göstəricini nəzərinizə çatdırmağı zəruri hesab edirəm.

Həyata keçirilən iqtisadi siyasət nəticəsində 1995-ci ildən etibarən ölkə iqtisadiyyatında geriləmə dayandırılmış, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən islahatlar mühüm keyfiyyət dəyişikliklərinə gətirib çıxarmış, makro-iqtisadi və maliyyə sabitliyinə nail olunmuşdur. Son 6 ildə ümumi daxili məhsul 57 faiz artmış, inflyasiyanın qarşısı demək olar ki, alınmış, əhalinin maddi rifah halı yaxşılaşmışdır. Son bir neçə il ərzində işləyənlərin əmək haqqı 3,5 dəfə, təqaüdlər isə 4 dəfə artırılmışdır. Ümumiyyətlə, əhalinin həyat səviyyəsi 2,5 dəfə yüksəlmişdir.



2002-ci ilin dövlət büdcəsinin müzakirə edildiyi bu günlərdə iqtisadi sahədə əldə edilmiş uğurlara dair bir sıra göstəricilər bir daha nəzərdən keçirilir. Son illərdə Azərbaycan iqtisadiyyatına bütün mənbələr hesabına 8,7 milyard dollar həcmində, o cümlədən 6 milyard dollardan artıq xarici kapital qoyulmuşdur.

Özəlləşdirmə, torpaq islahatı və sahibkarlığın inkişafına yönəlmiş hüquqi təşkilati tədbirlər nəticəsində sənaye istehsalı 20 %, kənd təsərrüfatı istehsalı 30 % yüksəlmişdir. Bu il Azərbaycanda rekord miqdarda - 2 mln ton taxıl yığılmışdır. Demək olar ki, digər kənd təsərrüfatı məhsulları istehsalı da rekord həddinə çatmışdır. Beləliklə, indi tam məsuliyyətlə demək olar ki, ölkəmiz artıq keçid dövrünün ağrılı, mürəkkəb mərhələsini arxada qoymuş, müstəqil Azərbaycanın sağlam, möhkəm və etibarlı iqtisadi bazası formalaşdırılmışdır.

Ölkəmizdə gedən bütün proseslər, həyata keçirilən siyasət xalqımızın əsrlərdən bəri tarixi yaddaşında saxladığı arzularını gerçəkləşdirməyə – müstəqilliyini daimi, əbədi, dönməz etməyə imkan vermişdir. Yeni Azərbaycan Partiyasının tarix və xalq qarşısında ən böyük və ümdə vəzifəsi bu siyasi xəttə sadiq qalmaq, bu yolla inamla irəliləməkdir. Hüquqi dövlət və vətəndaş cəmiyyəti modelinə uyğun olaraq dövlət quruculuğu prinsiplərini həyata keçirən Azərbaycan bu istiqamətdə mühüm irəliləyişlərə nail olmuşdur. Qanunların aliliyi, idarəetmədə peşəkarlığın üstünlüyü və dövlət idarəçiliyinin kamilliyini təmin etmək yönümündə diqqətəlayiq tərəqqi əldə edilmiş, hakim partiyadan olan deputatların təşəbbüsü və yaxından iştirakı ilə bir çox qanunlar işlənib hazırlanmışdır. Yeni Azərbaycan Partiyasının Proqramında nəzərdə tutulmuş əsas prinsiplərdən biri kimi qanunçuluq prinsipi ardıcıl surətdə həyata keçirilir, vətəndaşların iqtisadi, siyasi, sosial-mədəni hüquqları dönmədən qorunur. 1995-ci ildə qəbul edilmiş müəllifi və yaradıcısı zati-aliləri cənab Heydər Əliyev olan müstəqil Azərbaycanın ilk Konstitusiyası bütün bu hüquq və azadlıqların qorunmasına təminat verən mükəmməl hüquqi sənəd mahiyyəti daşıyır. Azərbaycanda Avropa Şurasının üzvü kimi insan hüquq və azadlıqlarının qorunması yolunda bir sıra islahatlar həyata

keçirilmiş, ölkədə mətbuat azadlığı və fikir plüralizmi üçün hər cür şərait yaradılmışdır.

Yeni Azərbaycan Partiyası azərbaycançılıq, vətənçilik prinsipini rəhbər tutaraq həmişə milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunmasını ümdə vəzifə hesab etmişdir. 2001-ci ilin avqust ayında möhtərəm cənab Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı xalqa müraciəti partiyamızın proqram sənədindən irəli gələn prinsiplərə sadiqliyini bir daha nümayiş etdirir. Azərbaycançılıq və vətənçilik ideyalarını real olaraq həyata keçirmək niyyətindən xəbər verir.

Noyabrın 9-10-da Dünya azərbaycanlılarının Bakıda keçirilən I Qurultayı azərbaycançılıq və vətənçilik prinsiplərinin real təcəssümünün təntənəsinə çevrildi. Bu ideyaların müəllifi və ilhamvericisi olan Heydər Əliyevin təşəbbüsü ilə keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı əyani surətdə göstərdi ki, Azərbaycan bütün dünya azərbycanlılarının tarixi Vətəni olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev də bütün dünyada yaşayan 50 milyonluq soydaşlarımızın ümummilli lideridir. Məhz elə buna görə də, o, ölkəmizin qarşısında duran çoxsaylı mürəkkəb problemlərin həlli ilə yanaşı bütün dünya azərbaycanlılarının həmrəyliyini, birliyini yaratmaq kimi əsrlərlə arzulanan tarixi missiyanı da öz üzərinə götürmüşdür. İnanırıq ki, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı bu müqəddəs vəzifənin həyata keçirilməsi işinə möhtərəm Sədrimizin verdiyi böyük və əməli töhfə olacaqdır.

Azərbaycançılıq, vətənçilik ideyası Heydər Əliyevə anadan gəlmə xas olan, onun milli lider və vətəndaş mahiyyətini təyin edən vətən təəssübündə, millət qayğısında özünün ifadəsini tapır.

Bu gün həmin ideyanın ana xətti Ermənistanın Azərbaycana təcavüzü nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş bir milyona yaxın soydaşımızın taleyinə, ağır yaşayışına qayğıdan keçir. Möhtərəm Prezidentimiz onların sosial vəziyyətini yaxşılaşdırmaq, maddi-mənəvi problemlərinin həllini sürətləndirmək məqsədilə dəfələrlə imzaladığı fərmanlarla



köçkün soydaşlarımızın sosial reabilitasiyasına şərait yaratmışdır. Lakin heç şübhəsiz məcburi köçkünlərin qarşısında göstərə biləcəyimiz ən böyük xidmət onların öz doğma ocaqlarına qayıtmasını təmin etməkdir. Xalqımız qəti şəkildə əmindir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı möhtərəm sədrimizin apardığı ardıcıl və məqsədyönlü siyasət öz səmərəli nəticələrini yaxın zamanda verəcək və soydaşlarımız ata – baba yurdlarına qayıdacaqlar. Müstəqilliyimizin on illiyinə həsr olunmuş təntənəli mərasimdə Heydər Əliyev bir daha bəyan etmişdir ki, biz torpaqlarımızın işğaldan azad olunmasına, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə və yerindən-yurdundan didərgin düşmüş insanların öz torpaqlarına qayıtmasına, onların orada yenidən həyat qurmasına nail olacağıq. Biz buna sülh yolu ilə nail olmaq istəyirik. Ona görə dözümlülük göstəririk. Amma hamı onu da bilməlidir ki, Azərbaycan heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik.

Yeni Azərbaycan Partiyası möhtərəm sədrimizin Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində apardığı siyasəti bütünlüklə müdafiə edir və dəstəkləyir.

Xarici siyasət sahəsində əldə olunan nailiyyətlərin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, gənc Azərbaycan Respublikası qısa müddət ərzində dünya birliyinə inteqrasiya etməsi və beynəlxalq təşkilatlarda, dövlətlərarası münasibətlərdə dövlətimizin milli maraqlarının layiqincə qorunması yönümündə diqqətəlayiq uğurlar əldə etmişdir.

Həyata keçirilən məqsədyönlü və uzaqgörən xarici siyasət bu günlərdə növbəti müvəffəqiyyətini qazanmışdır. ABŞ administrasiyası xalqımıza yönələn ədalətsiz qərarı – Azadlığı Müdafiə Aktına 907-ci düzəlişi ləğv etmək istiqamətində mühüm addım atmışdır. Beləliklə, uzun illərdən bəri Azərbaycan Respublikasına qarşı diskriminasiya və ikili standartlar siyasətinə rəvac verən bu qeyri-obyektiv düzəlişin ləğvinə yönəldilən

fəaliyyət polad iradəyə malik görkəmli dövlət xadimi Heydər Əliyevin növbəti xarici siyasət uğuru nəticəsində artıq tarixə qovuşmaq üzrədir.

Dünyada baş verən qlobal miqyaslı dəyişikliklər fonunda Azərbaycan Respublikasının Avroatlantik siyasi-iqtisadi məkanına inteqrasiyası olduqca taleyüklü əhəmiyyət daşıyır. 2001-ci ilin əvvəlində Avropa Şurasına daxil olan Azərbaycan planetimizin siyasi xəritəsində özünəlayiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsir gücünə malik olduğunu nümayiş etdirmişdir. Avropa Şurasında fəaliyyət göstərən Azərbaycan nümayəndə heyəti və onun rəhbəri İlham Əliyevin uğurlu diplomatik manevrləri ölkəmizin beynəlxalq nüfuzunun artmasına və dünya dövlətlərinin ölkəmizə olan marağının güclənməsinə səbəb olmuşdur. Azərbaycan nümayəndə heyətinin Avropa Şurasındakı səmərəli fəaliyyəti sayəsində Azərbaycan inkişaf etmiş Qərb dəyərlərini uğurla mənimsədiyini, mütərəqqi bəşəriyyətin ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləməklə yanaşı ölkəmizin üzləşdiyi problemləri və onların ən başlıcası olan Dağlıq Qarabağ konfliktinin mahiyyətini dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırmağa, erməni tərəfin ədalətsiz mövqeyinə ciddi zərbələr endirməyə nail olunmuşdur.

Müasir dünya sivilizasiyasını sürətli və hərtərəfli tərəqqi ilə yanaşı bütün ölkələrə eyni dərəcədə meydan oxuyan ortaq fəlakətlər də gözləyir. Sentyabrın 11-də ABŞ-a qarşı törədilən dəhşətli terror aktı bu reallığı bir daha təsdiqləməklə dünyanın mənzərəsini yenidən dəyişdirmişdir. İndi terrorizmə qarşı mübarizə bəşəriyyətin qarşısında duran ən aktual problemə çevrilmişdir. Azərbaycan 1988-ci ildən bəri erməni terroruna ardıcıl olaraq məruz qalmış bir ölkə kimi beynəlxalq terrorizmi qətiyyətlə pisləyir, onun kökünün kəsilməsi üçün hər cür mübarizəyə hazır olduğunu bəyan etməklə bərabər, öz növbəsində dünya birliyindən ölkəmizə qarşı Ermənistan tərəfindən törədilən dövlət terrorunun qarşısını almaqda əməli yardım gözləyir.

Hörmətli Qurultay iştirakçıları!

Heydər Əliyevin ölkəmizi ardıcıl olaraq tərəqqiyə doğru



aparan siyasəti xalqın böyük əksəriyyəti tərəfindən yüksək qiymətləndirilir və müdafiə olunur. Lakin özünün siyasi iddialarını və hakimiyyət hərisliyini hər şeydən uca tutan bəzi dairələr müxalifət adı altında pərdələnərək iqtidarın siyasətinə, eləcə də ölkəmizin milli mənafelərinə ləkə yaxmaq yolunda dəridən-qabıqdan çıxırlar.

Yeni Azərbaycan Partiyası siyasi plüralizmi, çoxpartiyalılığı, siyasi rəqabəti demokratiyanın, eləcə də bütövlükdə ölkənin inkişafının vacib şərti hesab edir. Lakin bütün dünyada olduğu kimi Azərbaycanda da müxalifət sivil qaydalara riayət etməli, Azərbaycanın qanunlarına hörmətlə yanaşmalı, milli mənafeləri hər şeydən uca tutmağı bacarmalıdır. Təəssüf hissi ilə qeyd edirik ki, bu gün Azərbaycanda mövcud olan müxalifət partiyalarının əksəriyyəti 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində ölkəni fəlakətə düçar edən Ayaz Mütəllibovun, İsa Qəmbərovun, Etibar Məmmədovun, Əli Kərimovun, iqtidarda təmsil olunarkən xalqa xidmət etmək əvəzinə şəxsi mənfəətlərini düşünən və mənfi imici ilə tanınan Rəsul Quliyevin, İlyas İsmayılovun ətrafında toplaşan əsasən destruktiv ünsürlərdən ibarətdir.

Ölkədə yaradılmış demokratik ab-havadan, söz və mətbuat azadlığından sui-istifadə edən radikal, dağıdıcı müxalifət siyasi mübarizəni yalan, şayiə, böhtan kampaniyası ilə qarışıq salaraq dövlətçiliyimizə, müstəqilliyimizə, inkişafımıza zərbə vurur. Onların həm ölkə daxilində, həm də kənarda apardıqları antiazərbaycan təbliğatına bir ad vermək mümkündür – milli xəyanət. Sözdə millətdən, birlikdən dəm vuran İsa Qəmbərov, Etibar Məmmədov, Əli Kərimov, İlyas İsmayılov əməldə bunun tam əksinə edirlər. Bu günlərdə dünya azərbaycanlılarının Bakıda keçirilən I Qurultayına dəvət olunduqları halda bu möhtəşəm foruma etinasızlıq göstərmələri onların milli həmrəylik ideyalarına düşmən kəsildiklərini bariz nümayiş etdirir. Müxalifətçiliyi milli maraqlara xəyanət həddinə çatdıran həmin dairələr hakimiyyətə gəlmək naminə Azərbaycanın milli müstəqilliyini, ərazi bütövlüyünü qurban verməyə belə hazır olduqlarını əməlləri ilə

dəfələrlə sübuta yetirmişlər. Azərbaycan iqtidarı əleyhinə fəaliyyətdə hətta şeytanla belə əməkdaşlığa hazır olduqlarını etiraf edən pozucu müxalifət ölkəmizdə qazanılan uğurlara qara yaxmaqdan başqa bir işlə məşğul ola bilmir.

«Yeni Müsavat», «Hürriyyət», «Azadlıq» və bu qəbildən olan müxalifət mətbuatında aparılan çirkin, Azərbaycan əxlaqına sığmayan, mənəviyyatdan uzaq antiazərbaycan təbliğatı, bu qəzetlərdə çap olunan böhtan, şər, qarayaxma dolu yazılar pozucu, destruktiv müxalifətin əsl üzünü açır, mahiyyətini bütün çılpaqlığı ilə ortaya qoyur.

Biz bu qüvvələri rəqibimiz olduğuna görə tənqid etmirik. Həyat dəfələrlə göstəribdir ki, həmin qruplar Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmağa qadir deyillər. Çünki Yeni Azərbaycan Partiyası xalqın mənafeyini uca tutaraq fəaliyyət göstərdiyi halda müxalifətçilər yalnız özlərini, öz maraqlarını düşünürlər. Yeni Azərbaycan Partiyası xalqa, xalqın dəstəyinə arxalandığı halda, onlar xaricdəki havadarlarına və qrant verənlərinə güvənirlər. Yeni Azərbaycan Partiyası xalqın güzəranını yaxşılaşdırmaq üçün həyatın tələblərinə uyğun proqram işləyib həyata keçirdiyi halda, onlar 1990-cı illərin əvvəllərinin ab-havası ilə yaşayır, insanlara yeni heç nə vəd edə bilmirlər. Yeni Azərbaycan Partiyası ölkədə sabitliyi, qanunçuluğu hər bir vətəndaş üçün qazanılmış nailiyyət hesab edərək onu qoruyub möhkəmləndirdiyi halda, onlar əvvəlki illərdə olduğu kimi xaos və anarxiya həvəsi ilə yaşayırlar. Yeni Azərbaycan Partiyası, onun lideri ölkəmizin beynəlxalq imicinin daim yüksəlməsinə çalışdığı halda, onlar hər bir imkandan istifadə edirlər ki, Azərbaycanı beynəlxalq ictimaiyyətin gözündə nüfuzdan salsın.

Bu müqayisəni çox uzatmaq olar. Lakin düşünmürəm ki, mövcud olduğu bütün illərdə Azərbaycana yalnız və yalnız bəlalar gətirən, ailələri faciələrlə üz-üzə qoyan qruplar və onların liderlərinin qara tonlu xarakteristikasını uzun-uzadı sadalamaq bu mötəbər məclisin diqqətinə layiq olsun.

Yeni Azərbaycan Partiyası onları haqq yoluna qayıtmağa, millətə xidmət etməyi öyrənməyə, Azərbaycanı həqiqi mənada



sevməyə dəvət edir. Biz bütün mütərəqqi fikirli insanları və siyasi qurumları Azərbaycanın mənafeyi naminə konstruktiv əməkdaşlığa çağırır, milli həmrəyliyi möhkəmləndirmək üçün qüvvələri birləşdirməyə səsləyirik.

Hörmətli Qurultay nümayəndələri!

Yeni Azərbaycan Partiyasının I Qurultayından keçən dövr ərzində ölkəmiz müstəqillik yolunda böyük uğurlar qazanmış, siyasi, iqtisadi, sosial, hüquqi islahatların həyata keçirilməsi sahəsində əsaslı irəliləyişə nail olmuşdur. Ötən dövr ərzində Azərbaycanda demokratik hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı sisteminin təşəkkülü, formalaşması və bərqərar olması yönündə ardıcıl və məqsədyönlü siyasət həyata keçirilmiş və hazırda bu yolda mühüm işlər görülməkdədir. Sözsüz ki, bu cür tarixi nailiyyətlərin qazanılmasına gedən yol heç də hamar olmamış, müxtəlif tarixi mərhələlərdən keçmişdir. Dünyada gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsində Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi bütün sahələrdə olduğu kimi onilliklər ərzində müəyyən siyasi-ideoloji prinsiplər çərçivəsində formalaşmış cəmiyyətin məzmun və mahiyyətinin dəyişilməsi kimi tarixi prosesin də əsasını qoymuşdur. İstiqlalımızın ilk illərində siyasi hakimiyyətdə olan qüvvələrin qarşısında Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək kimi tarixi vəzifələrlə yanaşı ölkədə demokratik dəyərlərin və prinsiplərin, bazar iqtisadiyyatı sisteminin bərqərar olmasını təmin etmək kimi ciddi və məsuliyyətli vəzifələr dururdu. Əfsuslar olsun ki, keçmiş hakimiyyət sadalanan tarixi vəzifələri yerinə yetirə bilmədi və ümummilli strateji məqsədlərə nail olmağın yolunu deklorativ bəyanatlar verməklə bitmiş hesab etdi. Məhz həmin dövrdə siyasi hakimiyyətin buraxdığı səhvlərdən aydın oldu ki, Azərbaycanın gələcək inkişaf yollarını dolaşıq təfəkkürlə deyil, cəmiyyətin və ictimai şüurun inkişaf qanunauyğunluqlarını dərk etməklə müəyyənləşdirmək mümkündür.

Beləliklə, yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından

sonra xalqımızın taleyüklü məsələlərinin həlli istiqamətində mühüm tarixi addımlar atıldı.

Bununla da, Azərbaycanın ən yeni siyasi tarixi bir daha ictimai inkişafda şəxsiyyət faktorunun əvəzedilməz rolunu təsdiqlədi. Ölkəmizin son 8 illik tarixinin ibrət dərsi ondan ibarətdir ki, yalnız və yalnız Heydər Əliyevin müdrikliyi, qətiyyəti, siyasi iradəsi, biliyi, təcrübəsi və nüfuzu sayəsində Azərbaycan düçar olduğu bəlalardan qurtuldu, ən mürəkkəb vəziyyətdə demokratik cəmiyyətə keçidin ağrısız yolunu tapa bildi.

İndi nə Azərbaycanda, nə də bütün dünyada heç kim şübhə etmir ki, ölkədə mövcud olan vətəndaş müharibəsinin, hakimiyyət böhranının, etnik separatizm meyllərinin qarşısının alınması, müxtəlif dövlətlərin ölkəmizə yönələn geostrateji maraqlarının uzlaşdırılması, Azərbaycanda demokratik cəmiyyətin inkişafına təminat yaradılması şəxsiyyət amilinin, Heydər Əliyev fenomeninin sayəsində mümkün olmuşdur. Bir sözlə, xalqımızın tarixinin ən mürəkkəb və ağır dövrlərində böyük öndər Mustafa Kamal Atatürkün Türkiyədə, Mahatma Qandinin Hindistanda, Adenauerin Almaniyada, Şarl De Qolun Fransada yerinə yetirdikləri tarixi missiyanı Heydər Əliyev Azərbaycanda reallaşdırdı və bu gün də özünün müdrikliyi ilə ümummilli lider kimi xalqımız qarşısında üzərinə düşən tarixi vəzifələri şərəf və ləyaqətlə yerinə yetirir. Təsadüfi deyildir ki, müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji bazasını məhz Onun sosial-siyasi həyatın bütün sahələrini ehtiva edən nəhəng və cahanşümul dünyagörüşlü sistemi – Heydər Əliyev yolu, Əliyevçilik ideologiyası təşkil edir. Azərbaycan bu yolla irəliləyir, uğurlar qazanır. Qəti əminik ki, Heydər Əliyev yolunu uca tutan xalqımız daim ucalacaq, Azərbaycan dövləti öz qüdrətini bu ideoloji təməl üzərində həmişə qoruyub saxlaya biləcəkdir.

Bu inamla da Yeni Azərbaycan Partiyası qarşıdan gələn 2003-cü il Prezident seçkilərinə gedir. Azərbaycan Respublikasının növbəti Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının yeganə namizədi partiyamızın sədri, ümummilli liderimiz Heydər Əliyevdir. Əminik ki, möhtərəm Heydər Əliyevin namizədliyini



1993 və 1998-ci illərdə olduğu kimi 2003-cü ildə də Azərbaycan xalqının mütləq əksəriyyəti qətiyyətlə dəstəkləyəcək və Prezidentimizə səs verəcəkdir.

Hörmətli Qurultay nümayəndələri !

Həyat artıq çoxdan sübuta yetirmişdir ki, H. Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü, ən mükəmməl siyasi təşkilatdır və ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək digər qurum mövcud deyil. Cənab Heydər Əliyev və onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının məfkurəsi ən ali ideallara - xalqımızın istək və arzularının, zəngin gələcəyinin təmin olunmasına və gerçəkləşməsinə xidmət edir. Bu ali məqsədlərə çatmaq üçün biz bütün siyasi qüvvələri Azərbaycan naminə işbirliyinə dəvət edir, onlara Vətənimizin bu günü və sabahı naminə əməkdaşlıq təklifi ilə müraciət edirik. Yeni Azərbaycan Partiyasının sədri və Azərbaycanın Prezidenti Heydər Əliyevin dediyi kimi, hər bir Azərbaycan vətəndaşının ən ali məqsədi Azərbaycana xidmət etmək, onu inkişaf etmiş dövlət, xalqımızı isə xoşbəxt görmək olmalıdır.

Azərbaycan xalqının ən böyük milli sərvəti olan dövlət müstəqilliyini qoruyub saxlayan möhtərəm Prezidentimiz Heydər Əliyev XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycanı qloballaşan dünyada suveren dövlət kimi formalaşdırmış, milli mənafelərinin reallaşmasının fundamental əsasını qoymuş, mənəvi dəyərlərinin qorunması, mədəniyyətinin inkişafı üçün hər cür şərait yaratmışdır.

Yeni Azərbaycan partiyasının qarşısında duran əsas vəzifə bu nailiyyətləri göz bəbəyi kimi qorumaq, Heydər Əliyev ideyasına sədaqətlə xidmət etməkdir.

Biz gələcəyə çox böyük nikbinliklə və inamla baxırıq. Möhtərəm Prezidentimiz, müdrik Sədrimiz Heydər Əliyevin qurduğu, yaratdığı müstəqil Azərbaycan bu əsrdə daha yüksək zirvələrə qalxacaqdır. Buna bizim gücümüz, qətiyyətimiz, potensialımız və bu nəcib məqsədimizi həyata keçirə biləcək Yeni Azərbaycan Partiyası kimi qüdrətli, xalq tərəfindən müdafiə edilən, monolit birliyə malik olan təşkilatımız, Heydər Əliyev kimi

ümummilli liderimiz, onun yolunu davam etdirməyə qadir olan hörmətli İlham Əliyev kimi perspektivli, yüzminlərlə insanların böyük ümidlərlə baxdığı davamçımız vardır.

*Yaşasın Yeni Azərbaycan Partiyasının əbədi və müdrik rəhbəri, ümummilli liderimiz Heydər Əliyev!*

*Azərbaycanı xoşbəxt və zəngin gələcəyə aparan Yeni Azərbaycan Partiyasına eşq olsun!*

*Yaşasın müstəqil Azərbaycan !*



## YENİ AZƏRBAYCAN PARTİYASI MƏRKƏZİ NƏZARƏT-TƏFTİŞ KOMİSSİYASININ HESABATI BARƏDƏ

## YAP MNTK – nın SƏDRİ QƏZƏNFƏR HACIYEVİN MƏRUZƏSİ

Möhtərəm Sədr!

Hörmətli qurultay iştirakçıları!

Sizi Yeni Azərbaycan Partiyasının II Qurultayının keçirilməsi münasibəti ilə səmimi salamlayır, təbrik edir və qurultayın işinə uğurlar arzulayıram.

Bu qurultayın keçirilməsi tarixin yaddaşında çox əlamətdar bir dövrə – XXI əsrin başlanğıcına, Azərbaycanın dövlət müstəqilliyinin onuncu ildönümünə və Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi dövrünə təsadüf edir.

Partiyanın I Qurultayından keçən 2 il tariximizdə yadda qalan, əlamətdar illər olmuşdur. Bu illərdə istər iqtisadi, istərsə də digər sahələrdə islahatların keçirilməsi müvəffəqiyyətlə davam etdirilmiş, xalqımızın həyat səviyyəsinin yüksəldilməsi üçün mühüm işlər görülmüş, dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, Azərbaycan Avropa Şurasına üzv seçilmişdir.

Yeni Azərbaycan Partiyası bütün taleyüklü məsələlərin həllində partiyamızın Sədri, möhtərəm cənab Heydər Əliyevin ən yaxın köməkçisi və silahdaşı olmuşdur.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Nəzarət-Təftiş Komissiyası öz fəaliyyətində möhtərəm cənab Sədrin göstərişlərini, partiyanın Nizamnaməsini və Mərkəzi Nəzarət –Təftiş Komissiyasının Əsasnaməsini rəhbər tutaraq, partiyanın ideya-siyasi, və təşkilati işinin yaxşılaşdırılmasına, onun maddi bazasının möhkəmləndirilməsinə, partiya üzvlərinin intizamının və fəallığının daha da yüksəldilməsinə çalışmışdır.

Mərkəzi Nəzarət-Təftiş Komissiyası partiyanın rayon (şəhər) təşkilatlarında vətəndaşların partiya üzvlüyünə qəbulu məsələlərinə, partiya üzvlərinin, partiya tərəfdarlarının və digər vətəndaşların məktub, ərizə və şikayətlərinə baxılmasına xüsusi diqqət

yetirmiş, konkret tədbirlər görülməsinə nəzarət etmişdir. Partiyanın maliyyə işi mütəmadi olaraq təftiş olunmuş, üzvlük haqlarının ödənilməsi və toplanmış üzvlük haqları barədə hesabat verilməsinə xüsusi fikir vermiş, partiyanın büdcə vəsaitinin təyinatı üzrə xərclənməsinə daim nəzarət etmişdir.

Nəzarət-Təftiş Komissiyası hesabat dövründə partiyanın Mərkəzi Aparatında və rayon (şəhər) təşkilatlarında partiya üzvlərinin, partiya tərəfdarlarının, eləcə də digər vətəndaşların məktublarına, şifahi müraciətlərinə baxılması və konkret tədbirlər görülməsi işini xüsusi nəzarətdə saxlamışdır.

Yeni Azərbaycan Partiyasına ünvanlanmış məktub və müraciətlərdə vətəndaşlar möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin daxili və xarici siyasətini tam dəstəklədiklərini bildirirlər.

Bununla belə, həmin məktub və müraciətlərin müəllifləri yerlərdə baş verən bir sıra qanun pozuntularından, iqtisadi islahatların gedişində, xüsusilə aqrar islahatların aparılmasında buraxılmış səhvlərdən, yol verilən nöqsanlardan, ərizə və müraciətlərə vaxtında cavab verilməməsindən şikayətlənirlər. Yerlərdə bir çox hallarda şikayətlərə obyektiv baxılmadığından, vətəndaşlar eyni məzmunlu şikayətləri yuxarı təşkilatlara, mərkəzi hakimiyyət orqanlarına göndərmək məcburiyyətində qalmışlar.

Şikayət və müraciətlərə baxılması Səbayel, Nəsimi, Əzizbəyov, Nərimanov, Nizami, Gəncə, Göyçay, Yevlax, Saatlı rayon təşkilatlarında daha yaxşı təşkil edilmişdir.

Məktub, ərizə və şikayətlərə baxılmasında, vətəndaşların dinlənilməsində və onlara köməklik göstərilməsində dövlət orqanlarında çalışan partiya üzvlərinin və YAP-çı millət vəkillərinin də işini təqdirəlayiq hesab etmək olar.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Nəzarət-Təftiş Komissiyası Əsasnaməyə görə digər vəzifələrlə bərabər, partiyanın təşkilatlanma prosesinə də nəzarəti həyata keçirmişdir. Hesabat dövründə təşkilatlanmanın vəziyyəti yaxşı olmuş, 1.032 ərazi ilk təşkilatı yaradılmışdır.

2001-ci il noyabr ayının 1-nə olan məlumata əsasən Yeni Azərbaycan Partiyasının üzvləri 81 rayon (şəhər) və 5.407 ərazi ilk təşkilatlarında birləşmişlər.



Hesabat dövründə Yeni Azərbaycan Partiyasında partiya üzvlərinin sayı 159.577-dən 229.155 nəfərə çatmışdır. Vətəndaşların partiyaya qəbulunda fərqlənən rayon təşkilatlarında son iki ildə boy artımının dinamikası aşağıdakı kimi olmuşdur:

| | | |
|---|---|---|
| 1. Nəsimi | 5.801 | -dən 11.302 nəfərə |
| 2. Səbayel | 3.255-dən | 10.834 nəfərə |
| 3. Yasamal | 5.255-dən | 10.209 nəfərə |
| 4. Nərimanov | 1.313-dən | 5.836 nəfərə |
| 5. Binəqədi | 2.665-dən | 5.015 nəfərə |
| 6. Xətai | 1.635-dən | 8.394 nəfərə |
| 7. Beyləqan | 1.307-dən | 1.870 nəfərə |
| 8. Qusar | 1.086-dan | 2.042 nəfərə |
| 9. Mingəçevir | 1.494-dən | 2.418 nəfərə |
| | | və sair. |

Partiyanın İcra katibliyi partiyaya qəbulun keyfiyyətinə daim nəzarət etmiş, partiya Sədrimiz hörmətli Heydər Əliyevin I Qurultay ərəfəsində Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin, Siyasi Şurasının, qurultaya hazırlıq üzrə Təşkilat Komitəsinin üzvləri və Mərkəzi Aparatın rəhbər işçiləri ilə 4 sentyabr 1999-cu il tarixindəki nitqində bütün partiya təşkilatları qarşısında qoyduğu partiyanın ideya, əqidə sağlamlığını təmin etmək vəzifəsini öz işində rəhbər tutmuşdur.

Hörmətli qurultay nümayəndələri!

Hesabat dövründə Mərkəzi Nəzarət-Təftiş Komissiyası İcra katibliyi ilə birlikdə partiya büdcəsinin icrasına və maliyyə intizamına əməl olunmasına ciddi nəzarət etmişdir. Büdcə vəsaiti təyinatlara uyğun surətdə düzgün və məqsədəuyğun şəkildə xərclənmişdir.

**2000-ci il üçün partiya büdcəsinin mədaxili** **-10.410.550.000**

Mədaxil aşağıdakı mənbələrdən yığılmışdır:

| | |
|---|---|
| 1. Partiya üzvlük haqları | -709.534.000 manat |
| 2. Partiya üzvlük vəsiqələri almaq üçün | -29.446.000 manat |
| 3. Toplanılan ianələr | -204.227.000 manat |

| | |
|---|---|
| 4. 2000-ci ilin əvvəlinə | |
| 1999-cu ildən qalıq | -97.851.000 manat |

Həmin dövrdə partiya büdcəsinin məxarici 911.960.000 manat olmuşdur.

Bu məbləğ aşağıdakı sahələrə xərclənmişdir:

| | |
|---|---|
| 1. Əmək haqlarına | -481.684.000 manat |
| 2. Pensiya fondu | -95.260.000 manat |
| 3. Bank xidməti üçün | -6.318.000 manat |
| 4. Dəftərxana ləvazimatlarının alınmasına | -25.934.000 manat |
| 5. Abunə haqqı | -3.146.000 manat |
| 6. Avadanlıq xərcləri | -47.736.000 manat |
| 7. Tədbirlər üçün | -129.610.000 manat |
| 8. Ezamiyyə xərcləri | -38.608.000 manat |
| 9. İcarə haqqı | -16.735.000 manat |
| 10. Rabitə xərci | -15.101.000 manat |
| 11. Avtonəqliyyat xərci | -7.655.000 manat |
| 12. "Azərbaycan" nəşriyyatı | -8.312.000 manat |
| 13. Reklam şirkətinə | -5.227.000 manat |
| 14. Təsərrüfat xərcləri | -25.760.000 manat |
| 15. Qərargah binalarının təmirinə | -2.974.000 manat |
| 16. Digər xərclər | 1.900.000 manat |
| **Cəmi:** | **911.960.000 manat** |

2001-ci ilin partiya büdcəsinin mədaxili 972.461.000 manat, məxarici 964.735.000 manat olmuşdur.

Mədaxil aşağıdakı mənbələrdən yığılmışdır:

| | |
|---|---|
| 1. Partiya üzvlük haqları | -605.000.000 manat |
| 2. Partiya üzvlük vəsiqələri almaq üçün | -43.230.000 manat |
| 3. Toplanılan ianələr | -195.133.000 manat |
| 4. 2001-ci ilin əvvəlinə 2000-ci ildən qalıq | -129.098.000 manat |



| | |
|---|---|
| **Cəmi:** | **972.461.000 manat** |

Bu məbləğ aşağıdakı sahələrə xərclənmişdir:

| | |
|---|---|
| 1. Əmək haqlarına | -519.510.000 manat |
| 2. Pensiya fonduna | -100.550.000 manat |
| 3. Ezamiyyə xərclərinə | -21.165.000 manat |
| 4. İcarə haqqına | -9.200.000 manat |
| 5. Dəftərxana ləvazimatı almaq üçün | -12.030.000 manat |
| 6. Tədbirlər üçün | -33.285.000 manat |
| 7. Avadanlıq almaq üçün | -30.185.000 manat |
| 8. Bank xidməti üçün | -4.260.000 manat |
| 9. Təsərrüfat xərclərinə | -42.600.000 manat |
| 10. Qərargah binalarının təmiri üçün | -37.300.000 manat |
| 11. Rabitə xərcləri | -154.650.000 manat |
| **Cəmi:** | **-964.735.000 manat olmuşdur** |
| **01.11.2001-ci ilə qalıq** | **-7.726.000 manat olmuşdur.** |

Hesabat dövründə partiya büdcəsinin gəliri büdcə təyinatından artıq yerinə yetirilmişdir. Lakin bu heç də o demək deyildir ki, partiya maliyyə çətinliyini çəkmir. Maliyyə vəsaitinin çatışmazlığı səbəbindən bir sıra rayon, şəhər təşkilatlarında aparatı ştatlı işçilər hesabına tam formalaşdırmaq mümkün olmamışdır. Partiya aparatında ictimai əsaslarla aparılan iş isə tam səmərəli olmur. Rayon (şəhər) təşkilatlarının əksəriyyətində çalışan ştatlı işçilərin əmək haqları 100-150.000 manat təşkil edir ki, bu da respublika üzrə orta aylıq əmək haqqından iki dəfə azdır.

Hesabat dövründə partiya təşkilatlarının maddi -texniki bazası əhəmiyyətli dərəcə yaxşılaşmışdır. Rayonların böyük əksəriy-

yətində partiya təşkilatları müasir tələblərə cavab verən qərargahlara köçmüşlər. Qərargahlar təmir edilmiş, mebel, avadanlıq, texniki vasitələrlə təmin edilmişdir.

Qeyd etmək yerinə düşərdi ki, bir sıra kənd rayonlarının, məsələn, İmişli, Yevlax, Göyçay, Şəki, Lənkəran rayonlarının partiya qərargahları istər arxitektura-tikinti baxımından, istərsə də texniki təchizat baxımından heç də şəhər rayonlarının qərargahlarından geri qalmır. Bir sıra hallarda isə, onları üstələyir.

Hörmətli qurultay nümayəndələri!

I Qurultay partiyada gənclərin və qadınların fəaliyyətinin genişləndirilməsini partiya təşkilatları qarşısında bir vəzifə kimi qoymuşdur. Razılıq hissi ilə demək istərdim ki, partiyanın İcra katibliyi və rayon (şəhər) təşkilatları bu sahədə gərgin, məqsədyönlü işlər görmüşlər. Bunun nəticəsində partiyada gənclərin və qadınların sayı əhəmiyyətli dərəcədə artmış, fəaliyyətləri genişlənmişdir.

I Qurultayda gənclərin partiyada sayı -48.360 nəfər olub, tərkibin -30.3 faizini təşkil edirdisə, II Qurultay ərəfəsində onların sayı -84.926 nəfər olmaqla, I qurultaydakından -36.566 nəfər çoxdur və hazırda partiya üzvlərinin -37.1 faizini təşkil edir. I Qurultayda İlham Əliyevin partiya sədrinin müavini seçilməsi gənclərin bu partiyaya axınına güclü təkan verdi. Azərbaycan gəncləri respublikanın ictimai-siyasi mühitində uzun müddət axtardıqları lideri tapdılar.

Yeri gəlmişkən, bunu deməyi özümə borc bilirəm ki, qurultayqabağı partiya konfranslarında partiya üzvləri İlham Əliyevin partiyada statusunun artırılması təklifi ilə çıxışlar edirdilər. Gənclərin partiyaya cəlb edilməsi işi Binəqədi, Gəncə, Balakən, Yasamal, Nəsimi, Səbael, Nizami rayon təşkilatlarında yaxşı təşkil edilmişdir. Hazırda Binəqədi rayon təşkilatında gənclərin sayı partiya üzvlərinin 56 faizini, Gəncə təşkilatında 51.3 faizini, Balakən təşkilatında 40.8 faizini, Yasamalda 45 faizini, Nəsimidə 46, Səbayeldə 43 və Nizami təşkilatında 47 faizini təşkil edir.

Hesabat dövründə qadınların partiyaya cəlb edilməsi də İcra katibliyinin və rayon təşkilatlarının diqqət mərkəzində olmuşdur.



Partiyada qadınların sayı I Qurultaydakı -46.592 nəfərdən artaraq, II Qurultay ərəfəsində -87.541 nəfər olmuşdur, yəni 41 min nəfər artmışdır.

Hazırda partiyada qadınların sayı - 38.2 faiz təşkil edir.

Gəncə şəhər təşkilatından qadınların sayı partiya üzvlərinin sayının 56 faizini, Balakəndə 52 faizini, Xətaidə 53 faizini, Mingəçevirdə 53.5 faizini, Qaxda 50 faizini, Şəkidə və Abşeronda 48 faizini, Samuxda 50, Qazaxda 43, Suraxanıda 45.4, Əli Bayramlıda 48.2, Ağdamda 49 faizini təşkil edir.

Başqa sözlə desək, qadınlar cəmiyyətdə tutduqları mövqelərini Yeni Azərbaycan Partiyasında da təsdiq edirlər. Azərbaycanda mövcud olan digər siyasi partiyaların hamısının birlikdə istər say, istər faiz hesabı ilə bu qədər qadın üzvü yoxdur. Qadınların partiyamızdakı üzvlüyü və fəaliyyəti eyni zamanda Azərbaycan qadınının bu günkü ictimai-siyasi sabitliyə, dincliyə, övladlarının əmin-amanlığına görə, möhtərəm Prezidentinə, cənab Heydər Əliyevə olan minnətdarlıq hissinin, məhəbbətinin təcəssümüdür.

Bununla belə, qadınların partiyaya qəbulunda Yardımlı (3.9 %), Qobustan (14.3 %), Masallı (16.2 %), İmişli (17.9 %) rayon təşkilatlarının işini qənaətbəxş hesab etmək olmaz.

Hörmətli qurultay iştirakçıları!

Partiya həyatının əsas şərtlərindən biri də partiyadaxili nizam-intizam qaydalarına möhkəm riayət olunmasıdır. Partiyanın rayon təşkilatlarında bu sahədə məqsədyönlü işlər aparılmışdır. Eyni zamanda partiya üzvləri arasında Nizamnamə tələblərini pozanlar da yox deyil.

Keçən dövr ərzində partiya üzvlərindən 831 nəfərə qarşı intizam tədbiri tətbiq edilmiş, 619 nəfərə şifahi xəbərdarlıq edilmiş, 212 nəfər isə, kollektiv tərəfindən məzəmmət edilmişdir. 538 nəfər partiya sıralarından xaric edilmişdir, bunların da böyük əksəriyyəti, partiya həyatından ayrı düşən, uzun müddət partiya ilə əlaqəsini kəsən, respublikadan kənara köçmüş insanlardır.

Sadalanan rəqəmlərin 240 minlik partiya üzvlərinə olan nisbəti partiyada nizam-intizamın normal olmasına dəlalət edir.

Təəssüflər olsun ki, partiya Nizamnaməsinin tələblərini pozanlar arasında təşkilat sədrlərinə də rast gəlmək olur. I Qurultayın

qətnaməsi vəzifəsindən asılı olmayaraq, hər bir partiya üzvünün Nizamnamə tələblərinə ciddi əməl etməsinə nəzarətin gücləndirilməsini ön plana çəkmişdir.

Nərimanov, Beyləqan, Biləsuvar rayon təşkilatlarından gələn siqnallar, şikayət və təkliflər Mərkəzi Nəzarət –Təftiş Komissiyası tərəfindən yoxlanılmış, çoxlu nöqsanlar aşkar edilmiş, yoxlamanın nəticələri İdarə Heyətində müzakirə edilmişdir. İdarə Heyəti həmin təşkilatların sədrlərinin --Heydərov İbrahimin, Əliyev Eyvazın, Seyfiyev Valehin işdə buraxdıqları kobud nöqsanlara görə tutduqları vəzifələrdə qalmalarını məqbul saymamışdır.

Nərimanov rayonunda partiya üzvlərinin sayı 1993-cü ilin sonundakı 5000 nəfərdən 2000-ci ilin fevral ayı üçün 1400 nəfərə enmişdir. Partiya rəhbərliyinin dəyişməsi, partiya həyatının sağlamlaşması, Nizamnamə tələblərinə əməl edilməsi və görülən digər tədbirlər nəticəsində rayon təşkilatında sağlam əhval-ruhiyyə yaradılmış, partiya üzvlərinin sayı qısa müddətdə 5.836 nəfərə çatmışdır.

Beyləqan rayon təşkilatının sabiq sədri Eyvaz Əliyev siyasi sayıqlığını itirmiş, əqidə dönüklüyü nümayiş etdirmiş, nəticədə parlament seçkiləri ərəfəsində müxalif qüvvələrin mövqeyinə yuvarlanmışdır. Rayon təşkilatının konfransı onu partiya rəhbərliyindən uzaqlaşdırdı. Bundan sonra il ərzində rayonda partiya üzvlərinin sayı 563 nəfər artmışdır. Hesab edirəm ki, Eyvaz Əliyev kimi insanlara partiya sıralarında yer olmamalıdır.

Biləsuvar rayon təşkilatının sədri Seyfiyev Valehin partiya etikasına yaraşmayan hərəkətləri, ideya-siyasi səviyyəsinin, həmçinin mədəni səviyyəsinin aşağı olması, partiyaya qəbulda subyektiv mülahizələrini əsas tutması, xüsusilə rayon ziyalılarının partiyaya qəbulunda əngəllər törətməsi haqda şikayətlər, hətta I Qurultaya qədər də partiya rəhbərliyinə daxil olurdu. İcra katibliyinin onunla apardığı söhbətlər və dəfələrlə edilən xəbərdarlıqlar nəticə vermədikdə, partiyanın İdarə Heyəti onun məsələsini müzakirə edərək, rayon təşkilatının sədrliyindən azad edilməsi barədə tövsiyə qəbul etdi. Valeh Seyfiyev təşkilat sədrliyindən xaric edildi.

Bu qərarlar partiyaya qəbulda subyektiv mülahizələri əsas



tutanlara qəti xəbərdarlıq olmalıdır. Yeni Azərbaycan Partiyası Heydər Əliyevin partiyasıdır, Heydər Əliyev ideyalarına sadiq olan şəxslərin partiyaya gəlişinə heç kəs mane ola bilməz.

I Qurultayda struktur dəyişikliklərinin edilməsi, İcra katibliyinin yaradılması partiya işində həqiqi mənada dönüş yaradıb. Rayon təşkilatlarının işinə operativ rəhbərlik təmin edilib, rəhbər işçilərin məsuliyyət hissi, partiyaya üzvlükdə kəmiyyət və keyfiyyət göstəriciləri yüksəlib, üzvlük haqlarının toplanması yaxşılaşıb.

Özünütənqid qaydasında bunu da deməyi vacib bilirəm ki, hesabat dövründə Mərkəzi Nəzarət-Təftiş Komissiyasının işi də nöqsansız olmamışdır. Aparılan yoxlamaların nəticələri barədə mərkəzi orqanlara və partiya üzvlərinə vaxtlı-vaxtında məlumatlar verilməmiş, partiyanın mətbuat orqanlarında maliyyə-təsərrüfat işlərinə nəzarət təmin edilməmiş, nəzarət-təftiş qruplarının işinə nəzarət lazımi səviyyədə olmamışdır. Mərkəzi Nəzarət-Təftiş Komissiyasının yeni seçiləcək heyəti bu nöqsanları, qurultay nümayəndələrinin tənqidi mülahizələrini nəzərə almalı və partiya intizamına əməl edilməsi üçün partiya üzvlərinin məsuliyyətinin güclənməsinə nail olmalıdırlar.

## YENİ AZƏRBAYCAN PARTİYASI İDARƏ HEYƏTİNİN ÜZVÜ, MİLLİ MƏCLİS SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ARİF RƏHİMZADƏNİN ÇIXIŞI

Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm cənab Heydər Əliyev!

Hörmətli qurultay nümayəndələri!

Hörmətli qonaqlar!

Icazə verin, ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə olan Yeni Azərbaycan Partiyasının II qurultayı münasibətilə hamınızı ürəkdən təbrik edim, qurultaya uğurlar arzulayım.

Qurultayın tarixi əhəmiyyət kəsb etməsi zənnimcə, bir sıra amillərlə bağlıdır. Birincisi, Yeni Azərbaycan Partiyası respublikamızda yeganə partiyadır ki, tarixi zərurətdən yaranmışdır. Bildiyiniz kimi, 1991-ci ildə dövlət müstəqilliyimizi qazandıqdan sonra Azərbaycan böyük faciələrlə üzləşmişdi. Səriştəsiz və naşı rəhbərlərin fəaliyyəti nəticəsində dövlətçiliyimizə ağır zərbələr vurulmuşdu. Hakimiyyət uğrunda didişmələr, şəxsi və qrup maraqlarının dövlət mənafelərindən üstün tutulması daxili ictimai-siyasi sabitliyin pozulmasına, qanunsuz silahlı dəstələrin özbaşınalığına gətirib çıxarmışdı. İnsan hüquqlarının tapdanması adi hal almışdı. Uzun illər ərzində yaradılmış iqtisadi potensial amansızcasına talan edilir, əhalinin yaşayış səviyyəsi günbəgün pisləşirdi. Azərbaycanın bir sıra dövlətlərlə, o cümlədən qonşu dövlətlərlə münasibəti korlanmış, respublikamız beynəlxalq aləmdə təklənmişdi.

Cəmiyyət və dövlət həyatının bütün sahələrini bürümüş sistemli böhran nəticəsində Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı rayonları da bir-birinin ardınca işğal edirdilər. Cəmiyyətdə ümidsizlik əhval-ruhiyyəsi hökm sürürdü. Məhz belə bir faciəli vəziyyətdə xalqı təlaşdan çıxarmağa, onun sabaha inamını qaytarmağa qadir olan mütəşəkkil siyasi qüvvənin – Partiyanın yaranması tarixin tələbi idi.

İkincisi, Yeni Azərbaycan Partiyasının təməlində xalqın həqiqi mənafeləri dayanır. Partiyamızın ölkədəki çoxsaylı digər partiyalardan fərqi ondan ibarətdir ki, o bir dəstə adama dolanışıq yeri açmaq, kimlərinsə nüfuzunu şişirtmək, siyasətdən bixəbər olanları cəmiyyətə böyük siyasətçilər kimi sırımaq niyyəti ilə deyil, xalqın sağlam qüvvələrini birləşdirərək, ölkəni ağır vəziyyətdən çıxarmaq məqsədi ilə yaradılmışdır.



Üçüncüsü, Yeni Azərbaycan Partiyası qurultayının tarixi əhəmiyyətini şərtləndirən əsas amillərdən biri ondan ibarətdir ki, partiyaya zəmanəmizin böyük dövlət və siyasi xadimi cənab Heydər Əliyev rəhbərlik edir. Hələ 1991-1992-ci illərdə cəmiyyətdə belə bir fikir formalaşmışdı ki, ölkəni və xalqı xilas etməyə qadir partiyanı yalnız Heydər Əliyev yarada bilər. Bir neçə il ərzində respublikanın o vaxtkı rəhbərləri tərəfindən təqiblərə, böhtanlara, düşmənçilik münasibətinə məruz qalmasına baxmayaraq, Heydər Əliyevin siması xalqının yaddaşına xilaskar və qurucu kimi həkk olunmuşdur.

Hesabat dövrü ərzində Yeni Azərbaycan Partiyası böyük və uğurlu bir inkişaf yolu keçmişdir. Ölkənin ictimai-siyasi həyatında möhkəm mövqe tutan partiyamız iqtisadi dirçəlişin və tərəqqinin davam etdirilməsi, əhalinin rifah halının dönmədən yaxşılaşdırılması, respublikamızda sabitliyin, əmin-amanlığın qorunub saxlanması üçün görülən tədbirlərdə fəal iştirak etmiş, möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən quruculuq işlərinə dəyərli töhfələr vermişdir.

Partiyanın idarə heyətinin qurultaya hesabat məruzəsində ötən dövrdə görülmüş işlər haqqında geniş məlumat verildi. Məruzənin əsas müddəaları ilə tam razılığımı bildirərək, hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının hesabat dövrü ərzində fəaliyyəti müsbət qiymətləndirilməlidir.

Ötən iki il möhtərəm Heydər Əliyevin səkkiz il bundan əvvəl başladığı xilaskarlıq və quruculuq missiyasının mühüm bir mərhələsini təşkil etmişdir. Iqtisadi, siyasi, hüquq islahatlarının aparılmasında, demokratikləşdirmə proseslərində, insan hüquqlarının və azadlıqlarının təmin edilməsində, əhalinin güzəranının yaxşılaşdırılmasında sanballı addımlar atılmışdır. Azərbaycanın dünya birliyinə inteqrasiyasında böyük nailiyyətlər qazanılmışdır. Müstəqil dövlətimiz Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatın tam hüquqlu üzvü

olmuşdur. Partiyanın idarə heyətinin üzvü və Parlament sədrinin birinci müavini kimi istərdim ki, ölkəmizin qanunvericilik orqanında Yeni Azərbaycan Partiyası üzvlərinin fəaliyyətindən bir neçə kəlmə danışım.

Partiyamızın bütün məqsəd və məramının Azərbaycan xalqının mənafelərinin qorunmasına, respublikamızın ardıcıl inkişafına yönəldilməsinin nəticəsidir ki, 2000-ci ildə də 1995-ci ildəki kimi Parlament seçkilərində Yeni Azərbaycan Partiyasının üzvləri böyük uğurlar qazanmışlar. Partiyamızın nümayəndələri Parlamentdə yerlərin əksəriyyətini əldə etmişlər.

Bu gün Yeni Azərbaycan Partiyası Milli Məclisdə 73 deputatla təmsil olunur. Ötən dövrdə Parlament ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiyası, bu məqsədlə cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsi üçün hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi vəzifəsini layiqincə yerinə yetirmişdir. Qanunvericilik fəaliyyətində qazanılmış nailiyyətlərdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların həlledici rolu olmuşdur. Qanun yaradıcılığı ilə yanaşı, parlament xalqımızın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasına öz töhfəsini vermişdir.

Deputatlarımız erməni şovinizminə qarşı dünya miqyasında aparılan mübarizədə böyük xidmətlər göstərmişlər. Mən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası sədrinin müavini İlham Əliyevin rolunu xüsusi qeyd etmək istəyirəm. Siyasət, iqtisadiyyat və beynəlxalq münasibətlər sahəsində dərin biliklərə, gözəl natiqlik və təşkilatçılıq qabiliyyətinə malik olan İlham Əliyev dünya ictimaiyyəti arasında və Azərbaycan xalqının şüurunda yeni nəslin aparıcı siyasətçisi kimi getdikcə daha möhkəm yer tutur. Onun rəhbərliyi ilə Avropa Şurasının Parlament Assambleyasında daimi nümayəndə heyətimizin fəaliyyəti geniş vüsət almışdır.

Nümayəndə heyətimiz Azərbaycan həqiqətlərinin dünya birliyi tərəfindən dərk olunmasında, Ermənistanın terrorizmi müdafiə edən təcavüzkar dövlət kimi ifşa edilməsində mühüm işlər görür. Ölkəmizin taleyüklü məsələlərində Avropa ictimaiyyətinin dəstəyini qazanmağa nail olur.



Yeni Azərbaycan Partiyası hesabat dövrü ərzində böyük təşkilati, siyasi iş aparmışdır. Partiyanın strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, yerli özəklərin gücləndirilməsi respublikamızın ictimai-siyasi həyatında cərəyan edən proseslərə, iqtisadi və sosial inkişafa real təkan vermiş, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi ilə bağlı mürəkkəb vəzifələrin həllinə partiya üzvlərinin və bütövlükdə xalqımızın səfərbər olunmasına kömək göstərmişdir.

Son iki il ərzində Yeni Azərbaycan Partiyasının sıraları xeyli genişlənmişdir. Azərbaycan cəmiyyətinin bütün təbəqələrini əhatə edən partiyamızın üzvlərinin sayı 70 min nəfər artaraq 230 min nəfərə çatmışdır. Bu gün Yeni Azərbaycan Partiyasında alimlər, ziyalılar ilə birlikdə maddi istehsal sahəsində çalışanlar, o cümlədən iş adamları böyük yer tuturlar. Partiya üzvlərimizin 38 faizdən çoxunu qadınlar təşkil edir. Fərəhli haldır ki, partiyada xalqımızın bütün nəsilləri təmsil olunmuşdur. Partiya üzvləri arasında gənclərin xüsusi çəkisi günbəgün artır.

Yeni Azərbaycan Partiyasının fəaliyyətində varislik ənənələri möhkəm yer tutur. Partiyanın yaradıcıları ilə gənc partiya üzvlərinin fəaliyyət birliyi təmin olunur. Qazanılmış təcrübədən səmərəli istifadə edilir. Qətiyyətlə demək olar ki, Yeni Azərbaycan Partiyası siyasətçilərin yeni nəslinin yetişdirilməsi məktəbinə çevrilmişdir. Partiya sıralarında onlarca perspektivli gənc siyasətçi püxtələşmişdir. Heç şübhə yoxdur ki, onlar gələcəkdə dövlətin və iqtisadiyyatın idarə edilməsi sistemində layiqincə təmsil olunacaqlar.

Hesabat dövrü ərzində çox işlər görülmüşdür. Azərbaycan gələcəyə inamla baxan bir dövlətə çevrilmişdir. Bir sıra səbəblər üzündən biz görülmüş işləri tam qiymətləndirə bilmirik. Bunun üçün müəyyən vaxt lazımdır. Amma bu gün tam yəqinliklə deməliyik ki, Azərbaycanda insan hüquqlarını və azadlıqlarını təmin edən hüquqi, demokratik, bazar iqtisadiyyatı yolu ilə gedən dövlət qurulmuşdur. Dünya tarixində nadir haldır ki, bütün bu demokratikləşdirmə prosesi və əsaslı islahatlar qonşu ölkənin təcavüzü şəraitində, torpaqlarımızın böyük bir hissəsi Ermənistanın işğal altında saxladığı, soydaşlarımızın qaçqın düşdüyü vəziyyətdə həyata keçirilmişdir. Biz fəxr edirik ki,

heç də asanlıqla başa gəlməyən bu proseslərin hərəkətverici qüvvəsiyik. Fəxr edirik ki, müasir dövrümüzün görkəmli dövlət xadiminin silahdaşları və onun rəhbərlik etdiyi partiyanın üzvləriyik.

Biz əminik ki, cənab Heydər Əliyevin başçılığı ilə Yeni Azərbaycan Partiyası ölkə qarşısında dayanan vəzifələri uğurla yerinə yetirəcəkdir. Respublikamızın bütün problemləri həll ediləcəkdir. Əminik ki, Azərbaycanın üçrəngli bayrağı Xankəndində ucalacaqdır.

Diqqətinizə görə sağ olun.



## YAP SİYASİ ŞURASININ ÜZVÜ, PARTİYANIN SUMQAYIT ŞƏHƏR TƏŞKİLATININ SƏDRİ, MİLLİ MƏCLİSİN DEPUTATI XIDIR ALOVLUNUN ÇIXIŞI

Zati-aliləri möhtərəm Prezident!

Hörmətli sədr, hörmətli qurultay nümayəndələri!

Bu gün II Qurultayını keçirdiyimiz Yeni Azərbaycan Partiyası on illik müstəqilliyimizin 9 ilinin yol yoldaşıdır. Xalqın, millətin istəyini təmsil edən və ən yeni tariximizə 91-lərin müraciəti ilə daxil olan belə bir partiyanın yaradılmasına məhz Heydər Əliyev kimi tarixi bir şəxsiyyətin rəhbərlik etməyə razılıq verməsi çox mühüm bir hadisəyə çevrildi. Bununla da Azərbaycanın qurtuluş yolunun əsası qoyuldu. Ona görə də partiyamızın 9 illik tarixini tənəzzüldən xilas olub tərəqqiyə başlayan dövlətimizin tarixindən ayrılıqda təsəvvür etmək olmaz.

Bu müddət ərzində partiyamız hələ tam formalaşmayan, ilkin təşkilatlanma dövründən daha mütəşəkkil şəkildə formalaşan yeni təşkilatlanma dövrünə qədəm qoydu. Möhtərəm Heydər Əliyevin partiyamızın I Qurultayında qarşıya qoyduğu tələblər, verdiyi göstəriş və tövsiyələr partiyamızın daha səmərəli işləməsinə, xüsusən də təşkilatlanmasına mühüm bir təkan verdi. Qeyd edək ki, partiyamızın I Qurultayında qəbul edilmiş qərarlar böyük müvəffəqiyyətlə həyata keçirilmişdir. Bu sahədə partiyamızın Siyasi Şurası, İdarə heyəti, İcra katibliyi müvafiq göstərişləri yerli təşkilatlara vaxtında çatdırmaq və icrasına nəzarət etməklə onların fəaliyyətlərini canlandıra bilmişdir.

Mən partiyamızın I Qurultayında baş verən uğurlu təşkilatlanma haqqında danışarkən başqa mühüm bir məqamı, Heydər Əliyevin siyasət sobasında polad kimi bişib-bərkiyən, xeyirxahlığı, təşəbbüskarlığı, prinsipiallığı, praqmatikliyi ilə hamıda özünə rəğbət qazandıran İlham Əliyevin partiyanın sədr müavini seçilməsi amilini xüsusi olaraq qeyd etmək istəyirəm.

İlham Əliyevin istər Azərbaycanın ictimai-siyasi rəyində, istərsə də beynəlxalq aləmdə reytinqi gündən-günə yüksəlməkdədir. Bütün bunlar onun həyata keçirdiyi tədbirlərlə əlaqədardır. Hörmətli İlham Əliyevin Azərbaycan üçün, xalqımız üçün, partiyamız üçün gördüyü

bir neçə işləri hörmətli qurultay nümayəndələrinin bir daha nəzərinə çatdırmaq istəyirəm.

Bunlar ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən uğurlu neft strategiyasını həyata keçirməkdən, erməni təcavüzünü beynəlxalq məclislərdə dünya ictimaiyyətinə çatdırmaqdan, Azərbaycanda elmin, mədəniyyətin, idmanın inkişafına göstərdiyi böyük qayğıdan ibarətdir. Partiyamızın ən böyük təşkilatlarından biri olan Sumqayıt təşkilatı hörmətli İlham Əliyevin parlament seçkiləri zamanı açıq havada yüz minə yaxın seçicilərlə keçirdiyi görüşün hələ də təsiri altındadır. Milli məclisə seçkilərdə qələbə çalmağımızda gənc və enerjili bir partiya xadimi olan İlham Əliyevin çox böyük xidmətləri olmuşdur.

Xalq arasında belə bir fikir formalaşıb ki, İlham Əliyev hansı sahəyə əl uzadırsa, orada mütləq qələbə qazanılır. Elə buna görə də İlham Əliyev uğurlu insan, uğurlu şəxsiyyət, uğurlu siyasətçi adını qazanmışdır. İnanıram ki, bu uğurluluq Azərbaycana yeni-yeni uğurlar gətirəcəkdir.

Partiyamızın I Qurultayından sonrakı fəaliyyətini qənaətbəxş hesab etməklə mən böyük bir təşkilatın sədri kimi iki təklif vermək istəyirəm. Birincisi, təklif edirəm ki, siyasi şuranın və idarə heyətinin daha çevik fəaliyyət göstərməsi üçün onların tərkibi qismən azaldılsın. İkinci təklifim isə budur ki, partiya rəhbərliyində Gəncə, Naxçıvan, Sumqayıt nümayəndələri istənilən səviyyədə təmsil olunsunlar.

Hörmətli siyasi həmfikirlər! Hesabat dövründə partiyanın rəhbər orqanları nümayəndələrinin iştirakı ilə Sumqayıtda keçirilən çoxsaylı tədbirləri sadalamaqla vaxtınızı almaq istəmirəm. Respublikamızın ictimai-siyasi həyatında ardıcıl iştirak edən, Heydər Əliyev ideyalarının fəal təbliğatçısı olan Partiyamız haqqında onu demək istəyirəm ki, təşkilatımızın on minə qədər üzvü vardır ki, bunlardan da 7 min 500-nəfərə üzvlük vəsiqələri verilmişdir. Təşkilatın bütün sahələrində sabit iş rejimi, üzvlük haqları hesabına toplanan maliyyə bazası, ştatlı işçiləri və qərargahı vardır. Təşkilatımız şəhərimizin problemlərini həll etmək üçün icra strukturu orqanları və bələdiyyə qurumları ilə qarşılıqlı əməkdaşlıq şəraitində işləyir.

Yeri gəlmişkən hörmətli sədrimizin bilməsi üçün deyim ki, sağlam mövqeyimizə, işgüzarlığımıza, partiyamıza, onun sədrinə təmənnasız



bağlılığımıza və sadiqliyimizə qısqanclıqla yanaşan Sumqayıtın və onlarla əlbir olan yuxarı dairələrin bəzi rəhbər işçiləri maddi maraqlarını və şəxsi mənafelərini qorumaq xatirinə 1995-ci ildən başlayaraq mənim və rəhbərlik etdiyim təşkilat haqqında yalan məlumatlar və böhtanlar uydurmaqla bizi sarsıtmağa səy göstərdilər. Lakin onlar təşkilatımıza və şəhərimizə xeyli ziyan vursalar da, sağlam mövqeyimizi qıra bilmədilər.

Hörmətli siyasi həmfikirlər, partiyamızın II Qurultayının müstəqilliyimizin bərpa edilməsinin on illik yubileyi ərəfəsində keçirilməsi əlamətdar hadisədir. Biz hər bir ili yüz illərə bərabər olan on il ərzində məhvolma ilə xilasolma arasında təhlükəli bir dövrün ağır sınaqlarından çıxdıq. Tariximizin bu on ili ərzində millətimiz satqınları satqın, xilaskarları xilaskar kimi tanıdı. Hazırda iqtidarı təmsil edən bir partiya kimi biz sivil mübarizə metodlarından uzaq olan, iftira və böhtanları özlərinə mübarizə metodu kimi seçən ziyankar və düşmən mövqeli müxalifətlə üzləşmişik. Bu gün müxalifət adı altında gizlənənlər əslində millətə, xalqa xəyanət yolunu tutanlardır.

Azərbaycanın qazandığı çoxsaylı uğurları kor olub görmək istəməyən xəbis xislətli müxalifət başa düşmək istəmir ki, iqtisadi inkişaf, demokratiya və hüquqi təsisatlar üzərində qurulan, gündən-günə irəliyə doğru yeni addımlar atan ölkəmizin bütün sahələrdə göstəriciləri qarşıdan gələn 2-3 il ərzində indikindən ən azı 2 dəfə çox olacaq və bunlar əhalimizin bütün təbəqələrinin güzəranının daha da yaxşılaşmasını təmin edəcəkdir.

Özünü müxalifət adlandıranlar nəyin bahasına olursa-olsun, bütün vasitələrdən istifadə edərək bizim hakimiyyəti, xalqın seçdiyi və müdafiə etdiyi Heydər Əliyev siyasətini gözdən salmağa cəhd göstərirlər. Bu cəhdi göstərənlər kimdir? 20 Yanvar qırğınında iştirak edib Moskvaya qaçaraq Lefortovada bizə qarşı təlimatlandırılmış Etibar Məmmədovmu? Bir deyil, bir neçə ölkədən göstəriş və qrant alıb respublikamızın əleyhinə işləyən İsa Qəmbərovmu? Azərbaycanlıların qanını içən, erməni neofaşisti Qdılyanlarla əlbir olub pambıq əməliyyatı adı ilə yüzlərlə zəhmətkeşlərimizi güdaza verərək həbs etdirmiş İlyas İsmayılovmu?

Bu gün də əli ermənilərin ətəyindən üzülməyən, şəxsi mənafeyi naminə millətimizi düşmənlərə satan, dar ayaqda Moskvaya qaçıb

əleyhdarlarımızın qoltuğunda gizlənən Ayaz Mütəllibovmu? Oğurladığı haram pulların hesabına harınlaşan, Amerikadan Bakıdakı düşük mənəviyyatlı əlaltılarına qəpik-quruş göndərib oyuncaq mitinqlər keçirtdirən Rəsul Quliyevmi? Çoxdur beləlari. Onların heç birinin Azərbaycan milləti qarşısında çıxış etməyə, söz deməyə, danışmağa haqqı yoxdur. Onlar bilməlidirlər ki, bünövrəsi Heydər Əliyev tərəfindən qoyulan, gündən-günə tərəqqi edən yeni Azərbaycanın – Heydər Əliyev Azərbaycanının başladığı inkişaf yolunun qarşısını heç cür kəsə bilməzlər.

Millət o vaxt millət, vətən o vaxt vətən olur ki, o vaxtında düşmənini düşmən, dostunu dost kimi tanıyır. Azərbaycan xalqının tanıdığı bir lider, bir xilaskar var, o da Heydər Əliyevdir.

Heydər Əliyev vətəninin, millətinin bütün təhlükələrinə sinə gərən, ağrısı ilə ağrıyan, sevinci ilə sevinən Azərbaycan prometeyidir. Yaşadığımız bu on il ibrət məktəbi, xilaskarlıq məktəbi kimi min illərlə yaşayacaq, öyrəniləcək və əbədiyyətə gedən əbədi yolumuzda bu məktəbin yaradanı da, yaşadanı da tariximizin ən böyük şəxsiyyəti Heydər Əliyev olacaqdır.

Tariximizin sonsuzluğa üz tutan zaman adlı dəryasında tufanlara, qasırğalara sinə gərən Heydər Əliyev adlı uca bir zirvəmiz, uca bir dağımız dayanacaq və böyük Sabirimizin böyük bir misrası həmişə yada düşəcək:

*Bənzərəm bir qocaman dağa ki, dəryada durar!*
*Eşq olsun dəryada duran o möhtəşəm dağa- Heydər Əliyevə!*

Sağ olun.



## YENİ AZƏRBAYCAN PARTİYASININ ÜZVÜ, NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN TƏLƏBƏSİ SÜSƏN ŞİRİNOVANIN ÇIXIŞI

Möhtərəm cənab Prezidentimiz!

Çox hörmətli sədr!

İcazə verin sizi Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının 23 min nəfərlik üzvü adından, YAP-ın 8 min nəfərdən artıq üzvünü özündə birləşdirən Heydər Əliyev adına Naxçıvan Muxtar Respublikası Gənclər Birliyi adından səmimi qəlbdən salamlayım, dərin məhəbbətimizi və sevgimizi sizə çatdırım.

Bildirirəm ki, bu tarixi günlərdə Naxçıvan Muxtar Respublikasının bütün əhalisi və gəncləri sizinlədir.

Əziz rəhbərimiz, sizin yolunuza və sizin varislik irsinizə daim sadiq qalacağımıza and içən biz gənclər Yeni Azərbaycan Partiyasında mətinləşmə yolu keçirik. Rəhbərimizin və partiyamızın keçdiyi mübarizə yolu bizim üçün bir örnəkdir. Bu böyük yolun yaranması tarixi- Yeni Azərbaycan Partiyasının yaranması 9 il bundan əvvələ, 1992-ci il noyabrın 22-nə təsadüf edir. Məhz həmin gün Naxçıvan Muxtar Respublikasında Yeni Azərbaycan Partiyasının təməli qoyuldu.

Qurultayımızın həmin tarixi gündə keçirilməsi böyük rəmzi məna ifadə edir. Bu bir daha təsdiq edir ki, partiyamız öz tarixi irsinə sadiqdir. Öz rəhbərinə və partiyamızın mübarizə yoluna sadiqdir.

Biz dünən olduğu kimi bu gün də, gələcəkdə də dövlət quruculuğunun çətin yollarında öz əvəzedilməz liderimiz ilə birlikdə addımlayacaq, onun zəngin dövlətçilik təcrübəsindən xalqımızın ümummilli mənafeyi naminə faydalanmağa çalışacağıq.

Hörmətli qurultay nümayəndələri!

Tarixi proseslər o vaxt hərəkətverici qüvvəyə çevrilir ki, ondan düzgün nəticə çıxarılsın. Səriştəsiz rəhbərlərin ambisiyası ucbatından zaman-zaman dörd bir tərəfdən didilib dağılmağa, parçalanmağa məruz qoyulan anamız Azərbaycanımızı 1990-1993-cü illərin dağılma proseslərində siyasi səhnədən silinmək təhlükəsindən möhtərəm Heydər Əliyev xilas etdi.

Belə bir vaxtda xalqın tələbi ilə möhtərəm Heydər Əliyevin Naxçıvanda, sonra isə bütövlükdə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ölkəmizi yaşatdı. Möhtərəm Heydər Əliyev xalqımıza müstəqil dövlət bəxş etdi. Bərpa olunmasının on illiyini ötən ay qeyd etdiyimiz gənc dövlətimizin möhkəm təməl üzərində inkişaf etməsi beynəlxalq birlik tərəfindən qəbul və etiraf edilib. Bunun əyani sübutu Azərbaycan bayrağının Avropa Şurasından tutmuş bütün nüfuzlu beynəlxalq təşkilatlarin mərkəzi qərargahları üzərində dalğalanmasıdır.

Möhtərəm Heydər Əliyev azərbaycançılığı milli ideologiya kimi özümüzə qaytardı. Bunun əyani ifadəsi isə noyabr ayının 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı oldu. Bu, ölkəmizin tarixində bütövləşməyə, birləşməyə atılan ilk və ən böyük addım kimi qalacaqdır.

Möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqımıza geniş qüvvəyə və sosial bazaya, ölkəmizin siyasi mühitində özünəməxsus rola və potensiala malik olan bir partiyanı- Yeni Azərbaycan Partiyasını bəxş etdi. YAP-ın təsis olunması ölkəmizin siyasi tarixində ən mühüm hadisə kimi yaşayacaqdır.

Siyasi təşkilat kimi fəaliyyət göstərdiyi bütün dövrlərdə Heydər Əliyev partiyası dövlətçiliyimizə və tarixi maraqlarımıza sadiqliyini dəfələrlə sübut etmişdir. Bu partiyanın gücü və qüdrəti onun möhtərəm sədri ilə birlikdə, xalqla bağlı olmasında, ümummilli mənafeyə xidmət etməsindədir.

Partiyamızın yaranmasından ötən 9 il ərzində Azərbaycan xalqı tarixi haqqı olan dövlət müstəqilliyinə qovuşmuş, hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması sahəsində mühüm tədbirlər görmüş, demokratik seçkilər keçirmiş, ölkənin əsas qanunu olan Konstitusiya qəbul olunmuş, dünya ölkələri sırasında respublikamız özünün layiqli yerini tutmuşdur.

Siyasi mübarizədə gənclərin potensialının düzgün məcraya yönəldilməsinin mühüm əhəmiyyəti var. 1995-ci ildə yaradılan Yeni Azərbaycan Partiyası Gənclər Birliyi gənclərlə iş sahəsində əvvəllər yaranmış boşluğu aradan qaldıra bilmişdir. Partiyanın gənclərlə bağlı siyasətinin həyata keçirilməsində bu təşkilatın xidmətləri çoxdur.



Hazırda Muxtar Respublikada Yeni Azərbaycan Partiyası üzvlərinin 8 min nəfərini və ya 35 faizini gənclər təşkil edir.

Yeni Azərbaycan Partiyasının boy artımını göstərən bu rəqəmlər belə deməyə əsas verir ki, partiyamız ideya-siyasi cəhətdən mətinləşərək püxtələşmiş, ictimai-siyasi mühitdə öncül mövqeyə və güclü sosial bazaya malik olmuşdur.

Möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqımıza əmin-amanlıq gətirdi. Anarxiyaya son qoyuldu. Sabit şəraitdə iqtisadi inkişafın, quruculuğun əsası qoyuldu. 1988-ci ildən siyasət meydanına çıxan, lakin sonrakı dövrlərdə taleyin ümidinə buraxılan Azərbaycan gəncliyi özünə qayıtdı. Buna qədər gedən dağıdıcılıq prosesi, özbaşınalıq gənclərə də mənfi təsir göstərmiş, onların bir qismində məsuliyyətsizlik, bir qismində isə ümidsizlik doğurmuşdu. Bu ziddiyyətlər, içtimai proseslərin təbii axarına mane olan amillər bir-iki ilin içində yaranmamışdı. Azərbaycanda hakimiyyəti mənimsəyənlər, problemləri vaxtında həll etməyi bacarmayanlar dövlət əhəmiyyətli bir çox məsələlərdə olduğu kimi gənclərlə işdə də ciddi nöqsanlara yol vermiş, bu vacib məsələni tamamilə başlı-başına buraxmışdılar.

Xalqımızın haqlı olaraq özünün xilaskarı adlandırdığı möhtərəm Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra yığılıb qalmış problemlərin çoxluğuna baxmayaraq, gənclərlə işə xüsusi diqqət yetirmiş, Azərbaycan gəncliyini hifz edərək qorumuşdur.

Bu gün Azərbaycan gəncliyi öz həqiqi yolunu tapıb: bu, haqq-ədalətdən, xalqa xidmətdən keçən Heydər Əliyev yoludur.

Möhtərəm Prezidentimizin fərmanı ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1997-ci il 1 fevral tarixli sərəncamı ilə hər il fevral ayının 2-də Azərbaycanda Gənclər gününün qeyd olunması biz gənclərə Prezidentimizin diqqət və qayğısının bariz nümunəsidir.

Gənclərin təşkilatlanmasına təsir göstərən mühüm amillərdən biri də hörmətli İlham Əliyevin gənclərin həqiqi lideri funksiyasını öz üzərinə götürməsi oldu. Ilham Əliyevin partiyamızın gənclərlə iş üzrə sədr müavini seçilməsindən- partiyanın 1 qurultayından ötən dövr ərzində Yeni Azərbaycan Partiyasının Muxtar Respublika təşkilatında

boy artımı təkcə gənclərin hesabına 2 dəfə artmışdır.

Təmsil etdiyim Naxçıvan Dövlət Universitetində Partiyanın birinci qurultayı ərəfəsində partiya üzvlərinin sayı 700-ə yaxın olmuşdursa, bu gün onların sayı 1500-dən artıqdır. Partiya üzvlərinin 71,8 faizini gənclər təşkil edir. Universitetimizin bütün kollektivi və gənclər möhtərəm Prezidentimizin fəaliyyətini ürəkdən dəstəkləyir və qətiyyətlə müdafiə edir.

Hörmətli İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti kimi səmərəli fəaliyyəti idman termini ilə deyilərsə, Azərbaycan gəncliyinə ikinci nəfəs vermişdir. Onu da qeyd etmək istərdim ki, İlham Əliyevin böyük qayğışı nəticəsində ölkəmizin bir sıra böyük şəhərlərində olduğu kimi Naxçıvanda da möhtəşəm və müasir tələblərə cavab verən olimpiya idman kompleksi inşa edilir. Biz bunu Muxtar Respublikada idmanın inkişafına layiqli töhfə kimi yüksək qiymətləndirir və İlham Əliyevə öz dərin təşəkkürümüzü bildiririk.

Hörmətli qurultay nümayəndələri!

Bu günlər bütün ölkəmiz partiyamızın ali məclisinin təsiri altındadır. Bu təsadüfi deyil. Partiyamızın hər bir forumu sırf partiya işi olmaqdan kənara çıxır, siyasi tariximizdə ən ciddi maraq və müzakirə doğuran ümumxalq diqqətinə səbəb olan siyasi hadisə kimi yadda qalır. Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi mühitində ən mühüm birləşdirici və hərəkətverici qüvvədir.

Adını müxalifət qoyanlar bu möhtərəm məclisin səviyyəsində olmasalar da, onların bir fikrinə münasibət bildirmək istəyirəm: bu gün müxalifət düşərgəsindəki siyasi qruplaşmalar guya öz aralarında birləşmək istəyirlər. Lakin riyaziyyatdan da bəllidir ki, sıfırın yanına sıfır qoyanda heç bir nəticə vermir.

Yeni Azərbaycan Partiyasının isə lideri, vahid rəhbəri var. Vahidin yanındakı sıfırlar isə 10 minlər, 100 minlər deməkdir.

Bir də demək istəyirəm ki, Azərbaycanımızın, partiyamızın və xalqımızın əvəzolunmaz lideri möhtərəm Heydər Əliyevin siyasi məktəbinin layiqli davamçısı var. Bu müqəddəs varlıqları daim yüksəkliklərə qaldıran iki əzəmətli qanad var. Biz müdrik ağsaqqalımız Heydər Əliyevi və onun davamçısı İlham Əliyevi vətənimizin, xalqımızın qoşa qanadı kimi görür və qəbul edirik.



Heydərin davamçısı millətə mayak oğul,
Sabahın sükançısı Vətənə dayaq oğul.
Atasının yolunda həmişə oyaq oğul.
Əhsən belə oğula, el yükünü daşıyır.
İndi Azərbaycanda iki Heydər yaşayır.

Okeanın o tayından gəlir İlhamın səsi,
Atası tək sevinir dilində sülh kəlməsi,
Zəfərləri mat qoyur eşidən, bilən kəsi.
Atasıyla bərabər el yükünü daşıyır,
İndi Azərbaycanda iki Heydər yaşayır.

Salmasın bu dövlətə heç kəs söz ayrılığı,
Heydər Əliyev kimi gözəl rəhbərimiz var.
Oğul ataya varis, verim göz aydınlığı,
İndi Azərbaycanda iki Heydərimiz var!

Diqqətinizə görə çox sağ olun.

## YAP İDARƏ HEYƏTİNİN ÜZVÜ, PARTİYANIN SƏBAYIL RAYON TƏŞKİLATININ SƏDRİ, MİLLİ MƏCLİSİN REGİONAL MƏSƏLƏLƏR DAİMİ KOMİSSİYASININ SƏDRİ ZAHİD QARALOVUN

## Ç I X I Ş I

Partiyamızın çox hörmətli sədri!

Azərbaycanın əziz Prezidenti!

Möhtərəm Qurultay nümayəndələri!

Doqquz il əvvəl Azərbaycanın bütün bölgələrindən olan 500 nəfərin Naxçıvan şəhərində Sizin rəhbərliyinizlə təsis etdiyi partiyanın bu gün hakim partiya kimi özünün II əzəmətli Qurultayına toplanmasından təkcə onun 230 minlik üzvü deyil, eyni zamanda bütün ölkə əhalisi, xaricdə yaşayan soydaşlarımız qürur hissi keçirir. Bunun səbəbi partiyamızın sədri, müdrik Prezidentimiz Heydər Əliyevin formalaşdırdığı sağlam siyasət əsasında xalqımızın şüurunda, iqtisadi-siyasi, sosial-mədəni həyatında baş verən köklü dəyişikliklər, yeni cəmiyyət quruculuğunun uğurlarıdır.

Partiyamızın Naxçıvan təsis konfransının iştirakçıları yaxşı xatırlayırlar ki, möhtərəm sədrimiz doqquz il əvvəl istəklərini belə ifadə etmişdir:

Xoş niyyət, sağlam istək və arzularla yaranmış Yeni Azərbaycan Partiyası özünün bütün fəaliyyətini respublikamızın suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğuna, sağlam mənəviyyat, təmiz əxlaq uğrunda mübarizəyə yönəltməlidir. Xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə edilməlidir. O cümlədən Azərbaycanın zəngin təbii sərvətləri xalqın xidmətinə verilməlidir. Azərbaycan qloballaşan dünyaya inteqrasiya olunmalıdır.

Bu istəklərin indi real işə çevrilməsi partiyamızın proqramı ilə əməli fəaliyyətinin birliyinin sübutudur.

Xalqının, Vətəninin firavanlığını həyat amalına çevirmiş bir şəxsiyyətin ali məramını əməli işə çevirməsinə Ulu Tanrı imkan yaratdı: xalqın arzusu, təkidi ilə yenidən dövlət başçısı seçilmiş Heydər Əliyev qara qüvvələrin bütün maneələrini aşaraq, Azərbaycanı fəlakətlərdən keçirib dünya birliklərinin nüfuzlu üzvlüyünə çatdırdı.



Qurultaya hesabat məruzəsində əsas uğurlarımız geniş şərh olunduğundan mən yalnız iki faktın üzərində dayanmaq istərdim.

Birincisi, Yeni Azərbaycan Partiyasının nümunəsində ölkəmizdə yeni, mütərəqqi Siyasi Mədəniyyət İnstitutu yarandı. Bu, çoxpartiyalılıq şəraitində bütün siyasi qurumlara örnək oldu.

İkincisi, Partiyamızın sədr müavini İlham Əliyevin nümunəsində, şəxsiyyətində dərin mədəniyyətə, sağlam siyasi mətinliyə, təmiz əxlaqa, saf mənəviyyata sahib olan, xalqına, vətəninə sədaqətlə qulluq edən böyük gənclər ordusu formalaşmışdır. Heydər Əliyevin müdriklik məktəbinin yetişdirməsi olan, milli mənafeyi hər şeydən üstün tutan, yüksək milli mənlik şüuru ilə seçilən belə gəncləri qorumaq, onlara daim qayğı göstərmək partiyamızın müqəddəs borcu sayılmalıdır. Çünki Heydər Əliyevin quruculuq, yaradıcılıq təcrübəsini, onun əvəzsiz elmi irsini gələcək yüzilliklərə aparan bu gənclər olacaqlar.

Mənim dördüncü dəfə sədr seçilməyimə şərait yaradan Səbayıl rayonunda YAP-çıların sayının ilk yarandığı vaxtdakı 650 nəfərdən bu gün 11 minə çatması, bunun da 48 faizinin 18-35 yaş arasındakı gənclərdən ibarət olması, partiya qarşısında məsuliyyətimizi qat-qat artırmışdır. Yaşlı, orta yaşlı və gənclər arasındakı qarşılıqlı münasibətləri hörmət, yardım, qayğı əsasında qurmağımız partiyanın rəhbər orqanlarının təşkili zamanı həvəs və bacarıqlarla yanaşı, yaş nisbətinin də nəzərə alınması rayon təşkilatının ideya-siyasi və təşkilati işinin səmərəsini artırmışdır.

Təşkilatımızda partiya üzvlərinin 44 faizini qadınlar təşkil edir.

İndi rayonumuzda üzvlərinin sayı mini keçmiş ilk təşkilatlar var. Bunların idarə olunması işi xeyli mürəkkəbləşdiyindən onların statusunun artırılması məsələsinə baxmaq zəruriyyəti yaranmışdır.

**Bütövlükdə partiyanın, xüsusilə də gənclərin qarşısında böyük vəzifələr durur. Gənclərimiz ölkəmizdə aparılan dərin islahatların, quruculuq işlərinin önündə getməlidirlər. Onlar bu şərəfə o zaman tam nail ola biləcəklər ki, təcrübəli dövlət qurucusu, demokratik islahatların müəllifi olan, özünün şəxsi nümunəsi ilə xalqa örnək olan partiyamızın əbədi rəhbəri, Azərbaycanın sevimli Prezidenti Heydər Əliyev məktəbini ləyaqətlə keçsinlər. Onun elmi irsini, zəngin təcrübəsini dərindən öyrənsinlər,**

**Heydər Əliyev ideyalarına daim sadiq olsunlar. Xalqına, Vətəninə, insanlığa Heydər Əliyev kimi xidmət göstərmək bacarığına yiyələnsinlər.**

Minlərlə gənc arasında aparılan söhbətlər, birgə işlər belə ümidin tamam doğrulacağına zəmanət verir. Bu, bizim ümidimizin və gələcəyimizin əsasını təşkil edir.

Yeri gəlmişkən qeyd edim ki, özünü müxalifət adlandıran və müəyyən gəncləri də başına toplamağa cəhd göstərən, pozuculuqla məşğul olan bir qrup insanlar daha güclü insanlardan nümunə götürmək əvəzinə pozuculuq işlərini yenə də davam etdirirlər. "Müsavat", ADP və bu kimi "cəbhələr" və digər partiyalar, müəyyən qurumlar – məndən əvvəlki çıxışlarda da deyildiyi kimi – partiya adı ilə cəmiyyətdə pozuculuq işləri aparmağa çalışırlar. Ona görə də bizim Yeni Azərbaycan Partiyası məhz bir tərəfdən quruculuq işlərini həyata keçirməklə yanaşı, o biri tərəfdən də belə insanları daha düzgün müstəviyə gətirmək üçün geniş iş aparmalıdır.

Partiyamızın I Qurultayından keçən iki illik fəaliyyətini qənaətbəxş sayıram.

*Bu günün və gələcəyin ən mütəşəkkil, ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası onun əvəzolunmaz lideri, ömrünü xalqının səadətinə həsr etmiş Heydər Əlirza oğlu Əliyev daim var olsun!*

Diqqətinizə görə təşəkkür edirəm.



## YENİ AZƏRBAYCAN PARTİYASI SƏDRİNİN MÜAVİNİ, MİLLİ MƏCLİSİN DEPUTATI İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli cənab Sədr!
Hörmətli qurultay nümayəndələri!
Xanımlar və cənablar!

1992-ci ilin noyabr ayında Azərbaycanın mütərəqqi qüvvələri Heydər Əliyevin ətrafında birləşərək, Yeni Azərbaycan Partiyasının yaradılmasını bəyan etdilər. Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın müasir tarixində çox mühüm hadisə - Azərbaycan cəmiyyətinin həyatının yeni mərhələsinin başlanğıcını qoyan və ölkəmizin inkişaf yollarını müəyyənləşdirən tarixi hadisə oldu.

Hərc-mərclikdən və qanunsuzluqdan, siyasi və hərbi məğlubiyyətlərdən, iqtisadi dağıntıdan və özbaşınalıqdan, hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün savadsızlığından yorulmuş Azərbaycan cəmiyyəti ümid yerini yeni partiyanın yaradılmasında gördü, Heydər Əliyevin ətrafında birləşdi. Çünki xalq inanırdı ki, ölkəmizi böhrandan yalnız Heydər Əliyev çıxara bilər, Azərbaycanı parçalanmaqdan və müstəqilliyin itirilməsindən o xilas edəcəkdir.

Məhz belə də oldu. Azərbaycanın son 8 ildəki tarixi sübut etdi ki, Azərbaycan xalqı düzgün seçim etmişdir.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda quruculuq, müstəqilliyin möhkəmləndirilməsi, iqtisadi yüksəliş, cəmiyyət həyatının bütün sahələrində islahatlar dövrü başlandı. Azərbaycan qətiyyətlə demokratiya yolunu tutdu. Əvvəlki rəhbərliyin qoyduğu senzura ləğv edildi. İndi ölkədə həqiqi mənada söz azadlığı və hər bir demokratik dövlətə xas olan bütün başqa azadlıqlar mövcuddur.

Azərbaycanda siyasi islahatlar uğurla həyata keçirilir. Tam inamla demək olar ki, son 8 il ərzində Azərbaycan cəmiyyətin demokratikləşməsi sahəsində elə nəticələrə nail olmuşdur ki, demokratik dövlətlərin bir çoxu bunları neçə on illiklər ərzində əldə etmişlər.

Siyasi sahədəki islahatlar iqtisadiyyatda aparılan islahatlarla müşayiət olunur. 1993-cü ildə dövlətimizin başçısı iqtisadiyyatın inkişafının bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan başlıca istiqa-

mətlərini müəyyənləşdirdi. Son illər ərzində Azərbaycan cəmiyyəti bu xəttin düzgünlüyünə əmin oldu.

Əsas iqtisadi göstəricilərə görə Azərbaycan MDB ölkələri arasında birinci yeri tutur. Adambaşına düşən xarici sərmayələrin həcminə görə isə Şərqi Avropanın bir çox dövlətlərindən də irəlidədir.

Ölkənin iqtisadi inkişafında, habelə dünyada Azərbaycanın siyasi çəkisinin artmasında Heydər Əliyevin neft strategiyası xüsusi rol oynayır.

Xaricdən olan təzyiqlərə və hədə-qorxulara, habelə ölkə daxilindəki antimilli qüvvələrin müqavimətinə baxmayaraq, cəsarətli, uzaqgörən, Azərbaycanın milli mənafelərinə cavab verən və uzunmüddətli perspektivə istiqamətlənən neft strategiyası 1994-cü ildən həyata keçirilməyə başlanmışdır.

Yeddi il ərzində Azərbaycanın neft-qaz sektoru neft hasil edən bir çox ölkələrin hətta 20 il ərzində əldə edə bilmədiyi inkişafa nail olmuşdur.

Neft hasilatının səviyyəsi hər il artır və bir neçə ildən sonra ildə 50 milyon tona çatacaqdır. İki boru kəməri çəkilmişdir və indi Azərbaycan nefti həmin kəmərlər vasitəsilə dünya bazarlarına çıxarılır. Yaxın vaxtlarda Bakı-Ceyhan boru kəmərinin tikintisinə başlanacaqdır. Azərbaycan qazının Türkiyəyə nəql edilməsi üçün Bakı-Ərzurum qaz kəmərinin tikintisinə dair sazişlər imzalanmışdır.

Neft layihələrinin reallaşdırılması çərçivəsində on minlərlə yeni iş yeri açılmışdır.

Bütün bunların mümkün olacağına bəziləri inanmırdı, yaxud da inanmaq istəmirdi.

Lakin dövlətimizin başçısının siyasi iradəsi və müdrikliyi bütün bunları reallığa çevirdi.

Azərbaycanda Neft Fondu yaradılmışdır. Onun vəsaiti iqtisadi və sosial vəzifələrin həllinə kömək edəcək, habelə gələcək nəsillər üçün toplanacaqdır. Ölkə Prezidentinin qərarına əsasən, Neft Fondundan ilk vəsait qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması üçün ayrılmışdır. Paralel olaraq, əhalinin elektrik enerjisi və qaz ilə təchizatının yaxşılaşdırılması məsələləri həll edilir. Azərbaycan xaricdən ildə 4 milyard kubmetr həcmində qaz satın almağa başlamışdır. Bu



məqsədlər üçün hər il 200 milyon dollardan artıq vəsait sərf olunacaqdır. İndiyədək 150 milyon dollardan çox vəsait xərclənmişdir. Biz qaz idxal etməklə eyni vaxtda bir neçə məsələni həll edirik.

Birincisi, bizim elektrik stansiyalarımız mazutla deyil, qazla işləməyə başlamışdır ki, bu da ekoloji baxımdan daha düzgündür.

İkincisi, əvvəllər elektrik stansiyalarında yandırılan böyük miqdarda mazutumuz qalır ki, indi biz onu ixrac edirik və ölkəmiz əlavə gəlir götürür.

Üçüncüsü, 2001-ci ildən başlayaraq Bakı-Novorossiysk boru kəməri ilə dünya bazarlarına ildə 2,5 milyon ton xam neft ixrac etmək imkanı yaranmışdır.

Bütün bu tədbirlər nəticəsində Azərbaycan çox qısa bir müddətdə olduqca böyük mənfəət əldə etmişdir. Ən başlıcası isə, elektrik enerjisi hasilatını artırmaq və Azərbaycanın bir çox illərdən bəri qaz verilməyən rayonlarını qazla təmin etmək mümkün olmuşdur.

Bu ilin noyabr ayına qədər Bakı və Sumqayıtdan əlavə, Abşeron, Xızı, Dəvəçi, Siyəzən, Xaçmaz, Şamaxı, Qusar, Quba, Salyan, Neftçala, Hacıqabul rayonları, Gəncə, Mingəçevir, Əli Bayramlı şəhərləri qazla təmin edilirdi. Son on gün ərzində İsmayıllı, Ağsu, Göyçay, Kürdəmir, Şəmkir, Tovuz, Qazax, Ağstafa, Goranboy, Lənkəran, Yevlax, Qəbələ, Ağdaş, Samux, Xanlar rayonlarına da qaz verilməsinə başlanmışdır.

İndi Azərbaycanın bütün rayonlarına qaz verilməsi üçün tədbirlər görülür. Mən inamla deyə bilərəm ki, bu məsələ həll olunacaqdır.

Ölkənin valyuta ehtiyatı 1milyard dollardan çoxdur. Müqayisə üçün deyim ki, AXC-Müsavat cütlüyü tərəfindən ölkənin milli sərvətlərinin dağıdılması nəticəsində 1993-cü ildə Azərbaycanın valyuta ehtiyatı sıfıra bərabər idi. Əvvəlki rəhbərlik tərəfindən hər şey dağıdılmış və talan edilmişdi. Onlar dövlət xəzinəsi haqqında deyil, öz cibləri barədə düşünürdülər. İndi onlar Azərbaycanın iqtisadi siyasətini tənqid etməyə çalışır, orta məktəbin ibtidai sinifləri səviyyəsində olan "Konsepsiyalar" yazmağa cəhd göstərirlər. Soruşmaq istərdik, onlar bu kitabçalarını hakimiyyətdə olanda nə üçün yazmırdılar, nə üçün iqtisadi potensial yaratmır, əksinə, ölkəni müflis vəziyyətə salırdılar? Onlar bu sualların cavabını indiyədək verə bilmirlər.

Hörmətli qurultay nümayəndələri!

Yarandığı vaxtdan ötən 9 ildə Yeni Azərbaycan Partiyası ölkənin aparıcı siyasi qüvvəsinə çevrilmişdir.

Yeni Azərbaycan Partiyası Azərbaycan cəmiyyətinin bütün təbəqələrini birləşdirən ümumxalq partiyasıdır.

Bu partiyada yaşlı nəslin müdrikliyi gənclərin enerjisi ilə qovuşur. Ölkənin son illər ərzində qazandığı bütün uğurlarda məhz Yeni Azərbaycan Partiyasının üzvləri başlıca rol oynamışlar.

Yeni Azərbaycan Partiyasının üzvlərini yüksək peşəkarlıq, vətənpərvərlik, öz Vətəninə məhəbbət kimi keyfiyyətlər fərqləndirir.

1993-cü ilə qədər müxalifətdə olarkən biz, indiki müxalifətdən fərqli olaraq, heç vaxt Azərbaycan dövlətçiliyinə qarşı yönəldilən, ölkəmizə zərər vura biləcək heç bir şey etməmişik.

Bugünkü müxalifətdən fərqli olaraq, biz heç vaxt xaricdəki ermənipərəst qüvvələr qarşısında özümüzü alçatmamışıq.

Bugünkü müxalifətdən fərqli olaraq, biz heç vaxt "ölkədə vəziyyət nə qədər pis olsa, bizim üçün bir o qədər yaxşıdır" prinsipi ilə yaşamamışıq.

Biz ümummilli mənafeləri, Azərbaycan dövlətinin mənafelərini həmişə qorumuşuq və qoruyuruq.

Bir sözlə, biz müxalifətdə olarkən özümüzü həmişə ləyaqətlə aparmışıq.

1993-cü ildən biz iqtidardayıq. Mən inamla deyə bilərəm ki, bundan sonra biz heç vaxt müxalifətdə olmayacağıq, biz daim iqtidarda olacağıq.

1993-cü ildən başlayaraq, bizim liderimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan hərc-mərclikdən sabitliyədək, özbaşınalıqdan qayda-qanunadək, iqtisadi böhrandan iqtisadi yüksəlişədək, vətəndaş müharibəsindən vətəndaş sülhünədək yol keçmişdir.

Öz ölkəsini, öz xalqını sevən hər hansı bir adamdan bu gün soruşsalar ki, o, yenidən 1992-ci ilə qayıtmaq istərdimi, şübhəsiz, "yox" cavabı verəcəkdir.

Keçmişə qayıdış yoxdur. Azərbaycan tarixinin biabırçı səhifələri həmişəlik qapanmışdır.

Azərbaycanın gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır!

Azərbaycanın gələcəyi Heydər Əliyevlə və onun siyasəti ilə bağlıdır!



## QURULTAYIN MANDAT KOMİSSİYASININ HESABATI BARƏDƏ

## YAP SƏDRİNİN MÜAVİNİ, ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRİ ƏLİ NAĞIYEVİN MƏRUZƏSİ

Yeni Azərbaycan Partiyasının sədri Zati-Aliləri cənab Heydər Əliyev!

Hörmətli qurultay nümayəndələri!

Xanımlar və cənablar!

Yeni Azərbaycan Partiyasının I Qurultayından iki il ötür. Tarix baxımından çox qısa olan bu müddət ərzində ölkəmiz mühüm uğurlar qazanmış, iqtisadi, sosial, hüquqi islahatların həyata keçirilməsində ciddi irəliləyişlərə nail olmuşdur. Yeni Azərbycan Partiyasının sədri, ölkə rəhbəri cənab Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasətin məntiqi nəticəsi olaraq Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyi təmin edilmiş, respublikanın beynəlxalq nüfuzu xeyli artmışdır. Bu müddət ərzində Yeni Azərbaycan Partiyası da təşkilati baxımdan daha da mütəşəkkilləşmiş, üzvlərinin sayı artmış, sözün həqiqi mənasında ümumxalq, ümumazərbaycan partiyasına çevrilmişdir.

2000-ci ilin parlament seçkilərinin nəticələrinə görə öz mövqeyini daha da möhkəmləndirən partiyamız hazırda ölkədə alternativi olmayan möhtəşəm siyasi qüvvədir.

Yeni Azərbaycan Partiyasının I Qurultayında Heydər Əliyevin proqram xarakterli nitqindən irəli gələn vəzifələr, qurultayın qəbul etdiyi qərarlar hesabat dövrü ərzində layiqincə yerinə yetirilmiş, beləliklə də partiya öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Qarşıda duran vəzifələri müzakirə edib, yeni dövr üçün fəaliyyət proqramını müəyyənləşdirmək, onu işləyib hazırlamaq üçün II Qurultay çağırılmışdır.

Yeni Azərbaycan Partiyasının II Qurultayının çağırılması haqqında Partiyanın sədri cənab Heydər Əliyevin tövsiyəsi ilə İdarə Heyətinin 2001-ci il 30 avqust tarixli iclasının müvafiq

qərarından sonra zəruri təşkilati tədbirlər görülmüş, təşkilat komitəsi, işçi qrupları yaradılmış, qurultaya hazırlıq üzrə tədbirlər planı tərtib edilmişdir.

Qurultaya hazırlıq işləri çərçivəsində 5400 ilk partiya və 81 rayon və şəhər təşkilatlarında hesabat-seçki yığıncaqları keçirilmişdir.

Partiyanın rayon və şəhər təşkilatlarının qurultayqabağı konfransları 2001-ci il sentyabr ayının 12-dən başlayaraq noyabrın 7-dək davam etmişdir. Partiyanın 81 rayon və şəhər təşkilatlarının hamısından qurultaya nümayəndələr seçilmişdir. Müəyyən edilmiş nümayəndəlik norması üzrə partiyanın II Qurultayına 2001-ci il 1 iyul tarixə olan statistik məlumata əsasən 197.017 partiya üzvünün hər 102 nəfərindən bir nümayəndə seçilməsi qərara alınmışdır. Konfranslarda Yeni Azərbaycan Partiyasının II Qurultayına -- 1952 nümayəndə seçilmişdir.

Rayon və şəhər təşkilatlarının konfransları İdarə Heyətində təsdiq edilmiş qrafik əsasında keçirilmiş, yeni tərkibin və qurultay nümayəndələrinin seçilməsi haqqında gündəlik operativ məlumatlar ümumiləşdirilmiş, mətbuat səhifələrində dərc edilmiş, Təşkilat Komitəsi ilə birlikdə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclasında müzakirə olunmuş və növbəti vəzifələr müəyyənləşdirilmişdir.

Qurultaya seçilən nümayəndələrin tərkibini öyrənmək və ümumi siyahısını əldə etmək üçün Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının kompüter bölməsində xüsusi proqram hazırlanmışdır. Seçilmiş nümayəndələr tərəfindən «qurultay nümayəndəsinin anketi» doldurularaq Təşkilat Komitəsinin İşçi Qrupuna təqdim edilmişdir.

Kompüterə yığılmış məlumatlara əsasən qurultay nümayəndələrinin hər rayon və şəhər təşkilatı və bölgələr üzrə sayı, keyfiyyət tərkibi təhlil edilmiş və onların ümumi siyahısı hazırlanmışdır.

Respublikanın bölgələrindən qurultaya Bakı, Sumqayıt və Abşeron bölgəsi üzrə – 767 nümayəndə, Naxçıvan Muxtar Respublikası üzrə – 144 , Cənub bölgəsi üzrə – 128, Mil-Muğan bölgəsi üzrə – 117, Şəki-Zaqatala bölgəsi üzrə – 128, Gəncəbasar bölgəsi



üzrə – 204, Qarabağ bölgəsi üzrə – 128, Şirvan bölgəsi üzrə – 141, Quba-Xaçmaz bölgəsi üzrə – 80, Qaçqın-köçkün rayonları üzrə – 103 nümayəndə seçilmişdir. Ümumilikdə, kənd rayon təşkilatları üzrə qurultaya 1151 nəfər nümayəndə seçilmişdir.

Hörmətli Qurultay nümayəndələri!

Qurultay nümayəndələrinin tərkibinin öyrənilməsi və təhlili göstərir ki, onlar respublikanın ictimai, siyasi, iqtisadi və mədəni həyatının müxtəlif sahələrini təmsil edirlər.

Qurultay nümayəndələrinin ümumi tərkibində ziyalılar, sənaye, nəqliyyat, kənd təsərrüfatı, özəl sahələrdə çalışan mütəxəssislər çoxluq təşkil edirlər.

Ziyalılardan ibarət qurultay nümayəndələri – 1212 nəfər olmaqla, 62.4 faiz təşkil edir. Onların tərkibində müəllimlər, həkimlər, hüquqşünaslar, politoloqlar, sosioloqlar, elmi işçilər, mühəndislər, idarə, müəssisə rəhbərləri, nazirlər, komitə, şirkət rəhbərləri və digərləri vardır.

Qurultay nümayəndələrinin 1824 nəfəri və yaxud 93.4 faizi ali təhsilli, 117 nəfəri, yəni 6.6 faizi isə natamam ali və orta təhsillilərdir.

229 nümayəndənin elmi dərəcələri vardır, onlardan 107 nəfəri elmlər doktoru, 122 nəfəri elmlər namizədidir.

Qurultay nümayəndələrindən 237 nəfərinin fəxri adları və dövlət mükafatları vardır. O cümlədən nümayəndələrin tərkibində Azərbaycan Milli Elmlər akademiyasının akademikləri, Əməkdar Elm xadimləri, Respublika Dövlət mükafatı laureatları, Əməkdar müəllimlər, əməkdar həkimlər, Əməkdar incəsənət xadimləri, Xalq artistləri, Əməkdar inşaatçılar, Əməkdar neftçilər, Əməkdar mədəniyyət işçiləri, Qızıl qələm mükafatı laureatları, Əməkdar jurnalistlər, Avropa və Dünya Çempionları, dövlət tərəfindən fəxri fərmanla təltif olunanlar, Əmək veteranları və onlarca digər fəxri adları olanlar vardır.

Qurultaya seçilənlərin arasında beynəlxalq təşkilatlar tərəfindən verilən fəxri adlara layiq görülənlər də vardır. Habelə bir sıra nümayəndələr müxtəlif ölkələrin universitetlərinin fəxri professorları, müxtəlif xarici ölkə akademiyalarının həqiqi və fəxri üzvləri, beynəlxalq federasiyaların fəxri üzvləridir.

Qurultay nümayəndələri yaş tərkibinə görə aşağıdakı qaydada təmsil olunurlar:

**18-35 yaşında olanlar 33.7 faiz, 36-50 yaşında olanlar 49 faiz, 51-60 yaşında olanlar 11.2 faiz, 60 yaşdan yuxarı olanlar 6.1 faiz təşkil edirlər.**

**Qurultay nümayəndələrinin 18 faizi qadınlardır.**

Qurultay nümayəndələrinin milli tərkibində Azərbaycanın azsaylı xalq və millətlərindən olan 36 nəfər nümayəndə vardır. O cümlədən ləzgilər –22, ruslar – 6, avarlar – 2, kürdlər –2, yəhudilər –2 və digərlər (inqiloy və saxurlar) – 2 nəfər təşkil edir.

Qurultay nümayəndələri partiya stajına görə partiynın təsis olunduğu gündən bu günə qədər olan dövrü əhatə edirlər. Nümayəndələrin ümumi tərkibində 1992-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü olanlar –108 nəfər, 1993-cü ildən –574 nəfər, 1994-cü ildən – 102 nəfər, 1995-ci ildən 285 nəfər, 1996-cı ildən – 103 nəfər, 1997-ci ildən – 229 nəfər, 1998-ci ildən 164 nəfər, 1999-cu ildən –171 nəfər, 2000-ci ildən – 157, 2001-ci ildən – 62 nəfərin olduğu müəyyən edilmişdir.

Qurultay nümayəndələrinin anket məlumatlarından aydın olmuşdur ki, 1605 nəfər bilavasitə seçkili partiya orqanlarında təmsil olunur.

Qurultayın Mandat Komissiyası nəzərinizə çatdırır ki, rayon və şəhər konfranslarında Partiyanın II Qurultayına nümayəndələrin seçilməsi işində demokratik prinsiplər gözlənilmiş və Nizamnamə tələblərinin pozulması faktları müşahidə olunmamışdır. Seçilmiş qurultay nümayəndələrinin tam səlahiyyətli olması təsdiq edilmişdir.

Diqqətinizə görə çox sağ olun!



## YAP SİYASİ ŞURASININ ÜZVÜ, SABİR ADINA BAKI PEDAQOJİ KOLLECİNİN DİREKTORU NURLANƏ ƏLİYEVANıN ÇIXIŞI

- Möhtərəm cənab Prezident!

Hörmətli sədr!

Hörmətli qurultay nümayəndələri, xanımlar və cənablar!

Düz bir il sonra, 2002-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 10 ili tamam olacaqdır. Bir ay əvvəl isə biz Azərbaycanın dövlət müstəqilliyinin 10 illiyini təntənəli şəkildə qeyd etdik. Azərbaycan xalqının həyatında misilsiz əhəmiyyəti olan bu iki əlamətdar hadisəni yanaşı xatırlatmağım heç də təsadüfi deyildir. Ən əvvəl ona görə ki, bu tarixi günlər qırılmaz tellərlə bağlıdır, müasir siyasi tariximizin bir-birini tamamlayan iki çox mühüm məqamlarıdır. Möhtərəm Prezidentimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin yaradılmasını haqlı olaraq XX əsrdə xalqımızın ən böyük tarixi nailiyyəti adlandırmışdır. Onun rəhbərliyi altında 9 il əvvəl qədim Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasını bu böyük uğurun etibarlı davamı, qorunub saxlanması və möhkəmləndirilməsinə xidmət kimi qiymətləndiririk. Çünki bu partiyanın siyasi səhnəyə çıxması ilə demokratiya, azadlıq, müstəqillik ideyalarının həqiqi mahiyyəti özünün təcəssümünü tapdı. Onun timsalında xalq siyasi mübarizənin sivil, demokratik yollarını və vasitələrini aydın şəkildə təsəvvür etmək imkanı qazandı.

Məhz bu partiya müstəqillik savaşının çətin yollarından ötüb suveren dövlət quruculuğu vəzifələrini həyata keçirən xalqa həqiqi, təmənnasız xidmət nümunələrini aşıladı. Bu isə milli birlik yaratmağın yolu, xalqı birləşdirməyin üsulu idi.

Yeni Azərbaycan Partiyası öz üzərinə möhtərəm Heydər Əliyevin rəhbərliyi dövründə xalqımızın qazandığı tarixi uğurları qorumaq, onun məqsədyönlü daxili və xarici siyasətini davam etdirmək kimi vəzifə götürmüşdür. Birinci qurultaydan sonra partiya inkişaf etmişdir. Qurultay partiyanın təşkilat strukturlarında uğurlu islahatlar aparılmasına, ilk növbədə gənc və perspektivli qüvvələr hesabına güclənməsinə, iş qabiliyyətinin və siyasi kəsərinin artmasına səbəb oldu.

Partiyanın ilk qurultayından keçən dövr ərzində icra katibliyi Siyasi Şura ilə bərabər həmfikir insanların qərargahına çevrilmiş, bütövlükdə partiyadaxili səmimiyyəti, yoldaşlıq və əməkdaşlıq ruhunu dərinləşdirmiş, sağlam ab-havanın qorunmasına xidmət etmişdir. Danılmaz həqiqətdir ki, hazırda Yeni Azərbaycan Partiyası cəmiyyətin siyasi avanqardıdır. Respublikada ən nüfuzlu siyasi qüvvədir. Bunun əsas səbəbi qazanılmış uğurlar və Yeni Azərbaycan Partiyasının sıralarındakı minlərlə məsləkli, əqidəli insanlardır. Alimlər, müəllimlər, həkimlər, bəstəkarlar, mühəndislər, ədəbiyyat və incəsənət işçiləri, sadə peşə adamları, xüsusilə Azərbaycan qadını – ocaq çatıb təndir salan, sac asan, nehrə çalxayan, beşik yükgələyib laylay çalan, hana qurub gəbə toxuyan, bağ salan, bostan salan, löyün-löyün təamlar bişirən, zərif barmaqları ilə iri dəzgahları hərəkətə gətirən, məqamı çatanda səngərə yatan, güllə atan mərd, cəngavər, fədakar bacılarımız, dünyanın heç bir ölkəsində tayı-bərabəri olmayan yanımlı analarımızdır.

Bu gün Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşən insanların ən böyük məramı və arzusu torpaqlarımızın işğaldan azad olunmasıdır. 1990-cı illərin əvvəllərində keçmiş rəhbərlik ermənilərin torpaqlarımızın işğal etməsini soyuqqanlıqla almanların Moskvaya yaxınlaşması ilə müqayisə edərək, bunu müharibə dövrü üçün təbii hal kimi səciyyələndirirdi. Dövlət rəhbərinin belə qeyri-ciddi mühakiməsi gəncliyin vətənpərvərlik ruhunu sarsıdır, cəmiyyəti torpaq işğalına, torpaq itkisinə alışdırırdı. Həmin illərdə gənclərin böyük əksəriyyətinin orduya xidmətdən yayındığını yaxşı xatırlayırıq. Bu gün isə Ali Baş Komandanın bircə əmrinə bütün xalqımız müntəzirdir. Çünki onun məramı belədir:

Bir ovuc torpaqdan dönən deyiləm,
Bir ovuc torpağa dönənə kimi!

Yadınızdadırsa, bir vaxtlar ac canavartək dövlətin malını talan edənlər özlərinə "Boz qurd", ölkəni parçalayanlar "Birlik", "Vəhdət", Qarabağı hərraca qoyanlar "Qarabağa Yardım Komitəsi", ordunu dağıdanlar "Könüllü ordu", torpağı satanlar "Milli Müdafiə Şurası" və sairə kimi qurumlar yaradırdılar. Üzdə vətən, xalq, millət deyənlər, əməldə vətənin, xalqın qəniminə çevrilirdilər.



Bu gün biz hamımız, YAP-çılar fəxr edirik ki, partiyamızın lideri, dövlətimizin rəhbəri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin başçılığı ilə, onun qətiyyətli, uzaqgörən, ibrətamiz və heyrətamiz siyasəti nəticəsində Azərbaycan başının üstünü almış fəlakətlərdən, daxili və xarici antiazərbaycan qüvvələrin qəsdlərindən, vətəndaş müharibəsindən, ərazimizin işğal olunmasından, ölkəmizin parçalanmasından, nəhayət, müstəqil dövlətçiliyin məhvi təhlükəsindən xilas edilmişdir.

Bu dövr intensiv təşkilatlanma baxımından Yeni Azərbaycan Partiyası üçün də əlamətdar olmuşdur. Möhtərəm Heydər Əliyevin dövlət başçısı, siyasi xadim kimi dövlət quruculuğundakı hər bir uğuru partiyamıza daha da hörmət və nüfuz qazandırmış, onun sıraları vətənpərvər insanlar hesabına aybaay, ilbəil artmışdır. Partiya liderinin şəxsi cazibəsi, onun nüfuz və əzəməti Yeni Azərbaycan Partiyasının təşkilatlanmasına çox ciddi və müsbət təsir göstərmişdir.

Ötən dövrdə həyat xeyli dəyişmişdir. Demokratiya bərqərar olandan sonra çoxları başqalaşmışdır. Düzdür, aramızda ağa qara deyənlər, inkişafa göz yumanlar, tərəqqini görməyənlər, hər şeyə ağız büzənlər bu gün də var. Ümumi inkişafı və irəliləyişi inkar edən nihilistlər, cəmiyyətə həmişə qara eynəklə baxan bədxahlar ötən 10 illik müstəqillik dövründə həyatın hər bir sahəsində, xarici və daxili siyasətdə, iqtisadiyyatda, təhsildə, elmdə, incəsənətdə əldə etdiyimiz nailiyyətləri görmür, yaxud da bunları qəsdən görmək istəmirlər. Deməli, onlar həyatın ziddiyyətlərlə irəlilədiyini anlamır və ya başa düşmürlər. Heç şübhəsiz, zaman, həyat tədricən onları öz axarına alıb gec-tez yetişdirəcəkdir.

Bu gün Azərbaycanın siyasi həyatına Heydər Əliyev məktəbinin yetirməsi, müstəqilliyimizin və demokratiyanın ümidi olan, yeni təfəkkürə malik bir gənclik gəlir. Onun qarşısında xalqa, dövlətə sədaqətlə xidmət etmək, Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyi kimi qoruyub gələcək nəsillərə çatdırmaq vəzifəsi durur. Bu vəzifənin reallaşdırılması Azərbaycanın milli təhsil sisteminin keyfiyyətli, səmərəli fəaliyyətindən, Azərbaycan müəlliminin səfərbərliyindən, aparılan islahatlara yaradıcı münasibətindən çox asılıdır. Bu gün, bəlkə də, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanan rəşadətli ordudan daha çox,

milli ideologiyamızın, mənəvi yüksəlişimizin, gəncliyin əqli və ruhi kamilliyinin keşiyində vicdanla dayanan müəllim ordusuna ehtiyacımız daha böyükdür.

Nəriman Nərimanovun dediyi kimi, "əgər tarixə nəzər salsanız, yəqin edərsiniz ki, heç bir xalq qılınc və tüfənglə qabağa getməyibdir. Hansı xalq ki, irəli gedib, tərəqqi edibdir, yalnız elmin, təhsilin gücünə xoşbəxt olubdur". Heç kəsə sirr deyil ki, yeni ictimai-siyasi, mədəni-iqtisadi münasibətlərə keçid son dərəcə mürəkkəb, ağrılı, bir sıra hallarda isə təzadlı prosesdir. Bu çətin mərhələdə milli-mənəvi dəyərlər sisteminin qorunub saxlanması, cəmiyyətin bu dəyərlərə söykənməsi gələcək inkişaf baxımından çox əhəmiyyətlidir.

Təəssüf ki, yaşadığımız dövrdə xalqımızın mentaliteti ilə bir araya sığmayan, əsrlər boyu kamilləşib formalaşmış milli dəyərlərimizə zidd olan təzahürlərlə də rastlaşırıq. Yaxşı ki, belə vəziyyətdə dövlətimizin başçısı və onu birmənalı şəkildə dəstəkləyən geniş ziyalı təbəqəsi öz sözünü deyir. Biz son vaxtlar dəfələrlə bunun şahidi olmuşuq. Gələcəkdə də çalışmalıyıq ki, yetişməkdə olan nəsil mənfi meyllərdən uzaq olsun, dövlətə, xalqa və vətənə sədaqət ruhunda tərbiyə alsın.

Gənclik böyük qüvvədir. Yeni Azərbaycan Partiyasının hər bir üzvü çalışır ki, böyük yaradıcı gücə, qüvvəyə və potensiala malik bu gənclik Heydər Əliyev ideyalarının və mənəvi irsinin əsl daşıyıcısı olsun. Bu gün Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlarda partiyanın digər fəalları ilə yanaşı, Milli Məclisin deputatı, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevin də xidmətləri vardır. Son vaxtlar mətbuat və partiyanın yerli təşkilatları bu istedadlı siyasətçiyə və idarəçiyə xüsusi diqqət yetirir.

Bu gün İlham Əliyev amili bizim siyasi mühitdə mühüm bir amilə çevrilibdir. Yeni Azərbaycan Partiyasının bütün üzvləri, xalqın geniş kütləri onun partiya və dövlət işində fəaliyyətini yüksək qiymətləndirirlər. Hətta partiyanın geniş dairələri İlham Əliyevin siyasi potensialını səmimiyyətlə müzakirə edirlər. Onun siyasi gələcəyinə ümidlə baxırlar, aldığı şəxsi nümunəyə ləyaqətlə varislik edəcəyinə inam bəsləyirlər. Ulu Dədə Qorqudun "Qız anadan görməyincə süfrə açmaz, oğul atadan görməyincə qılınc çalmaz" kəlamı aqil övladın kamil valideynin tutduğu yolu sədaqətlə davam etdirəcəyinə işarədir. Bunun əyani təzahürünü dünyagörmüş insanlar həmişə təsdiq edirlər.



Biz möhtərəm Heydər Əliyevin qurub-yaratdığı partiyanın üzvləriyik, onun siyasi ardıcıllarıyıq. Bütün fəaliyyətimizin ana xəttini onun ideyaları təşkil edir. Bu ciddi vəzifənin məsuliyyətini lazımınca qiymətləndirməyi bacarmalı, onun adına, işinə, tələb və tövsiyələrinə layiq çalışmalıyıq. Milli-mənəvi dəyərlərdən uzaq, əqidəsiz, amalsız, gündə bir fikrə düşən, külək haraya əssə, o səmtə əyilən fürsətbazlara, təmənnalı insanlara Yeni Azərbaycan Partiyasının sıralarında yer olmamalıdır.

Yeni Azərbaycan Partiyası ölkəmizin tarixi müqəddəratının həll edilməsində, əsası qoyulmuş və uğurla həyata keçirilən nəhəng dövlət quruculuğu prosesində yüksək fəallıq, ibrətamiz siyasi prinsipiallıq və mübarizlik nümayiş etdirməyə qadir olduğunu bundan sonra da sübuta yetirəcəkdir.

Diqqətinizə görə sağ olun.

## YAP SİYASİ ŞURASININ ÜZVÜ, BAŞ NAZİRİN MÜAVİNİ – QAÇQINLAR VƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ƏLİ HƏSƏNOVUN ÇIXIŞI

Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli qurultay nümayəndələri, qonaqlar və mətbuat işçiləri!

Azərbaycan xalqının müqəddəratını həll edən, dünənin, bu günün və sabahın məsuliyyətini öz üzərinə götürən, siyasi partiyalar arasında ümumxalq partiyasına çevrilən, planetimizin dahi şəxsiyyəti Heydər Əliyevin sədr olduğu Yeni Azərbaycan Partiyasının II Qurultayında çıxış etmək şərəfinin mənə də nəsib olmasından qürur duyuram.

Fərəhli haldır ki, YAP ötən illər ərzində kifayət qədər inkişaf edib, təşkilati cəhətdən mətinləşib, mübarizləşib, həm kəmiyyət, həm də keyfiyyət etibarilə yeniləşib, ölkəmizin aparıcı siyasi qüvvəsinə çevrilmişdir.

Bütün bunlar, şübhəsiz, ilk növbədə partiyanın sədri cənab Heydər Əliyevə xalqımızın tükənməz məhəbbətinin və inamının nəticəsidir.

Artıq bu gün beynəlxalq aləmdə etiraf olunur ki, Azərbaycan son illər geniş inkişaf yoluna qədəm qoymuşdur. Məhz bu illər ərzində xalqımızın böyük sərvəti olan müstəqilliyimizin qorunub saxlanmasına, demokratik, hüquqi dövlət quruculuğunun həyata keçirilməsinə, yeni iqtisadi münasibətlər sisteminin yaradılmasına, ictimai-siyasi sabitliyin bərqərar edilməsinə və əhalinin rifahının yüksəldilməsinə nail olunmuşdur.

Sevindirici haldır ki, bu inkişafın, sabitliyin təminatçısı Yeni Azərbaycan Partiyası və onun lideri cənab Heydər Əliyevdir. Məhz buna görə bu partiyanın üzvü olmaq bizim hər birimiz üçün böyük şərəfdir, eyni zamanda çətin və məsuliyyətli işdir.

Buna görə də hər birimiz mənsub olduğumuz Yeni Azərbaycan Partiyasının, xalqın inam və etimadını doğrultmaq üçün üzərimizə düşən məsul vəzifələrin öhdəsindən layiqincə gəlməliyik.

Hörmətli qurultay nümayəndələri!



Məlumat üçün bildirim ki, heç də kiçik olmayan ərazi ilk partiya təşkilatımız yaradılmışdır. Dövlətqaçqınkomun əməkdaşlarının 90 faizi YAP-ın üzvüdür. Bir milyon qaçqın və məcburi köçkünün sosial problemlərinin həlli ilə məşğul olaraq partiyaya öz töhfəmizi veririk. Fürsətdən istifadə edərək, dövlətin bu sahədə gördüyü işlər barədə qurultay iştirakçılarına qısa məlumat vermək istərdim.

XX əsrin xalqımız üçün ən yaddaqalan hadisəsi respublikamızın müstəqilliyidirsə, ən faciəli hadisələri isə 20 Yanvar qırğını, Xocalı soyqırımı, ərazilərimizin 20 faizinin işğalı, Ermənistan ərazisində aparılan etnik təmizləmə nəticəsində 250 min soydaşımızın öz dədə-baba torpaqlarından didərgin salınması, 60 min nəfərin Dağlıq Qarabağ ərazisindən, 700 min nəfər azərbaycanlının Dağlıq Qarabağın ətraf rayonlarından zorla çıxarılması və beləliklə, bir milyondan çox qaçqın və məcburi köçkün ordusunun yaranması olmuşdur.

Ermənistan adlanan ərazini 200 il, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı 70 il azərbaycanlılardan təmizləməyə cəhd edən erməni millətçiləri, nəhayət ki, 1987-1992-ci illərdə, Heydər Əliyevin SSRİ rəhbərliyində və respublikada hakimiyyətdə olmamasından istifadə edərək, o vaxtkı iqtidarın və müxalifətin səriştəsizliyi, bağışlanılmaz günahları ucbatından həmin əraziləri müvəqqəti olaraq azərbaycanlılarsız etməyə nail oldular. O dövrün iqtidar və müxalifəti Azərbaycan tarixinə ən ləkəli səhifələr yazdılar. İndi isə bir qismi kənardan, bir qismi də daxildən "qəhrəmancasına" gülünc çıxışlar edirlər. Bunlar xalqın yaddaşından çıxmamışdır.

Ölkəmizdə qaçqın və məcburi köçkünlərin sosial problemləri ilə məşğul olmaq üçün kifayət qədər hüquqi baza yaradılmışdır. Ölkə Prezidenti cənab Heydər Əliyev tərəfindən 18 Fərman və Sərəncam imzalanmış, Milli Məclis 12 qanun, Nazirlər Kabineti 127 qərar və sərəncam qəbul etmişdir. Ölkə Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1993-cü ildən bəri ATƏT rəhbərliyi, Minsk qrupunun təmsilçiləri ilə keçirdiyi 130-dan artıq, 68 ölkənin dövlət başçıları ilə 480-dən çox görüşlərdə, çoxsaylı beynəlxalq və yerli qurumların tədbirlərində bu problemə hökmən toxunmuş, bunu ölkənin bir nömrəli problemi adlandırmışdır.

Beynəlxalq ekspertlərin rəyincə, Azərbaycan bu sahədə beynəlxalq normalara uyğun surətdə yaradılmış hüquqi bazaya görə MDB və Şərqi Avropa ölkələri arasında birinci yerdədir.

Dövlətimizin rəhbəri qaçqınların və məcburi köçkünlərin sosial problemlərinə daim qayğı göstərir.

Bir milyon qaçqın və məcburi köçkünün sosial müdafiə xərcləri il ərzində dövlətə 1 trilyon manata başa gəlir. Həmin vəsaitin yalnız 200 milyard manatı dövlət büdcəsində nəzərdə tutulur, qalanı isə beynəlxalq humanitar yardımlar və nazirlik, komitə, şirkət və mərkəzi idarələr, xarici ölkələrin neft şirkətləri tərəfindən göstərilən yardımlar, habelə həmin kateqoriyadan olan insanlara verilən güzəşt və imtiyazlardır.

Əgər 1993-cü ildə, o vaxtkı iqtidar və indiki müxalifət dövründə, məcburi köçkünlərin aylıq yemək xərcləri 500 manat idisə, hazırda hər nəfərə ödənilən yemək xərcinin məbləği 25 min manata çatmışdır, yəni bu rəqəm 8 ildə 50 dəfə artmışdır.

1993-cü ildə qaçqınların və məcburi köçkünlərin sosial müdafiə xərcləri üçün büdcədə cəmi 19 milyard manat nəzərdə tutulmuşdusa, indi bu rəqəm 200 milyard manatdır.

Məcburi köçkünlərə müvəqqəti istifadə üçün dövlət və bələdiyyə fondlarından 60 min hektar torpaq sahəsi ayrılıb, 47 min məcburi köçkünün əhatə olunduğu 760 fermer təsərrüfatı yaradılıb, onların fərdi heyvandarlıq təsərrüfatında 700 min başdan çox mal-qara var.

Ölkə Prezidenti cənab Heydər Əliyevin 1998-ci il 17 sentyabr tarixli Fərmanı ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" dövlət proqramı təsdiq edilmiş, 1999-cu il dekabrın 6-da Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu yaradılmışdır. 2000-ci il mayın 18-də cənab Prezidentin bilavasitə iştirakı ilə "İnkişaf problemləri və strateji istiqamətlər" mövzusunda beynəlxalq konfrans keçirilmiş, 2001-ci il mayın 17-19-da Avropa Şurası Parlament Assambleyasının Miqrasiya, qaçqınlar və demoqrafiya komitəsinin Bakıda səyyar konfransı təşkil olunmuşdur. 1997-ci ildə cənab Prezidentin İtaliyaya səfərindən sonra onun şəxsi nüfuzu sayəsində Azərbaycana 2600 ton ərzaq yardımı göstərildi. Məcburi köçkünlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə İtaliyanın ENİ-ACİP



neft şirkəti tərəfindən 2,2 milyon ABŞ dolları məbləğində vəsait ayrıldı. Bu siyahını istənilən qədər davam etmək mümkündür. Lakin vaxtınızı çox almamaq üçün xüsusi olaraq ölkə Prezidenti cənab Heydər Əliyevin son sərəncam və fərmanları barədə qısa məlumat vermək istəyirəm.

Məlumdur ki, Ermənistanın tutduğu qeyri-konstruktiv mövqeyə görə münaqişənin həlli uzanır və ona görə də respublikamızda olan beynəlxalq humanitar təşkilatların bir çoxu öz proqramlarını məhdudlaşdırır. Bunu da təbii qəbul etmək lazımdır.

Bəzi beynəlxalq humanitar təşkilatların xətti ilə 57 min nəfər məcburi köçkünə göstərilən ərzaq yardımı 2001-ci ilin iyun ayından dayandırıldığına görə, ölkə Prezidenti cənab Heydər Əliyevin 2001-ci il avqustun 15-də imzaladığı Sərəncam yaranmış boşluğu aradan qaldırmaq üçün çox mühüm bir sənəd oldu.

2001-ci il 22 avqust tarixli Fərman Ermənistandan didərgin düşmüş soydaşlarımızın daimi məskunlaşma, qeydiyyat, şəxsi mülkiyyət problemlərini həll edir. 2001-ci il 7 sentyabr tarixli Fərman isə Ağdam və Füzuli rayonlarından olan, çadır düşərgələrində və yük vaqonlarında dözülməz vəziyyətdə yaşayanların bir qisminin həmin rayonların ərazilərində salınacaq yeni qəsəbələrdə məskunlaşmasına və bununla da həm onların həyat şəraitinin yaxşılaşdırılmasına, həm də özlərinin özlərini dolandırmasına, habelə çadırlarda sığınacaq gərginliyinin aradan qaldırılmasına yönəldilən tarixi sənəddir.

Bütün bunların nəticəsi olaraq bu gün qaçqınlar və məcburi köçkünlər arasında qeyri-adi dərəcədə ictimai-siyasi sabitlik var.

200 min məcburi köçkünün ərzaq təminatını ödəyən BMT-nin Dünya ərzaq Proqramı Azərbaycanda öz layihəsini 1999-cu ilin may ayında başa çatdırmalı idi. Lakin həmişə olduğu kimi, cənab Heydər Əliyev qeyri-adi bir addım ataraq, Dünya ərzaq Proqramının baş qərargahına məktubla müraciət etdi. Biz həmin məktubu İtaliyada baş qərargaha təqdim edəndə oradan belə bir cavab aldıq ki, bu təşkilatın 50 illik tarixində birinci dəfədir müstəqil dövlətin başçısı bilavasitə baş qərargaha müraciət edir.

Bu, diplomatiya tarixində bənzəri olmayan bir müraciət olduğundan, eynilə müstəsna qərar qəbul edildi. Məlumdur ki, bu təşkilat

dünyanın qaynar nöqtələrində ərzaq təminatı layihəsi üzrə 7 ildən artıq fəaliyyət göstərmir. Həmin məktuba əsasən, Azərbaycanda proqram 3 il müddətinə uzadıldı və gələn ilin iyununda başa çatacaqdır. Hazırda baş qərargahın iki missiyası respublikamızdadır. Onlar da bu qənaətə gəliblər ki, 2002-ci ilin iyunundan proqramın müddətinin daha 3 il uzadılmasına ehtiyac var və bu təklifi baş qərargaha təqdim edəcəklər. Bunun səbəbini isə mən burada çox qısa şəkildə izah etmək istəyirəm.

Missiyalar ölkəmizdə fəaliyyət göstərərkən bütün yerlərdə oldular, məcburi köçkünlərin dözülməz real həyat tərzini öz gözləri ilə gördülər. Missiyanın işi barədə mən cənab Prezidentə məlumat verdim, möhtərəm cənab Prezident onlara öz qayğı və diqqətini göstərdi. Missiyanın rəhbəri, Oksford universitetinin professoru hətta belə bir fikir söylədi ki, dünyanın bir çox ölkələrində müstəqil ekspert kimi fəaliyyət göstərmişəm, lakin birinci dəfə belə bir halla rastlaşıram ki, ölkənin prezidenti öz insanları ilə bu dərəcədə yaxından maraqlansın və onların vəziyyəti haqqında hərtərəfli məlumatlı olsun.

Bax budur, Heydər Əliyev siyasəti! Budur, Heydər Əliyev fenomeni! Budur, Heydər Əliyevin beynəlxalq aləmdəki nüfuzu!

1999-cu il martın 19-da Biləsuvar çadır şəhərciyində iki köçkün ailəsinin toy mərasimində, 2000-ci il dekabrın 8-də köçkün uşaqlarının çəkdikləri fotoşəkillərin sərgisində Prezidentimizin özünün iştirak etməsi bir daha onu göstərir ki, cənab Heydər Əliyev bu insanların qayğısı ilə yaşayır və onların bütün problemlərinə öz şəxsi problemləri kimi yanaşır.

Elə buna görə də qaçqınlar və məcburi köçkünlər arasında siyasi sabitlik möhkəmdir, pozulmazdır və kənardan müdaxilə olunmazdır.

Artıq 8 ildən çoxdur məcburi köçkünlərin əksəriyyəti çadır və fin düşərgələrində, qazmalarda, yük vaqonlarında, tikintisi yarımçıq qalmış və yaşayış üçün münasib olmayan ictimai binalarda yaşayırlar.

Qaçqınların və məcburi köçkünlərin belə acınacaqlı vəziyyətdə yaşaması və bu çətinliklərə dözməsi ölkə Prezidenti cənab Heydər Əliyevə olan inamlarından irəli gəlir. Onlar inanırlar ki, cənab Prezident öz xalqına arxalanaraq, Azərbaycanın dövlətçiliyi və milli maraqları çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ



münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail olacaq, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaqlar. Ona görə də bir milyon qaçqın və məcburi köçkünün içərisinə heç bir siyasi müxalifət müdaxilə edə bilmir. Müxalifətin daim etdiyi cəhdlərə baxmayaraq, onlar bu insanlardan öz məqsədləri üçün istifadə edə bilməmişlər və bundan sonra da bilməyəcəklər.

Son zamanlar müxalifət yenidən fəallaşıb, mətbuatda qeyri-obyektiv çıxışlar edirlər, 2001-ci ildəki fərman və sərəncamlar barədə olduğu kimi, güzəşt və imtiyazlar haqqında da cəfəngiyyat danışırlar.

Bildirmək istəyirəm ki, nəzərdə tutulan Fərmanda məcburi köçkünlərin bütün ehtiyaclarının hamısı kompensasiya formasında maksimum nəzərə alınacaq, məcburi köçkünlərin imtiyazlarına heç bir xələl gəlməyəcək, qaçqınların kompensasiya probleminə isə ölkə başçısının tapşırığına əsasən baxılacaqdır.

Azərbaycan müxalifəti iqtidarın atdığı müsbət, radikal addımlara daim qısqanclıqla yanaşıb, bu gün də o cür yanaşır.

Mən hesab edirəm ki, bugünkü müxalifət siyasi səhnədə artıq yorulub, özləri özlərindən yorulublar, ictimaiyyət də bunlardan bezmişdir. Buna görə də mən onları artıq "yorulmuş müxalifət" adlandırıram.

Azərbaycan isə gündən-günə yeniləşir, beynəlxalq aləmdə ölkəmizin nüfuzu artır. Bu baxımdan yeniləşmiş Azərbaycana yeniləşmiş müxalifət, sağlam fikirli, sağlam təfəkkürlü müxalifət lazımdır.

Bəzən onlar qondarma varis problemini ortaya atırlar. Azərbaycan dünyəvi, hüquqi, demokratik dövlət olduğu üçün burada varis problemi ola bilməz. Bu mənada cənab İlham Əliyev də Türkiyə jurnalistləri ilə müsahibəsində düzgün qeyd etdi ki, o, hakimiyyətin yox, ailənin varisidir.

Lakin söhbət varislikdən getmir. Söhbət dövlətin möhkəmlənmiş müstəqilliyinin, bu illər ərzində yaradılmış idarəetmə mexanizminin, ictimai-siyasi sabitliyin və qurulmuş dövlətin qorunub saxlanmasından gedir.

Bu gün Heydər Əliyev komandasında çalışanlar bu böyük tarixi və dünyəvi məktəbdən öyrənirlər. Lakin cənab İlham Əliyevin bu mək-

təbdən daha çox öyrənmək və bəhrələnmək imkanı var. Çünki o, bu ailədə böyüyüb, bu ailədə yaşayır.

O ki qaldı növbəti prezident seçkilərinə, cənab Heydər Əliyev nə vaxt lazım bilərsə ki, yeni namizədə ehtiyac var, təbii ki, o zaman İlham Əliyev bu imkandan istifadə etməlidir. Biz əminik ki, o, xalqın etimadına layiqdir.

Hörmətli qurultay iştirakçıları!

Biz xoşbəxtik ki, tarix bizə Heydər Əliyev idarəçilik məktəbindən öyrənmək, bəhrələnmək imkanı vermişdir.

Əgər Heydər Əliyev hələ 1970-ci illərdə, keçmiş SSRİ məkanında Azərbaycanı qabaqcıl respublikaya çevirmişdisə, bu gün ölkəmiz məhz onun sayəsində bütün dünyada sivil dövlət kimi tanınır.

Cənab Heydər Əliyevin Azərbaycanda uzun illər qurub-yaratdıqlarından hər bir azərbaycanlı bəhrələnmişdir və bu gün də bəhrələnməkdədir. Ona görə də bizim ümdə vəzifəmiz möhtərəm Prezidentə, Azərbaycana, xalqımıza, YAP-a sədaqətlə xidmət etməkdir.

Çıxışımı aşağıdakı fikirlərlə bitirirəm.

Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli qurultay iştirakçıları!

Necə ki, Heydər Əliyev Azərbaycanın tarixində və onun xalqının qəlbində daim yaşayacaq, YAP da daimi və əbədidir.

Bütün Qarabağ əhli, bütün Azərbaycan xalqı deyir ki, Şuşasız Qarabağ olmaz. Biz isə deyirik: Əliyevlərsiz Azərbaycan olmaz!

Diqqətinizə görə sağ olun.



## YAP SAATLI RAYON TƏŞKİLATI QADINLAR ŞURASININ SƏDRİ KÖNÜL MİRZƏYEVANIN ÇIXIŞI

Zati-aliləri cənab Prezident, möhtərəm Sədr!

Hörmətli qurultay iştirakçıları!

Xanımlar və cənablar, qonaqlar!

Müstəqilliyimizin onillik yubileyini bayram etdiyimiz bu günlərdə dünya siyasətçiləri içərisində özünəməxsus yeri və mövqeyi olan dahi şəxsiyyət möhtərəm Prezidentimiz Heydər Əliyevin ideyaları əsasında yaradılmış Yeni Azərbaycan Partiyasının II Qurultayının möhtərəm sədrimiz başda olmaqla, nümayəndələrini, Saatlı rayonunun ictimaiyyəti və YAP-çıları adından salamlayır, qurultayın işinə uğurlar diləyir, müstəqilliyimizin əbədiliyi naminə tarixi qərarlar qəbul etməsini arzu edirəm.

Partiyamızın yaranmasından 9 il vaxt keçir. Zaman baxımından qısa müddət olsa da, ötən 9 il YAP-ın formalaşmasında, inkişafında, müstəqil, suveren, azad Azərbaycan dövlətinin qurulmasında, respublikada ictimai-siyasi sabitliyin təmin edilməsində, möhkəmlənməsində, dünya birliyinə inteqrasiyasında və beynəlxalq aləmdə özünə layiq yer tutmasında uğurlu illər olmuşdur.

Bu gün Azərbaycanın inkişaf və tərəqqi yolunu məhz Yeni Azərbaycan Partiyasının lideri möhtərəm Prezidentimiz müəyyən edir. Bu yolun düzgünlüyünü və xalq tərəfindən yekdilliklə müdafiə edildiyini ötən 9 ildə həyat özü dəfələrlə hər gün, hər saat, hər an sübut etmiş və əldə olunan uğurlarımız deyilənləri bir daha təsdiqləyir.

Bu möhtəşəm sarayda əyləşən bütün qurultay iştirakçıları kimi, rayonumuzun partiya üzvləri də tam əmindirlər ki, ölkəmizin aparıcı partiyası kimi YAP daim inkişafda olacaq və xalqımıza xidmət edəcəkdir.

Hamımıza məlumdur ki, Yeni Azərbaycan Partiyası Azərbaycan xalqını Heydər Əliyev ideyaları ətrafında səfərbər edən siyasi-ideoloji məktəbdir.

Cəmiyyətimizdə siyasi nüfuzu günü-gündən daha da yüksələn Yeni Azərbaycan Partiyası əldə etdiyi bütün nailiyyətlərə görə özünün müdrik və prinsipial liderinə həmişə borcludur.

Bu gün Azərbaycanın siyasi həyatına Heydər Əliyev siyasi məktəbinin yetirmələri, müstəqilliyimizin və demokratiyanın davamçısı olan, yeni təfəkkürə malik gənclik qədəm qoyur. Möhtərəm sədrimizin böyük qayğısı və siyasi uzaqgörənliyi ilə dövlət idarəçiliyinə cəlb edilən, yeni düşüncəyə və dünyagörüşünə sahib olan bu gənclik müstəqil dövlətimizin varlığı və inkişafı naminə YAP-ın lideri Heydər Əliyevin siyasi xəttinin XXI əsr Azərbaycan siyasətinin aparıcı xətti olması üçün böyük zəmanətdir.

Böyük yaradıcı gücə və potensiala malik bu gəncliyin Heydər Əliyev ideyalarının və mənəvi irsinin davamçısı olan İlham Əliyev kimi bir liderin ətrafında getdikcə daha sıx birləşməsi bu zəmanəti daha da gücləndirir və Yeni Azərbaycan Partiyasının gələcək siyasi fəaliyyəti üçün təzə perspektivlər müəyyənləşdirir.

İlham Əliyevin Azərbaycanın milli maraqları naminə son illər gördüyü işlər ölkəmizin həyatının, demək olar, bütün cəhətlərini – iqtisadi, mədəni-elmi sahələri, xarici siyasəti özündə əks etdirir.

Hörmətli İlham Əliyevin Azərbaycanın ictimai-siyasi həyatında yeri və rolu günbəgün artmaqdadır. Onun artan nüfuzu qarşısında məğlubiyyətlərini dərk edən bəzi müxalif dairələr İlham Əliyev şəxsiyyətinə qarşı hər cür yalan, iftira və şayiələrdən istifadə etməklə ona xələl gətirmək istəyirlər. Ancaq xalqımız kimin kim olduğunu gözəl bilir. 10 il bundan əvvəl mən orta məktəb şagirdi idim və indi müxalifətdə dayanaraq dövlətçiliyimizə zərbə vurmaq istəyənlərin möhtərəm sədrimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışına qədər törətdikləri əməllər heç kimin yadından çıxmamışdır. Yaxın tariximiz bugünkü gəncliyin də yaddaşında uşaq yaşlarından süzülüb gələn hadisələr kimi qalmaqdadır.

Mən buradan, bu yüksək tribunadan deyirəm: "Biz bir daha Azərbaycanda hakimiyyəti siyasi naşıların, səbatsız ünsürlərin, vətəninin yaxın gələcəyini görə bilməyənlərin ixtiyarına verməyəcəyik".

Bizim bunu deməyə siyasi-mənəvi haqqımız var.



Möhtərəm sədrimiz Heydər Əliyevin qurduğu müstəqil yeni Azərbaycanı, bu xalqa xidmət edən partiya kimi Yeni Azərbaycan Partiyası qorumağa qadirdir. Biz 2003-cü ildə prezident seçkilərində xalqın sevimli lideri Heydər Əliyevə, sonrakı seçkilərdə isə onun layiqli davamçısına səs verəcəyinə qəti əminik.

Hörmətli qurultay iştirakçıları!

Yeni Azərbaycan Partiyasının qabaqcıl dəstələrindən biri olan Saatlı rayon təşkilatının bütün yaşayış məntəqələrində ilk təşkilatı var. I Qurultaydan ötən müddət ərzində təşkilatımız xeyli genişlənmişdir və partiya üzvlərinin sırasında gənclərimiz 37 faiz təşkil edir.

Burada verilən məlumatlardan göründüyü kimi, partiyamızın tərkibinin mühüm hissəsini qadınlar təşkil edir.

Azərbaycanın ictimai-siyasi həyatında qadınların rolunun artması Heydər Əliyevin siyasətində mühüm yerlərdən birini tutur.

Yeni Azərbaycan Partiyası Saatlı rayon qadınlar şurasının sədri kimi mən bildirirəm ki, biz möhtərəm sədrimizin bu yöndə apardığı siyasətinin real nəticələrini həyatımızda hiss edirik.

Rəhbər vəzifəyə irəli çəkilən Azərbaycan qadınlarının hamısı onlara göstərilən etimadı tam doğruldur, tapşırılan iş sahəsində üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər.

Saatlı rayon təşkilatı yarandığı gündən dövlətimizin daxili və xarici siyasətinin təbliği sahəsində, Azərbaycan xalqının xilaskarı, Yeni Azərbaycan Partiyasının lideri Heydər Əliyevin yorulmaz və ölçüyəgəlməz fəaliyyətini geniş işıqlandırmaq məqsədi ilə bir sıra mühüm təşkilati və ideoloji işlər görmüşdür.

Rayonumuzda Heydər Əliyev siyasi-ideoloji məktəbinin fəaliyyət göstərməsi, Yeni Azərbaycan Partiyası üzvlərinin rayonun ictimai-siyasi həyatında daha da fəal olması, partiya təşkilatı üçün yeni qərargahın ayrılması rayon təşkilatının fəaliyyətini daha da gücləndirmişdir.

Bütün bunların nəticəsində Yeni Azərbaycan Partiyası istər bələdiyyə seçkilərində, istərsə də Milli Məclisə seçkilərdə yüksək uğurlar qazanmışdır.

Son illərdə bütün respublikamızda olduğu kimi, bizim rayonda da aqrar islahatlar müvəffəqiyyətlə başa çatdırılmış, kənddə yaşayan hər

bir sakinə torpaq payı verilmişdir. Hər bir torpaq sahibi öz istəyindən asılı olaraq, əkib-becərəcəyi məhsulu müəyyən edir.

Məlumdur ki, bu il ölkəmizdə 2 milyon tondan yuxarı taxıl istehsal olunmuşdur. Rayonumuzda isə akademik Cəlal Əliyevin intensiv, yüksək məhsuldarlığa malik taxıl sortlarının əkilməsi hesabına ötən il ən yüksək – hər hektardan 38,1 sentner məhsul götürmüşük və 90,5 min ton taxıl istehsal etmişik. Bu isə rayonda adambaşına 1100 kiloqram taxıl deməkdir. Bu bolluğu, firavanlığı xalqımıza möhtərəm Prezidentimiz bəxş etmişdir və bütün bunlar onun yeritdiyi müdrik siyasətin uğurlu nəticəsidir.

Hörmətli qurultay iştirakçıları!

Yeni Azərbaycan Partiyası Saatlı rayon təşkilatı üzvlərinin qurultaya gələrkən mənə verdikləri tapşırığa uyğun olaraq təklif edirəm ki, Partiyanın hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab olunsun. İcazə verin, çıxışımın sonunda xalqımıza müstəqillik, əmin-amanlıq və firavanlıq bəxş edən, ən başlıcası isə, xalqa çörək verən möhtərəm sədrimizin rəhbərliyi ilə keçirilən qurultayımıza taxıldan hazırlanmış çələngi təqdim edim.

*Xalqımıza çörək verən Heydər Əliyevə eşq olsun!*

Diqqətinizə görə sağ olun!



## YAP İDARƏ HEYƏTİNİN ÜZVÜ, PARTİYANIN NƏSİMİ RAYON TƏŞKİLATININ SƏDRİ, SƏHİYYƏ NAZİRİ ƏLİ İNSANOVUN ÇIXIŞI

Möhtərəm cənab Prezident!

Çox hörmətli sədr!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, sizi bu böyük bayram münasibətilə ürəkdən təbrik edim, qurultayımızın işinə uğurlar arzulayım.

YAP-çılar əvəzsiz liderimiz cənab Heydər Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütöv bir proqramı I Qurultaydan keçən dövr ərzində tamamilə həyata keçirmiş, daxili və xarici siyasətdə mühüm nailiyyətlər əldə etmiş, ümumxalq partiyası imicini daha da möhkəmləndirmişlər.

**Partiya quruculuğu işində Yeni Azərbaycan Partiyası yeni bir mərhələyə qədəm qoyaraq, öz sıralarını xeyli artırmış, bütün şəhər və rayonlarda partiyanın qadınlar və gənclər təşkilatları yaradılmış, ideoloji iş xeyli gücləndirilmişdir.**

Ölkədə aparılan uğurlu islahatlar, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı, sosial sahədəki tərəqqi insanların sabaha ümidini artırmış, artıq bərqərar olmuş ictimai-siyasi sabitlik isə bütövlükdə bütün sahələrin dinamik dirçəlməsinə dəyərli stimul olmuşdur.

Bu günlərdə Bakıda keçirilmiş dünya azərbaycanlılarının qurultayı bizi yenidən keçmişi vərəqləməyə sövq etdi. Əksəriyyətinin doğma vətəninə ilk dəfə gəlişi və ilk dəqiqələrdə gördüklərinin onları heyran qoyması bizi sevindirməyə bilməzdi.

Bakının son 32 ildə tikilmiş yaraşıqlı binaları, neçə-neçə elm-mədəniyyət, incəsənət mərkəzləri, xalqımızın görkəmli övladlarına ucaldılmış abidələr və nəhayət, elmimizin, incəsənətimizin inkişaf səviyyəsi, adət-ənənələrimizin, dilimizin bu səviyyədə qorunub saxlanması gələn soydaşlarımızın hədsiz fərəh və sevincinə səbəb oldu. Taleyin hökmü ilə bütün dünyaya səpələnmiş soydaşlarımıza bu xoşbəxtlik sevincini bəxş etdiyinə və bütövlükdə bütün azərbaycanlılar üçün bir əsər kimi yaratdığı müasir Azərbaycanımıza görə

hamımız xalqımızın bənzərsiz liderinə - cənab Heydər Əliyevə bir daha borcluyuq.

Daşlardan möhtəşəm abidələri necə yaradırsınız sualına böyük bir memar belə cavab vermişdir: "Sadəcə, daşların artıq yerlərini kəsib atıram". Xalqımızın böyük oğlu bugünkü Azərbaycanımızı uzun illər boyu təkbaşına beləcə yaratmışdır.

Bakıya ilk dəfə gələn soydaşlarımızla söhbət edərkən, mənim özümün 1965-ci ildə ilk dəfə Bakıya gəldiyim günlər yadıma düşdü. Bu soydaşlarımızdan fərqli olaraq, o illərdə mən Bakıda ilk baxışdan çox acı mənzərələrlə qarşılaşırdım. O vaxta qədər yaşadığım Ermənistanda yerli xalqa və dilə münasibət burada gördüklərimlə müqayisədə tam əksinə idi. Bakıda binaların üzərindəki yazılardan tutmuş, kinoteatrların afişalarına qədər başqa dildə yazılmış, insanlar küçələrdə, mağazalarda, idarələrdə azərbaycanca verilən suala ya cavab vermir, yaxud da başqa dildə cavablandırırdı. Çoxsaylı idarələrin rəhbərləri ermənilər idi. Ölkə rəhbərləri ana dillərində danışmırdılar, bütün iclaslar başqa dildə aparılırdı. Bir neçə mərkəzi küçəsindən başqa Bakının da görkəmi çox acınacaqlı idi. Respublikanın ümumi mənzərəsi isə - aydın olmaq üçün deyirəm – Əfqanıstanın mənzərəsindən çox az fərqlənirdi. Avtomobil və dəmir yolları çox bərbad halda idi. Bunlar hamısı bizim ürəyimizi ağrıdırdı.

1969-cu ildən başlayaraq hər şey 180 dərəcə dəyişdi. Beləliklə, Bakıda yeni mikrorayonların salınması, rayon mərkəzlərinin abadlaşdırılması, palçıq evlərin və daxmaların yerində yaraşıqlı evlərin tikilməsi, saysız-hesabsız məktəblərin, xəstəxanaların, sosial obyektlərin, o cümlədən teatrların, mədəniyyət saraylarının, zavod-fabriklərin, elmi-tədqiqat institutlarının, yeni ali məktəblərin, bu gün hava, su kimi lazım olan hərbi məktəblərin, bütövlükdə kənd təsərrüfatı və sənaye obyektlərinin yaradılması, metronun sürətlə tikilməsi, neft-qaz sənayesinin modernləşdirilməsi, ucqar kəndlərə qazın çəkilməsi, yeni elektrik stansiyalarının tikilməsi və bununla da enerji sahəsində qonşu respublikalardan fərqli mərkəzləşdirilmiş təminatdan ölkənin xilas olması, Bakıdan bütün istiqamətlərdə yeni avtomobil yollarının salınması, dəmir yolunun bir neçə istiqamətə uzadılması, ali təhsilli və elmi kadrların yetişdirilməsi məqsədi ilə hər il minlərlə gəncin



keçmiş ittifaq mərkəzlərinin ən nüfuzlu elm və təhsil ocaqlarına göndərilməsi, ədəbiyyatımızın sərbəstləşməsi, ilk dəfə cənubi Azərbaycan mövzusunun ədəbiyyatımızda yer alması, milli memarlığımızın üzə çıxarılması, Elmlər Akademiyası institutlarının genişləndirilməsi, ilk dəfə kosmik tədqiqatlar mərkəzinin yaradılması, Azərbaycanın neçə-neçə layiqli övladlarına ən yüksək fəxri adların verilməsi və bununla da xalqımızın tanınması və məşhurlaşması, nəhayət, son illərdə neft-qaz sənayesi sahəsində imzalanmış və həyata keçirilən müqavilələrlə Xəzər dənizində Azərbaycanın özü boyda bir iqtisadi məkanın vətənimizin bugünkü və gələcək övladlarına ərməğan edilməsi bütöv bir əsrə sığışmayan 32 ildə görülmüş və heç bir siyasi liderə nəsib olmamış nailiyyətlərdir. Beləliklə, Azərbaycan müasirləşdi və Azərbaycanlaşdı. Bunların hamısını siz yaxşı bilirsiniz. Ancaq mən xarici soydaşlarımıza anlatdığım kimi, biz hamımız yeni, gənc nəslə bunları dönə-dönə danışmalıyıq.

Bu gün Azərbaycan iqtidarının, Yeni Azərbaycan Partiyasının və bütövlükdə Heydər Əliyev komandasının qüdrəti, yenilməz gücü Heydər Əliyevlə İlham Əliyevin sarsılmaz və yaradıcı tandemindədir. Yeni Azərbaycanın bu tandemi, bu birliyi gələcək firavan Azərbaycanın təməl daşıdır. Nyutondan soruşanda, necə oldu ki, müəllimin Qalileyi qabaqladın? Cavab verir ki, mən elə bir iş görmədim, müəllimim məni çiyinləri üzərinə qaldırdı və mən ondan uzağı görə bildim.

İlham Əliyevin indi Heydər Əliyevin zəngin təcrübəsinə əsaslanaraq, siyasəti ilə silahlanıb müqayisəolunmaz genləri ilə daha uca zirvələri fəth edəcəyi bizə gün kimi aydındır. Bu, dialektik qanunauyğunluqdur.

İlham Əliyevin bütün nailiyyətləri, o cümlədən Avropa Şurası Parlamentinin sessiyalarındakı uğurları hamıya məlumdur. O, hökumətə ardıcıl olaraq yeni-yeni iqtisadi proqramlar təqdim edir. Bu proqramlardan biri əsasında son günlər respublikamızın 30-a yaxın şəhər və rayonuna qazın verilməsi mümkün olmuşdur. Gənclər və idman sahəsindəki qələbələr, quruculuq işlərindəki, sosial sahədəki yeniliklər dediyimiz fikirləri inandırıcı şəkildə təsdiqləyir. Nəhayət, İlham Əliyevin Heydər Əliyev məktəbinin yetirmələrinə liderlik

etmək məharəti xüsusən diqqəti cəlb edir. Gəlin, bu şərəfli siyasi estafetə uğurlar arzulayaq.

Göz qabağında olan uğurları görmək istəməyənlər də var. Bəli, bizim müxalifətə bənzərlərin bir qismi Utopik Sosialist Sen-Simon kimi nağıllarda yaşayır və cənnətə getmək arzusundadırlar. Digərləri isə Şeyx-Nəsrullah kimi kimyagərliklə məşğuldurlar. Siyasət oyunları bunları o qədər məst edib ki, beş nəfərlik bir idarəyə müdirlik etməmiş kəslər böyük vəzifə arzusu ilə yaşayırlar.

Mən tələbəmiz olmuş bir ərköyün övlada həmişə deyərdim ki, hərdən bir qəzet oxu, əlifba yadından çıxmasın. Qəbahət də olsa, mən bu müxalifəti iqtidara gəlmək yuxusundan oyadıb, bir sənət öyrənməyi məsləhət bilərdim. Heç nəyi bəyənməyən bu kəslərə həm də anlatmağa çalışardım ki, yeri-göyü yaradan da hamıya eyni xoşbəxtlik və həyat tərzi bəxş etməyibdir. Ucdantutma hər şeyi qaralamayın. Çalışın zəhmətlə ucalın.

Dünya azərbaycanlılarının Bakıda toplanması xalqımızın əsrlərdən bəri olan arzusu idi. Təəssüf ki, müxalifət bu dəfə də əqidələrinə və adətlərinə uyğun meydanı qoyub qaçdı. Sözləri ilə ürəkləri müxtəlif qütblərdə bərqərar olmuş bu kəslər ümumxalq süfrəsinə dəvət alsalar da, gəlmədilər. Ancaq okeanın o tayında erməni lobbisinin təşkil etdiyi toplantıları buraxmırlar. Görünür, cəsusluq çörəyi onlar üçün milli birlikdən daha vacibdir.

Bir neçə kəlmə də son vaxtlar yenidən azğınlaşmış müsavat mətbuatı haqqında demək istəyirəm. Möhtərəm Prezidentimizin səhhətini öz qəzetində təhlil edən İsa Qəmbərə onun öz stilində cavab vermək istəyirəm: İsa Qəmbər, sən genetik xəstəsən. Çünki genlərini gəzdirdiklərin keçmişdə elə sənin metodunla xalqımızın çox böyük alimi Yusif MəmmədƏliyevi və neçə-neçə görkəmli şəxsiyyətləri şər-böhtanla təqiblərə məruz qoyaraq, infarkt vəziyyətinə çatdırıb sıradan çıxartmışdılar. Sənin genetik təkrarlamaların heç kəsin səhhətinə təsir etmir. Bu şərəfsiz fəaliyyətində sənin bircə "qazancın" olubdur. O da bu böyük salonda əyləşənlərin, milyonlarla həmfikirlərimin qəzəb və nifrəti.

O ki qaldı, möhtərəm Prezidentimizin səhhətinə, bu, göz qabağındadır və Prezident istirahət günləri də daxil olmaqla hər gün iş başındadır. Səhhəti ilə bağlı heç bir problemi yoxdur.



Hörmətli qurultay iştirakçıları!

Yadıma düşən bir analoji tarixi hadisəni diqqətinizə çəkmək istərdim. Çünki tarixi şəxsiyyətlərin həyatlarında oxşarlıqlar çox olur. Məhəmməd Peyğəmbərin də barışmaz, davakar müxalifəti olubdur. Peyğəmbərə sui-qəsdlər olub, onu öldürmək istəyiblər, dinini rədd ediblər, əqidəsinə qarşı çıxıblar, təqib ediblər. Ancaq bu gün dünyada elə bir həqiqi müsəlman tapılmaz ki, o cümlədən Peyğəmbərimizə müxalif olan ulu babalarının bugünkü övladları Məhəmməd Peyğəmbərin adı gələndə ehtiram göstərməsinlər.

İnanıram ki, zaman gələcək Azərbaycan iqtidarının bugünkü barışmaz müxalifətinin gələcək övladları da öz babalarını nifrətlə yad edəcəklər. Həmin övladlar Azərbaycan müstəqilliyinin banisi, dövlətçiliyimizin əvəzsiz memarı, xalqımızın tarixi lideri Heydər Əliyevə sonsuz ehtiram göstərəcəklər.

*Yaşasın Yeni Azərbaycan Partiyası, onun yaradıcısı və lideri cənab Heydər Əliyev!*

Diqqətinizə görə sağ olun.

## YAP SİYASİ ŞURASININ ÜZVÜ, MİLLİ MƏCLİSİN DEPUTATI SÜDEYF İMAMVERDİYEVİN ÇIXIŞI

Zati-aliləri, cənab prezident, möhtərəm sədrimiz!

Əziz siyasi həmkarlar!

Hörmətli qonaqlar!

Hər bir xalqın qürur və şərəf hissini təmin edən, onun inkişaf yolunu müəyyənləşdirən müstəqil dövlətinin olmasıdır.

Dünya azərbaycanlılarının I Qurultayı göstərdi ki, müstəqilliyimiz nəinki bizim xalqımıza, Azərbaycan Respublikasında yaşayanlara, bütün dünya azərbaycanlılarına nə qədər lazımdır.

Qurultay göstərdi ki, hansı məkanda yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının gözü bizim respublikamızdadır, bütün ülvi duyğuları bizim Vətənimizlə bağlıdır. Bu, nə qədər şərəflidirsə, o qədər də məsuliyyətlidir.

Yeni Azərbaycan Partiyasının II Qurultayı Vətənimizin tarixində çox böyük əhəmiyyət kəsb edən hadisədir.

Bu günümüzə, həyatımızın bütün sahələrində sabitlik hökm sürən bir dövrə gələn yol heç də rəvan və ardıcıl olmamışdır. Olayları yaşamış, baş verən sarsıdıcı hadisələrin zərbələrini qəlbindən keçirmiş bir vətəndaş kimi deməliyəm ki, heç zaman o proseslərin şərhində səthiliyə, sönüklüyə yol vermək olmaz.

Vətənçilik baxımından unutqanlıq, ən qorxulu amil kimi, yeni səhvlərin yaranmasına səbəb ola bilər. Hər birimiz, xüsusən gənc nəsil yaxşı bilməlidir ki, çağdaş sabitliyə, gündən-günə tərəqqidə olan mərhələyə, itirilmiş, işğal olunmuş torpaqlarımızı artıq bu gün qaytara bilmək səviyyəsinədək inkişaf etmiş ölkəmiz ölüm-dirim mərhələsini yaşayaraq, qeyri-adi, titanik təfəkkür fəaliyyəti nəticəsində dirçəliş yoluna çıxa bilmişdir.

Bu düşüncələr ona görə daim aktual olaraq qalmaqdadır ki, xalqımız bütün gələcək dövrlərdə heç zaman müvafiq hazırlığı olmayan, məsuliyyətsiz, ambisiyalı şəxslərin hakimiyyət zirvəsinə qalxmasına yol verməsin.



1988-ci ildən 1993-cü ilin ortalarına qədər dövlət idarəçiliyində buraxılan səhvlərin ağrısı xalqımızın qəlbindən silinməmiş və buraxılan o səhvlər həyatımızda hələ də özünü müxtəlif formalarda göstərməkdədir.

1991-ci ilin oktyabrında "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının qəbulu da dövlət idarəçiliyində olan böhranı aradan götürə bilmədi. Bunun son dərəcə ciddi səbəbi var idi. İdarəçilik təcrübəsi, geniş analitik təfəkkürü, uzağı görə bilmək qabiliyyəti olmayanların dövlət idarəçiliyinə zorla, ictimai qanunları pozaraq gəlməsi xalqımızın taleyinə ağır zərbələr vurdu.

O dövrdə torpaqlarımızın işğalı davam edirdi. Uğursuz müharibədə insan tələfatı artmaqda idi. O biri tərəfdən, respublikamızın maddi ehtiyatları qəddarcasına talanır, xaricə satılır, əldə olunan vəsaitlər isə xarici banklarda xalqımızı talayanların hesabında yatıb qalırdı. AXC-Müsavat iqtidari tamamilə iflasa uğrayaraq, Azərbaycanda vətəndaş müharibəsi vəziyyəti yaratdı. Separatçılıq meylləri və aksiyaları Vətənimizin bütün bölgələrini bürüdü. Vəzifəli şəxslər, ayrı-ayrı zabitlər respublika prezidentinin əmrini saya salmır, öz cinayət tərkibli fəaliyyətlərini davam etdirirdilər. 1993-cü il yazın sonunda dövlətçiliyimiz rəmzi xarakter daşıyırdı və XX əsrdə xalqımız ikinci dəfə əldə etdiyi müstəqilliyi itirmək üzrə idi.

Xoşbəxtlikdən, dövlətçiliyimizi qorumaq üçün şansımız da varmış. Bu şans o dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan möhtərəm Heydər Əliyevin adı ilə bağlı idi.

Respublika ziyalılarının böyük bir qrupunun möhtərəm Heydər Əliyevə rəsmi müraciəti, müxtəlif regionlardan olan Azərbaycan vətəndaşlarının ona böyük hörməti və etibarı 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaranması ilə nəticələndi. İqtidarın YAP-ın təşkilatlanmasının qarşısını düşməncəsinə almaq cəhdləri uğursuzluğa məhkum idi. Partiyanın sıraları gündən-günə artmaqda davam edirdi. Nəhayət, iflasa uğramış AXC-Müsavat iqtidarı möhtərəm Heydər Əliyevi rəhbərliyə dəvət etmək məcburiyyətində qaldı.

Möhtərəm Heydər Əliyevin 1993-cü ildə rəhbərliyə qayıdışı və oktyabr ayında Azərbaycan Respublikasının prezidenti seçilməsi qanunauyğun idi.

Diqqət edək, hələ 1969-cu ildən respublikamızda rəhbər vəzifəyə gələn möhtərəm Heydər Əliyevin Azərbaycan dövlətçiliyi tarixində müstəsna rolu olmuşdur. O, göstərə bilmişdir ki, xalqını sevən və yüksək təfəkkür sahibi olan vətəndaş bütün ictimai formasiyalarda öz xalqının bu gününə və gələcəyinə xidmətlər göstərə bilər. Bəli, sovet totalitar rejimi, sərt ideoloji çərçivələr və şovinistlik mühitində möhtərəm Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkəmizdə olduqca mühüm ictimai-siyasi və mədəni-mənəvi proseslər inkişaf edirdi. Bu fəaliyyətin nəticəsində ilk növbədə azərbaycanlıların təfəkkürü dəyişməyə başladı, milli oyanış meylləri, xalqımızın mədəni irsinə iftixarla baxmaq, özünə inam duyğuları inkişaf etməkdə idi. Onun təşəbbüsü və qayğısı ilə həm Azərbaycanda, həm də başqa dövlətlərin böyük elmi mərkəzlərində təhsil almış insanlar, yüksək intelekt sahibləri 1988-ci ildən bəri dövlət rəhbərliyinə gələnlərin, AXC-Müsavat iqtidarının təcrübəsizliyini, analitik, idarəçilik təfəkkürünün zəifliyini aydın görürdülər.

Xalqımız bu insanları bir-birinin ardınca dövlət idarəçiliyindən rədd edirdi.

Nəhayət, 1993-cü ilin iyununda Yeni Azərbaycan Partiyası sədrinin – möhtərəm Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı xalqımızın ruhunda dönüş əmələ gətirdi. Tədricən dəyişən həyatımız bir daha sübut etdi ki, yalnız istedadlı dövlət xadimi nəzəri və praktiki biliklərə əsaslanaraq uğurlu siyasi və iqtisadi islahatlar həyata keçirə bilər.

Zati-aliləri, cənab prezident, möhtərəm sədrimiz! Bütün bu çətin yollarda Yeni Azərbaycan Partiyasının üzvləri Sizə dəstək olmağa çalışmış, tədricən daha böyük qüvvəyə çevrilmiş və bu gün respublikamızda aparıcı siyasi qüvvə təşkil edirlər. Dövlət quruculuğunda Sizin uğurlu fəaliyyətinizin bəhrələri göz qabağındadır. Azərbaycanın istiqlalını qoruya bilməyiniz, qardaş qırğınının qarşısını almağınız, uğursuz müharibəyə, insan itkilərinə, kənd və şəhərlərimizin itirilməsinə, Sizə qədər respublikamızda baş verən hərc-mərcliyə son qoymağınız, Vətəni qoruya bilən ordu yaratmağınız, bütün dünyada qloballaşma gedən bir dövrdə milli dəyərlərimizi, mədəni irsimizi yaşada bilməyiniz, Sizi, xalqımızın ən dəyərli oğlu kimi, bugünkü



nəslin qəlbində ən uca yaddaş heykəli olaraq həkk etmiş və gələcək nəsillərin qəlbində də daim yaşadacaqdır.

Sizin insanların şəxsiyyətinə, onların Vətənə, xalqımıza yararlı fəaliyyətinə qiymət verə bilmək duyğunuz və təfəkkür dərinliyiniz misli görünməmiş bir keyfiyyətdir. Bunu anlaya bilən hər bir şəxs daha əzmlə Vətənə xidmət etmək hissi ilə ruhlanır. Sizin Vətənə, xalqımıza, adi insani münasibətlərə sədaqətli olmaq yüksəkliyiniz hər bir vətəndaş üçün örnək mənbəyidir. Bu mühitdə formalaşan gənc nəsil Vətənimizi qorumaq və əldə edilmiş müvəffəqiyyətləri davam etdirmək əzmi ilə çalışır. Orduya, təhsilə, səhiyyəyə, mədəniyyətə, xüsusən son illərdə idmana olan dövlət qayğısı daim təkmilləşir və nəticədə gənclərin inkişafı üçün yeni imkanlar yaranır.

Yeni Azərbaycan Partiyası sıralarından Milli Məclisə irəli sürülən deputatların lideri, Yeni Azərbaycan Partiyası sədrinin müavini İlham Əliyevin bu istiqamətdə fəaliyyəti böyük əhəmiyyət kəsb etmişdir. Yeni Azərbaycan Partiyasının Lənkəranda keçirilən konfransında hörmətli İlham Əliyevin iştirakının və çıxışının şahidi kimi deyə bilərəm ki, bu görüş yaddaqalan, təsiredici bir hadisə olaraq partiyanın rayon təşkilatı üzvlərinin YAP-ın rəhbərliyinə olan böyük hörmətinin, etibarının təcəssümü idi. Lənkəranda müasir idman kompleksi tikilməsinin nəzərdə tutulması ictimaiyyətin, xüsusən gənclərin böyük sevincinə səbəb oldu.

Yeni Azərbaycan Partiyası sıralarına bütün regionlarda yeni nəslin axını davam edir. İnamla demək olar ki, gələcəkdə də Yeni Azərbaycan Partiyasının üzvləri Azərbaycan dövlətçiliyinin qorunmasında, ictimai həyatımızın bütün sahələrinin inkişafı naminə aparılan bu böyük işlərdə dövlətimizin başçısına ləyaqətli dəstək olacaqlar.

Zati-aliləri, cənab prezident, möhtərəm sədrimiz! Görüşlərində olduğum çoxsaylı seçicilərin, Yeni Azərbaycan Partiyasının üzvlərinin adından və öz adımdan, çəkdiyiniz bu zəhmətlər üçün Sizə dərin təşəkkürümü bildirirəm. Vətənimizin daha da inkişafı naminə Sizə çansağlığı arzu edirəm. Çox sağ olun.

Çıxışımın sonunda diqqətinizə iki təklifimi təqdim edirəm. Birincisi, hesabat dövründə partiyanın fəaliyyəti qənaətbəxş hesab

edilsin. İkincisi, Yeni Azərbaycan Partiyasının bir çox rayonlarda keçirilmiş konfranslarının iştirakçısı kimi, həm konfrans nümayəndələrinin, həm də çoxsaylı partiya üzvlərinin arzu və istəyini nəzərə alaraq Sizə, Zati-aliləri, partiyamızın möhtərəm sədrinə və qurultaya təklif edirəm ki, partiya sədrinin müavini hörmətli İlham Əliyevin fəaliyyətini, həm ölkəmizin daxilində, həm də ölkədən xaricdə başımızı ucaltdığını nəzərə alıb, onun partiyadakı statusunu artırasınız.

Diqqətinizə görə təşəkkür edirəm.



## YENİ AZƏRBAYCAN PARTİYASININ ÜZVÜ, BAKI DÖVLƏT UNİVERSİTETİNİN TƏLƏBƏSİ BƏXTİYAR ƏSGƏROVUN ÇIXIŞI

Möhtərəm sədrimiz, çox hörmətli prezident Heydər Əliyev!

Hörmətli qurultay nümayəndələri!

Bü gün müstəqil Azərbaycanımızın həyatında özünəməxsus rolu olan Yeni Azərbaycan Partiyasının II Qurultayında mənə söz verdiyinizə görə özümü xoşbəxt hiss edirəm və sizə öz minnətdarlığımı bildirirəm.

Möhtərəm sədr!

Hörmətli qurultay iştirakçıları!

Azərbaycanın həyatında xüsusi yer tutmuş Yeni Azərbaycan Partiyası ölkəmizin müstəqilliyinin gerçəkləşməsi üçün əlindən gələni etmişdir. Yeni Azərbaycan Partiyasının Azərbaycanın həyatındakı xidmətləri misilsizdir. Bu gün onu qeyd etmək istəyirəm ki, bu partiya yaranan dövrdə mənim mənsub olduğum nəslin 8-10 yaşı vardı. Amma buna baxmayaraq, o dövr və onun çətinlikləri bizim yaxşı yadımızdadır. Təbiidir ki, o dövrdə gedən siyasi proseslərə biz qiymət verə bilməzdik. Amma bu gün universitet auditoriyalarında təkmilləşdikcə, milli və siyasi şüurumuz formalaşdıqca, cənab prezident, Azərbaycan üçün Sizin nə qədər böyük işlər gördüyünüzü bir daha anlayır, bir daha görürük. Bu gün mən cəsarətlə deyə bilərəm ki, xalqımızın yeni nəsilləri zaman-zaman Sizin bu işləriniz haqqında tədqiqatlar aparacaqlar, cild-cild kitablar yazacaqlar.

Bu gün qurultayda Yeni Azərbaycan Partiyası haqqında çoxlu fikirlər deyildi. Yeni Azərbaycan Partiyası haqqında gəncliyimizin fikri kimi mən də çox söz deyə bilərəm. Amma bunları ümumiləşdirmək istəyirəm. Yeni Azərbaycan Partiyası, öz lideri Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyini xilas etdi, qorudu, saxladı və əbədiləşdirdi.

Möhtərəm sədrimiz!

Hörmətli qurultay iştirakçıları!

Böyük Heydər Əliyevin müstəqil Azərbaycan üçün etdiklərini biz hamımız yaxşı bilirik. Amma bu gün Azərbaycan gəncliyi Heydər

Əliyevin çəkdiyi bu zəhmətləri çox yüksək qiymətləndirərək, misilsiz işlər kimi dəyərləndirir və bunları, yəni Heydər Əliyevin qazandığı dövlət müstəqilliyimizi, iqtisadi inkişafımızı və ölkəmizin həyatındakı bütün uğurları möhtərəm Heydər Əliyevin şah əsərləri hesab edir.

Bunun üçün mən gənclərimiz adından, cənab prezident, Sizə şəxsən minnətdarlığımı bildirirəm. Amma ən böyük minnətdarlığım ondan ibarətdir ki, Siz Azərbaycanımız üçün qətiyyətli, cəsarətli fəaliyyət göstərən və ölkəmizi beynəlxalq aləmdə inamla təmsil edən İlham Əliyev şəxsiyyətini xalqımıza bəxş etmisiniz.

Ötən il parlament seçkiləri ərəfəsində cənab İlham Əliyevin seçicilərlə çoxsaylı görüşləri hələ də bizim yadımızdadır. İlham Əliyevin siyasi səriştəsi, məntiqli, məzmunlu çıxışları, erudisiyası və ümumiyyətlə ölkəmizin iqtisadi və sosial həyatında oynadığı rol Azərbaycan xalqında ona dərin rəğbət oyatmışdır. Bu gün burada söylənilən fikirlərə əlavə olaraq mən bildirmək istəyirəm ki, ötən il cənab İlham Əliyev təhsil aldığım Bakı Dövlət Universitetinə də gəldi və orada çox məzmunlu, çox dəyərli nitq söylədi, tələbələrin, müəllimlərin çoxsaylı suallarına dərin məntiqli cavablar verdi. Bu, Bakı Dövlət Universitetinin tələbələrində ona daha böyük rəğbət oyatdı. Bu gün həmin rəğbəti, cənab İlham Əliyev, Sizə çatdırmaq istəyirəm.

Hörmətli Əli Əhmədovun məruzəsində, ondan sonrakı çıxışlarda hörmətli İlham müəllimin partiyamızdakı statusu məsələsinə toxunuldu. Bu gün mən də təmsil etdiyim gənclərin adından İlham Əliyevin Yeni Azərbaycan Partiyasında statusunun artırılması təklifi ilə çıxış edirəm. Sizdən xahişim odur ki, bu təklif qənaətbəxş hesab olunsun.

Möhtərəm cənab prezident!

Siz Azərbaycan üçün öz canınızı vermisiniz. Lakin bunu gözü götürməyənlər, bunu görməyənlər də var. Bu gün mən təmsil etdiyim gənclər adından deyirəm ki, müxalifət bizim hamımızın qarşısında ağa “qara“ deyir. Bu gün cəsarətlə deyə bilərəm ki, müxalifətin yersiz meydan çağırışlarına məhəl qoymayan və kompüter stolu arxasında əyləşərək Azərbaycan həqiqətlərini dünyaya çatdıran Azərbaycan gəncliyi Heydər Əliyev bayrağını əbədiyyətə qədər aparacaqdır.

Möhtərəm cənab prezident!



Hörmətli qurultay nümayəndələri!

Mən çıxışımı davam etdirə bilərəm. Amma vaxtın azlığından buna imkan olmadığı üçün, bir daha qeyd edirəm ki, bu gün burada söylənilən bütün fikirlər, Yeni Azərbaycan Partiyasına doğrudan da layiqdir. Bu mənada mən də qurultayın işini qənaətbəxş hesab edirəm. Qeyd etmək istəyirəm ki, doğrudan da, indiyədək görülən işlər, Azərbaycanın həyatındakı bu uğurlar ölkəmizin xoşbəxt gələcəyindən xəbər verir. Bu günə qədər görülən işlər və xalqımızın Yeni Azərbaycan Partiyasına münasibəti böyük Heydər Əliyevin həmişə işlətdiyi bu ifadədə öz əksini tapmışdır: Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır.

Möhtərəm prezident, mən çıxışımın sonunda vaxtilə Siz Naxçıvana gələrkən yazmış olduğum bir şeri demək istəyirəm. əlbəttə, o vaxt mənim 10 yaşım vardı. Gərək burada oturanlar məni bağışlasınlar ki, bu şer bir az qüsurlu ola bilər.

Heydər baba yardım əli uzadıb,
Tanrı səni bu xalq üçün yaradıb,
Bir gülsən ki, nə solub, nə saralıb.
Daim yaşar Azərbaycan oğlusan,
Sən bu xalqın düşüncəsi, ağlısan.

Heydər baba, bu xalq mətindir, mətin.
Əyilməzdir sənin qəddin, qamətin,
El üçündür ancaq işin, xidmətin.
Sən bu xalqın qayğısına qalırsan,
El yolunda bir şam kimi yanırsan.

Heydər baba, həm zirvəsən, həm aran,
Düşmən qarşısında sipərtək duran,
Azərbaycan adlı bir dövlət quran
Böyük Əcəmisən, memarsan, inan,
Bu xalqın önündə əbədi dayan!

*Yaşasın müstəqil Azərbaycan!*
*Yaşasın Yeni Azərbaycan Partiyası!*
*Yaşasın böyük Heydər Əliyev!*

Möhtərəm sədr!

Hörmətli qurultay nümayəndələri!

İcazə verin, bu gün işıq üzü görmüş bir kitabın – "Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu" adlı kitabın ilk nüsxəsini Azərbaycanın dəyərli oğlu, gələcək lideri İlham Əliyevə təqdim edim.



## YENİ AZƏRBAYCAN PARTİYASININ ÜZVÜ, MİLLİ MƏCLİSİN DEPUTATI GÜLMƏT PİRMƏTOVUN ÇIXIŞI

Cənab sədr, möhtərəm prezident!

Hörmətli qurultay nümayəndələri!

İcazə verin, öncə Sizi Yeni Azərbaycan Partiyasının 9-cu ildönümü münasibətilə təbrik edim, sizə uzun ömür, cansağlığı və doğma Azərbaycanımızın parlaq gələcəyi naminə siyasi fəaliyyətinizdə uğurlar diləyim.

Cənab sədr, Sizi əmin edirəm ki, Heydər Əliyev ideyaları uğrunda mübarizə aparmaq bizim üçün, hər bir Yeni azərbaycançı üçün böyük şərəfdir. Biz bu şərəfli işi Sizin adınıza layiq aparmağa çalışmışıq və bundan sonra da var gücümüzlə çalışacağıq.

1990-1993-cü illərdə Azərbaycanda yaranmış ağır ictimai-siyasi durum xalqın düşünən beyinlərini bir daha fikirləşməyə vadar etdi. Ağır vəziyyətdə olan xalqımız sınanmış liderinə üz tutdu. Həmin dövrdə Naxçıvanda həyata keçirdiyiniz tədbirlərlə bir daha göstərdiniz ki, Azərbaycanda siyasi sabitliyə, milli həmrəyliyə, müstəqil dövlət qurmağa, xalqın iqtisadi-sosial durumunu yaxşılaşdırmağa, Azərbaycana beynəlxalq aləmdə nüfuz qazandırmağa yalnız Heydər Əliyev nail ola bilər. Ona görə də o illərdə "Xalq-Heydər" birliyi öz sarsılmazlığını və möhtəşəmliyini ilk dəfə olaraq yeni tarixi şəraitdə sübut etdi. Xalq Sizin ətrafınızda birləşərək milli-siyasi həmrəyliyə nail oldu və Yeni Azərbaycan Partiyası yarandı.

Artıq doqquz ildir ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında uğurla fəaliyyət göstərir.

Bu doqquz ildə Yeni Azərbaycan Partiyası sübut etmişdir ki, o, demokratik prinsiplərə söykənən, daim Azərbaycanın dövlət müstəqilliyinin qorunmasına çalışan mütərəqqi bir partiyadır. Azərbaycanın tarixi köklərinə, milli-mənəvi dəyərlərinə söykənərək, ümumbəşəri dəyərlərdən bəhrələnən Yeni Azərbaycan Partiyası dinamizminə, siyasi tutumuna və ictimai yükünə görə siyasi opponentlərini kölgədə qoyaraq, ümumxalq partiyasına çevrilmişdir.

Səkkiz ildir ki, Azərbaycan xalqının böyük əksəriyyətinin birmənali olaraq dəstəklədiyi Yeni Azərbaycan Partiyası iqtidardadır. Yeni əsrə, üçüncü minilliyə xalqımız Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə, sabitlik, əmin-amanlıq və sülh şəraitində qədəm qoymuşdur. AXC-Müsavat hakimiyyətindən xalqa miras qalmış anarxiya, etnik və milli zəmində ziddiyyətlər, hakimiyyət uğrunda silahlı münaqişələr aradan qaldırılmış və ölkədə iqtisadi tərəqqiyə nail olunmuşdur. Yürüdülən məqsədyönlü siyasət Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna müsbət təsir göstərmişdir. Ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinə məhz Heydər Əliyev siyasəti nəticəsində dünyanın super dövlətlərinin münasibəti dəyişmiş, dünya təcavüzkarı tanımışdır. Ən nəhayət, Azərbaycan Avropa Şurasına bərabər hüquqlu üzv qəbul edilmiş, "Avropa evi"nin sakini olmuşdur.

Hazırda respublikamızda demokratik islahatların həyata keçirilməsi dərinləşir, xalqın sosial rifahı gündən-günə yaxşılaşır, elm, təhsil, səhiyyə, mədəniyyət sahəsində nailiyyətlərimiz daha aydın şəkildə hiss olunur.

Möhtərəm prezidentimizin "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı, milli-mənəvi dəyərlərimizin qorunması ilə əlaqədar bəyanatı isə tarixi köklərimizə qayıdışımızdan, mənəvi dəyərlərimizin, tariximizin, dilimizin bərpasından xəbər verir. Hörmətli qurultay iştirakçılarının nəzərinə onu da çatdırmaq istəyirəm ki, Azərbaycanın hələ 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması haqqında müddəa məhz Heydər Əliyev qətiyyəti sayəsində öz əksini tapmışdı.

Cənab sədr! Partiyanın I Qurultayındakı tarixi nitqinizdə qarşımıza qoyduğunuz proqram səciyyəli tövsiyə və vəzifələr, hörmətli İlham Əliyevin sədr müavini seçilməsi partiyamızın sonrakı fəaliyyətinə güclü təkan verdi. Qabaqcıl ziyalıların, elm və mədəniyyət xadimlərinin, gənclərin partiyaya axını yeni vüsət aldı. Hələ 1998-ci ildə YAP gənclərinin forumundakı nitqində İlham Əliyev gənclər qarşısında duran vəzifələrdən danışmış, Azərbaycan gəncliyinin xoşbəxt gələcəyini təmin etmək üçün partiyanın bütün potensialından istifadə etməyin zəruriliyini göstərmişdir. Bu görüşdə Azərbaycan gəncləri İlham Əliyevin timsalında özlərinin liderini görmüş, ona inanmış və etimad göstərmişlər.



İlham Əliyevin sonrakı fəaliyyəti sübut etmişdir ki, o, təkcə gənclərin deyil, bütün xalqın lideri olmağa mənəvi haqqı olan, Heydər Əliyev siyasətini layiqincə davam etdirən siyasi və dövlət xadimidir.

Yeni Azərbaycan Partiyası 2000-ci ilin parlament seçkilərinə YAP-ın sədr müavini İlham Əliyevin başçılığı ilə qatıldı və uğurlu qələbə qazandı.

İdmançılarımız məmləkətin gənclik rəmzi olan İlham Əliyevin xüsusi xidmətləri sayəsində 2000-ci il Sidney Olimpiadasında uğurlu çıxış edərək 2 qızıl və 1 bürünc medal qazandılar. Dünya Azərbaycanın dövlət himnini ayaqüstə dinlədi, üçrəngli, ay-ulduzlu bayrağımız yüksəyə qaldırıldı.

ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev Azərbaycan xalqının gələcək rifahını təmin edəcək böyük neft strategiyasının müəyyənləşdirilməsində, həyata keçirilməsində fəal iştirak etdi.

Millət vəkili İlham Əliyevin başçılığı ilə nümayəndə heyətimiz Avropa Şurasında uğurlar qazandı. Onun Avropa Şurasının Parlament Assambleyasında mükəmməl çıxışı və erməni terrorçularını ifşa etmək üçün tarixi faktlara əsaslanaraq verdiyi birmənalı, kəskin bəyanat Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artırdı.

Beləliklə, fəxrlə bildirirəm ki, sədr müavinimiz İlham Əliyev həm də sübut etdi ki, o, müasir dünya siyasətində yüksək səviyyədə qəbul edilən şəxsiyyət və dövlət xadimidir.

Cənab sədr!

Hörmətli qurultay nümayəndələri!

Mən bu gün, bu möhtəşəm tədbirdə Qusar rayonunun YAP-çılarını təmsil edirəm.

YAP-ın Qusar rayon təşkilatı öz prinsipiallığı ilə yanaşı, partiyamızın yaradıcısı, əzəli, əbədi sədri, xalqımızın müdrik rəhbəri Heydər Əliyevə hədsiz sevgisi, dərin məhəbbəti və sədaqəti ilə seçilən, bu keyfiyyətləri zamanın müxtəlif anlarında təsdiqləyən bir təşkilatdır.

Bununla belə, qeyd etmək istəyirəm ki, Azərbaycan iqtidarına, bir çox hallarda isə Azərbaycan xalqına müxalif qüvvələr tərəfindən ölkədaxili sabitliyin pozulmasına, dövlət quruculuğu proseslərinə mane olmağa, iqtidarın uğurlarına kölgə salmağa, Azərbaycanın beynəlxalq nüfuzuna zərbə vurmağa yönələn cəhdlər davam etməkdədir.

Son zamanlar respublikanın ictimai-siyasi həyatında praktiki olaraq siyasi iflasa uğramış Ədalət, Müsavat, Sosial-demokrat, ADP kimi bir sıra müxalifət partiyaları Azərbaycanın şimal bölgəsində qeyri-qanuni yollarla fəaliyyətlərini genişləndirməyə cəhd göstərirlər, özlərini respublikamızda yaşayan "azsaylı xalqların hüquqlarının müdafiəçisi" kimi qələmə verərək, xalqı aldatmaqla məşğuldurlar. Sözsüz ki, rayon ictimaiyyəti tərəfindən onların bu qeyri-qanuni əməllərinin qarşısı alınır. Mən isə sual etmək istərdim: Necə oldu ki, vaxtilə ədliyyə naziri, respublikanın baş prokuroru kimi mühüm vəzifələrdə işləyəndə azsaylı xalqlar İlyas İsmayılovun və digərlərinin heç yadına da düşmürdü?

Tarix boyu sözün əsl mənasında bir ailədə yaşamış Azərbaycan xalqını türkə, talışa, ləzgiyə, yəhudiyə bölənlər bu gün hansı üzlə azsaylı xalqların dəstəyini qazanmaq istəyirlər? Bu isə mümkün deyildir.

Çünki nəinki şimalda, respublikanın bütün bölgələrində xalq bu adamların – vəzirovların, mütəllibovların, isa qəmbərlərin, AXC-Müsavat hakimiyyətinin səriştəsizliyinin, "demokratiya", "xalq hərəkatı" adı altında Azərbaycanı parçalamaq niyyətlərinin, ayrı-ayrı bölgələrdə bir qrup əlaltıları ilə onların törətdikləri vəhşiliklərin şahidi olmuş və heç bir şey unudulmamışdır.

Cənab sədr, möhtərəm prezident! Qusarlılar yaxşı başa düşürlər ki, hər bir Azərbaycan vətəndaşının, o cümlədən, bütün azsaylı xalqların hüquqlarının yeganə qoruyucusu, müdafiəçisi Sizsiniz və müəllifi olduğunuz Azərbaycan Respublikasının Konstitusiyasıdır. Onlar özlərinin, balalarının gələcək xoşbəxtliyini məhz Heydər Əliyevin və onun ideyalarının ətrafında daha sıx birləşməkdə görürlər. Məhz Sizin yaratdığınız əmin-amanlıq, sabitlik şəraitində heç bir "hüquq müdafiəçisi"nə qusarlıların ehtiyacı yoxdur. Qusar Azərbaycanın ayrılmaz bir hissəsi, qusarlılar isə bu ölkənin tamhüquqlu vətəndaşlarıdır.

Hörmətli qurultay nümayəndələri! Qarşıda bizi daha ciddi sınaqlar, fəth olunmalı daha yüksək zirvələr gözləyir. Partiyamızın işini daim təkmilləşdirməli, sıralarımızı isə əqidəcə möhkəm, Azərbaycan dövlətçiliyinə, Heydər Əliyev ideyalarına sadiq ziyalılar, xüsusilə gənclər hesabına genişləndirməliyik. Yeni Azərbaycan Partiyası bütün sınaqlardan və mübarizələrdən üzüağ çıxmış və çıxacaqdır.



Cənab sədr, möhtərəm Prezident!

Qurultay nümayəndəsi kimi mən Sizi rayonumuzun bütün YAP-çıları adından, millət vəkili kimi isə bütün qusarlılar adından əmin edirəm ki, biz həmişə Sizinləyik. Sizin ideyalarınız şüarımız, şəxsiyyətiniz – idealımız, dövlətçilik simvolumuzdur.

Çıxışımın sonunda partiyanın hesabat dövründəki işini qənaətbəxş hesab edirəm.

*Yaşasın müstəqil Azərbaycan dövlətinin qurucusu möhtərəm Heydər Əliyev!*

Diqqətinizə görə sağ olun!

# YENİ AZƏRBAYCAN PARTİYASININ II QURULTAYININ

## QƏTNAMƏSİ

Yeni Azərbaycan Partiyasının II Qurultayı Partiyanın Sədri, Cənab Heydər Əliyevin dərin məzmunlu, proqram xarakterli nitqini, hesabat məruzəsini və müzakirələr zamanı irəli sürülən fikir və təklifləri ümumiləşdirərək qeyd edir ki, tarixi zərurətdən yaranmış Yeni Azərbaycan Partiyası zamanın bütün sınaqlarından uğurla çıxmış, hesabat dövründə Nizamnamə və Proqram sənədlərindən irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.

Qurultaylararası dövrdə partiya Azərbaycanın ictimai-siyasi həyatında yaxından və fəal iştirak etmiş, xalqın və dövlətin qarşısında duran ümdə vəzifələrin yerinə yetirilməsində öz imkanlarından səmərəli şəkildə istifadə etmişdir.

II Qurultay Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkənin inkişafı, xalqın rifahının yaxşılaşması, iqtisadiyyatın yüksəlişi naminə həyata keçirdiyi fəaliyyəti yüksək qiymətləndirir, Azərbaycanın tərəqqisi yolunda onun göstərdiyi əvəzsiz xidmətləri böyük minnətdarlıq hissi ilə qeyd edir.

Qurultayda deyildiyi kimi, Heydər Əliyevin Azərbaycan xalqının milli və dövlət maraqlarına cavab verən siyasəti nəticəsində partiyamız ümumxalq, ümumazərbaycan partiyasına çevrilmiş, yeni tarixi inkişaf mərhələsinə qədəm qoyan ölkəmizdə özünün proqramında irəli sürülən «Yeni, müstəqil Azərbaycan uğrunda» ideyasını faktiki olaraq gerçəkləşdirmiş və müstəqilliyimizin əbədiliyi, dönməzliyi, sarsılmazlığı təmin edilmişdir. I Qurultaydan keçən müddət ərzində partiyanın üzvlərinin sayının 70.000 nəfər



artaraq, hazırda 230 min nəfərə çatması faktı II Qurultay tərəfindən müsbət qiymətləndirilmişdir.

Qurultayda səslənən çıxışlardan bir daha aydın olmuşdur ki, hər bir soydaşımızın dinc, firəvan həyatının təmin edilməsi, hüquq və azadlıqlarının qorunması, xalqın maddi rifahının yüksəlməsi, qərarlaşmış ictimai-siyasi və maliyyə-iqtisadi sabitliyin qorunub saxlanması ölkə rəhbərliyinin həyata keçirdiyi davamlı siyasətin məntiqi nəticəsidir.

Partiyanın II Qurultayı nəzərə çatdırır ki, Vətənimizin və xalqımızın mənafeyinin qorunması, ölkənin milli və iqtisadi təhlükəsizliyinin təmin edilməsi, vətəndaş sülhünün bərqərar olması, keçid dövrünün ağrılı problemlərinin aradan qaldırılması, demokratik dövlət quruculuğu təsisatlarının formalaşması, islahatların dərinləşməsi iqtidarın yürütdüyü siyasətin tərkib hissəsi, ana xətti olmuşdur. Qurultay Ermənistan-Azərbaycan,Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində görülən işlərin, beynəlxalq təşkilatlarda bu yöndə aparılan müzakirələrin və onların nəticələrinin Azərbaycanın milli maraqlarına cavab verdiyini bir daha qeyd edərək, xalqımızın üzləşdiyi bu problemin Prezident Heydər Əliyev tərəfindən aradan qaldırılacağına əminliyini ifadə edir. Qurultay iqtidarın həyata keçirdiyi məqsədyönlü xarici siyasət xəttinin əməli nəticə verdiyini qeyd etməklə, vaxtı ilə Azərbaycana qarşı ədalətsiz olaraq ABŞ Konqresində qəbul edilmiş 907-ci düzəlişin bu günlərdə aradan qaldırılmasını Heydər Əliyev diplomatiyasının növbəti uğuru sayır.

Prezident Heydər Əliyevin yaradıcı əməyinin məhsulu olan neft strategiyası iqtisadi səmərə ilə bərabər, həm də Şərq və Qərbin qovşağında yerləşən ölkəmizin müstəqil dövlət kimi mövqeyini daha da möhkəmləndirmiş, Azərbaycanı dünya birliyinin tərkib hissəsinə çevirmişdir.

Azərbaycanın Avropa Şurasına qəbul edilməsi ölkəmizin beynəlxalq əlaqələrini möhkəmləndirmiş, qlobal siyasi proseslərdə yaxından iştirakı üçün daha geniş şərait yaratmış, dünya birliyinə inteqrasiyasının genişlənməsinə, müstəqil Azərbaycanın nüfuzunun daha da artmasına təkan vermişdir. Avropa Şurası Par-

lament Assambleyasının sessiyalarında partiyanın sədr müavini İlham Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə heyətinin geniş və çoxşaxəli fəaliyyətini partiyanın hər bir üzvü, hər bir azərbaycanlı yüksək dəyərləndirir, bu uğurlara sevinir.

2000-ci ildə Milli Məclisə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının parlaq və inamlı qələbəsini qurultaylararası dövrün ən böyük siyasi hadisəsi kimi qiymətləndirən II Qurultay, bu qələbənin əldə edilməsini Yeni Azərbaycan Partiyasının sədri, cənab Heydər Əliyevin həyata keçirdiyi siyasətin xalq tərəfindən böyük dəstək qazanması və müdafiə olunmasının nəticəsi hesab etməklə, eyni zamanda bu yöndə uğurların qazanılmasında Yeni Azərbaycan Partiyasının Sədr müavini, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı hörmətli İlham Əliyevin partiyanın proporsional siyahısına başçılıq etməsi və seçki kampaniyası gedişində onun geniş və səmərəli fəaliyyəti ilə bilavasitə əlaqədar olduğunu vurğulayır. Parlament seçkiləri kampaniyası gedişində yüz minlərlə seçici qarşısında İlham Əliyevin qətiyyətli, məntiqli, praqmatik çıxışları xalqa onu Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi daha yaxından tanıtmışdır.

Yeni Azərbaycan Partiyası indiyədək ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində iştirak edərək xalqın böyük dəstəyini qazanmışdır. Qurultaydakı çıxışlarda belə bir inamlı fikir vurğulanmışdır ki, 2003-cü ildə keçiriləcək prezident seçkilərində xalqımız müstəqil dövlətimizin banisi və qurucusu, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti görmək istəyini ifadə edəcəkdir. Həmin seçkilərə yüksək səviyyədə hazırlaşmaq, Heydər Əliyev siyasi xəttinin xalqın bu gününün və gələcəyinin ən etibarlı təminatçısı olduğunu bir daha nümayiş etdirmək qurultayımızın partiya qarşısında müəyyənləşdirdiyi mühüm vəzifələrdən biridir.

Yeni Azərbaycan Partiyasının II Qurultayı partiyanın Siyasi Şurasının, İdarə Heyətinin və İcra Katibliyinin hesabat dövründəki fəaliyyətini hərtərəfli şəkildə təhlil edərək və yeni dövr üçün qarşıda duran başlıca vəzifələri müəyyənləşdirərək qərara alır:

- Hesabat dövründə partiyanın Siyasi Şurasının və İdarə Heyətinin fəaliyyəti qənaətbəxş hesab edilsin;



- Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu, Yeni Azərbaycan Partiyasının Sədri cənab Heydər Əliyevin müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, onu bölgənin və dünyanın ən güclü, qüdrətli və zəngin dövlətləri sırasına çıxarmaq məqsədi daşıyan siyasəti bəyənilsin, partiyanın hər bir üzvü bu siyasətin yerinə yetirilməsi işinə səfərbər edilsin;
- Hazırki siyasi kursun davamı olaraq həyata keçirilməsini təmin etmək, habelə xalqın ümumi istək və iradəsini ifadə edərək və ümumxalq mənafelərini rəhbər tutaraq 2003-cü ildə keçiriləcək Prezident seçkisində Heydər Əliyev növbəti dəfə Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə xalqın mütləq əksəriyyətinin dəstəyini qazanmağa layiq olan yeganə namizəd kimi irəli sürülsün;
- Partiyanın qarşıdan gələn müddətdə fəaliyyətində 2003-cü ilin prezident seçkisinə hazırlıq başlıca vəzifə kimi müəyyənləşdirilsin, seçkinin yüksək səviyyədə keçirilməsini təmin etmək üçün konseptual xarakterli, təşkilati və ideya-təbliğat tədbirləri işlənib hazırlansın;
- Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyev tərəfindən həyata keçirilən daxili və xarici siyasətin, sosial-iqtisadi islahatların, bütün bu sahədə əldə edilmiş uğurların məzmun və mahiyyəti xalqın geniş təbəqələrinə əsaslı və hərtərəfli şəkildə izah edilsin və bu istiqamətdə təbliğati işlər daha da gücləndirilsin;
- İdeoloji işin forma və metodlarının daim təkmilləşdirilməsi, bu işin cəmiyyətin tələblərinə, müstəqil, demokratik, dünyəvi və hüquqi dövlət quruculuğunun artan vəzifələrinə uyğun gələn, keyfiyyətcə yeni səviyyəyə qaldırılması əsas vəzifələrdən biri sayılsın;
- Kütləvi İnformasiya Vasitələrində partiyanın fəaliyyətinin daha geniş formada işıqlandırılmasına və mətbuatda iqtidarın siyasi xəttinin təbliğinə diqqət artırılsın;
- Ümummilli və ümumdövlət maraqlarını hər şeydən üstün tutan iqtidarın fəaliyyətinə kölgə salmağa cəhd göstərən, Azərbaycanın nüfuzuna zərbə vuran, xalqın milli birliyinə mane olan dağıdıcı müxalifətin məkrli niyyətlərini və bəd əməllərini ifşa

etmək üçün media və televiziyanın imkanlarından daha geniş istifadə olunsun; destruktiv dairələrə qarşı mübarizə hücumçu formada və ardıcıl olaraq aparılsın;

- Toplanmış təcrübədən istifadə olunmaqla, istər partiya üzvlərinin, istərsə də ümumilikdə vətəndaşların milli-mənəvi dəyərlər zəminində formalaşması işinin daha da yaxşılaşdırılması təmin edilsin; respublikamızda təşəkkül tapmış mənəvi tərbiyə sisteminin bütün imkanlarından bacarıqla istifadə edilsin, milli-mənəvi dəyərlərimizə zidd olan bütün təzahürlərə qarşı partiya təşkilatlarının mübarizəsinin gücləndirilməsi təmin edilsin;

- İqtidarın siyasətini müdafiə edən ictimai-siyasi təşkilatlar və onları özündə birləşdirən qurumlarla əlaqələr daha yüksək səviyyəyə qaldırılsın;

- Cəmiyyətin müxtəlif təbəqələrinin ən fəal nümayəndələrinin partiyaya qəbulu hesabına sıralarımızın daha da genişləndirilməsi xəttini davam etdirməklə yanaşı partiyaya üzvlərin qəbulunda tələbkarlıq daha da gücləndirilsin, kampaniyaçılıq və formalizm qəti şəkildə aradan qaldırılsın, təşkilatlarda tənqid və özünütənqid mühiti bundan sonra da gücləndirilsin;

- İlk təşkilatların fəaliyyəti daim diqqət mərkəzində saxlanılsın, onların yuxarı partiya orqanları ilə əlaqələri genişləndirilsin. Rayon (şəhər) ilk təşkilatları fəallarının mütəmadi olaraq ümumrespublika treninqlərində partiya işinin təkmilləşdirilməsi üçün təcrübə keçməsi təşkil olunsun, partiya maarifçilik işi gücləndirilsin;

- Mərkəzi Nəzarət-Təftiş Komissiyası bütün partiya üzvlərinin Nizamnamə tələblərinə ciddi əməl etməsinə nəzarəti daha da gücləndirsin, qəbul olunmuş qərarlara müvafiq olaraq vaxtaşırı tədbirlər keçirsin;

- Partiyanın maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, rayon (şəhər) təşkilatlarının qərargahlarının müasir avadanlıq və vəsaitlə təmin olunması istiqamətində görülmüş işlər davam etdirilsin;

- Gənclərlə işin daha da təkmilləşdirilməsi, Heydər Əliyev siyasi məktəbinin layiqli davamçılarının hazırlanması məqsədi ilə Heydər Əliyev məktəbinin fəaliyyəti gücləndirilsin. Şəhər və rayon



təşkilatlarının Qadınlar Şuralarının fəaliyyətinin təkmilləşdirilməsinə diqqət artırılsın;

- Prezident Heydər Əliyevin qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşması ilə əlaqədar qəbul etdiyi qərarlar, sərəncam və fərmanlardan irəli gələn vəzifələri həyata keçirmək üçün onların problemlərini öyrənmək, yardım göstərmək məqsədilə çadır şəhərciklərində və yataqxanalarda məskunlaşan, ağır vəziyyətdə yaşayan soydaşlarımızla görüşlər bundan sonra da ardıcıl olaraq davam etdirilsin;

- Partiyanın ləyaqətli üzvlərinin, o cümlədən qadınların və gənclərin irəli çəkilməsinə, öz bacarıq və imkanlarına uyğun cəmiyyətdə yer tapmasına qayğı və diqqət daha da artırılsın;

- Partiyanın beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində fəaliyyəti gücləndirilsin, müxtəlif beynəlxalq institut və fondlarla əməkdaşlıq daha da inkişaf etdirilsin, birgə tədbirlərin keçirilməsi təşkil olunsun; xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizlə əlaqələrin daha sıx şəkildə qurulması yönündə fəaliyyət gücləndirilsin;

- II Qurultayın materiallarının öyrənilməsi, ictimaiyyətə daha geniş şəkildə çatdırılması və təbliği Siyasi Şura, İdarə Heyəti və İcra katibliyi qarşısında bir vəzifə olaraq qoyulsun;

- Yeni Azərbaycan Partiyasının on illiyinə hazırlıqla əlaqədar tədbirlər planı hazırlansın, partiyanın keçdiyi şərəfli yola həsr olunmuş kitab, broşüra və digər poliqrafiya vəsaitlərinin dərc olunması təşkil edilsin.

## YENİ AZƏRBAYCAN PARTİYASI II QURULTAYININ AZƏRBAYCAN XALQINA

## M Ü R A C İ Ə T İ

Əziz həmvətənlər!

Azərbaycanın ictimai-siyasi mühitində əhəmiyyətli və özünəməxsus yeri olan Yeni Azərbaycan Partiyasının II Qurultayı xalqımızın, partiyamızın həyatı üçün vacib və zəruri qərarların qəbul edilməsi ilə öz işini başa çatdırmışdır. Qurultayda partiyanın Sədri, müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu, Prezident Heydər Əliyevin dərin məzmunlu, Proqram səciyyəli nitqində ölkəmizdə və dünyada baş verən ictimai-siyasi hadisələr geniş şəkildə öz əksini tapmışdır. Müstəqil Azərbaycan dövləti ilə eyni zamanda formalaşan və fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi xalqımızın yaxın tarixinin mürəkkəb, ziddiyyətli və eyni zamanda, şərəfli hadisələrlə zəngin bir dövrünü yaşamışdır. Yeni Azərbaycan Partiyası xalqımızın, onun sağlam qüvvələrinin ali ideallarının təcəssümü kimi yaranmış və fəaliyyət göstərdiyi doqquz il ərzində bütün qüvvə və enerjisini xalqa xidmətə yönəltmişdir.

Yeni Azərbaycan Partiyasının II Qurultayı dövlət müstəqilliyimizin onuncu ildönümünə təsadüf edir. Ötən əsrin sonlarında Azərbaycanın müstəqilliyinin bərpa olunması xalqımızın tarixi nailiyyətidir. Müstəqilliyimizin ilk illərində qarşılaşdığımız problemlər, üzləşdiyimiz faciələr hər birimizin yaxşı yadındadır. Həmin dövrdə hakimiyyəti ələ keçirmiş dairələrin səriştəsiz, səbatsız və xəyanətkar əməlləri nəticəsində ölkəmiz ağır böhrana məruz qalmış, torpaqlarımızın bir hissəsi təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş, faktiki olaraq müstəqil dövlətimizin itirilməsi təhlükəsi, ölkədə vətəndaş qarşıdurması son həddə çatmışdı. Məhz belə ağır və gərgin vaxtda, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı və onun qısa zaman kəsiyində həyata keçirdiyi müdrik siyasət, ölkəmizi ağır böhrandan və labüd iflasdan xilas etdi. Prezident Heydər Əliyevin siyasi qətiyyəti ilə dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınması, xalqın öz liderinə və müstəqilliyə olan inamını möhkəmləndirdi, dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsinə müsbət təsir göstərdi. Hərb cəbhəsində atəşkəsin əldə edilməsi, neft strategiyasının əsasını qoyan «Əsrin müqaviləsi»nin imzalanması, müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbul edilməsi, həyata keçirilən siyasi, hüquqi, iqtisadi xarakterli islahatlar Azərbaycanda ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, milli birliyin, iqtisadi inkişafın möhkəm bünövrəsini yaratdı. Bütün çətinliklərə və problemlərə baxmayaraq, xalqımız ümummilli liderimiz Heydər Əliyev siyasəti sayəsində özünün istiqlalını, dövlətçiliyini qoruyub saxladı və yeni əsrə müstəqil dövlət kimi daxil oldu.

Əziz həmvətənlər!

Qədəm qoyduğumuz XXI əsr, böyük və qlobal miqyaslı dəyişikliklərin bütün dünya dövlətlərini əhatə etməsi ilə müşahidə olunmaqdadır. Bu gün artıq dünyamız ideoloji əsaslara görə qütbləşməni rədd edərək bəşəriyyəti gözləyən ortaq təhlükələrə qarşı birləşməkdə, sivilizasiyalı dünyanın indiki tarixi mərhələdə sahib olduğu demokratik və mədəni dəyərləri rəhbər tutaraq beynəlxalq terrorizm, nüvə silahlarının yayılması, ekoloji fəlakət kimi ümumbəşəri problemlər qarşısında vahid cəbhə təşkil etməkdədir. Hazırda müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikası dünyada baş verən dəyişikliklərdən kənarda qalmamış, sülh, inteqrasiya, əməkdaşlıq, demokratikləşmə prosesində yaxından iştirak edərək beynəlxalq birliyin tərkib hissəsinə çevrilmişdir.

Ötən illər ərzində ölkəmizdə əhəmiyyətli və fundamental islahatlar həyata keçirilmiş və bu prosesdə cəmiyyətin avanqard qüvvəsi kimi Yeni Azərbaycan Partiyası fəal rol oynamışdır. Yeni Azərbaycan Partiyasının əsaslandığı ideoloji prinsiplər ölkəmizdə demokratik ictimai-siyasi fikrin formalaşmasında çox mühüm yer tutur. Azərbaycanda son illərdə cərəyan edən hadisələr aydın şəkildə göstərmişdir ki, xalqımızın ümummilli məsələlərinin həll olunması Yeni Azərbaycan Partiyasının siyasi məramı ilə üzvi şəkildə bağlıdır.

Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası qarşısına qoyduğu məqsəd və vəzifələri uğurla yerinə yetirir. Ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri Azərbaycanın dünyəvi, hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inamla addımladığını bütün dünyaya bir daha sübut etmişdir. Bu seçkilər həm də xalqın Heydər Əliyev siyasi kursuna, Yeni Azərbaycan Partiyasının Proqramında təsbit olunmuş müddəalara inamının təsdiqinə çevrilmişdir. 2000-ci ilin noyabrında Milli Məclisə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının inandırıcı qələbəsi ictimai-siyasi həyatımızın ən yadda qalan, mühüm və əhəmiyyətli hadisələrindən biri olmuşdur.

Ötən müddət ərzində iqtisadi sahədə gənc Azərbaycan dövləti, çox böyük uğurlar qazanmışdır. Ölkə iqtisadiyyatına qoyulan investisiyanın həcmi genişlənməkdə, xarici ticarətin dövriyyəsi ildən-ilə yüksəlməkdədir. Yalnız son beş il ərzində ümumi daxili məhsulun həcmi 57 faiz artmışdır. Düzgün iqtisadi strategiya nəticəsində respublikamızda maliyyə-iqtisadi sabitliyə nail olunmuş, bazar iqtisadiyyatına keçidlə bağlı lazımi hüquqi və iqtisadi baza yaradılmış, müvəffəqiyyətlə həyata keçirilən özəlləşdirmə proqramı iqtisadiyyatımızın tərəqqisinə öz müsbət təsirini göstərmişdir.

Mühüm siyasi və iqtisadi əhəmiyyət kəsb edən torpaq islahatı nəticəsində kənd təsərrüfatı durğunluqdan çıxa bilmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Əldə edilmiş nailiyyətlər bizə yaxın gələcək üçün Azərbaycan iqtisadiyyatının mümkün perspektivləri haqqında nikbin proqnozlar verməyə,



ölkəmizin keçid dövrünün ağır və mürəkkəb mərhələsini arxada qoyduğunu söyləməyə imkan verir. Belə ki, 2010-cu ilə qədər ölkə iqtisadiyyatına qoyulacaq investisiyanın ümumi həcmi 5 dəfəyə qədər artaraq 30 milyard dollara, dövlət büdcəsinin gəlirləri isə 4 dəfəlik artımla 15 trilyon manata çatacaqdır.

Respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin uğurları beynəlxalq maliyyə qurumlarında ölkəmizə inamı daha da artırmış, onun nüfuzu xeyli yüksəlmişdir. Bu gün Azərbaycan Respublikası etibarlı tərəfdaş kimi beynəlxalq maliyyə qurumları ilə – Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam İnkişaf Bankı və digər maliyyə təşkilatları ilə əlaqələrini getdikcə genişləndirir. İpək Yolu, TRASEKA, Bakı-Ceyhan neft, Bakı-Ərzurum qaz kəmərləri layihələrinin reallaşacağı günlərin yaxınlaşması, Prezident Heydər Əliyevin neft strategiyasının Azərbaycana verdiyi iqtisadi, siyasi, mənəvi səmərə iqtidarın düzgün siyasətinin məntiqi nəticəsidir.

Keçid dövrünün problemlərinə baxmayaraq son illərdə xalqımızın həyat səviyyəsi yaxşılaşmış, dövlət büdcəsindən maliyyələşən sahələrdə əmək haqları dəfələrlə artırılmışdır. Prezident Heydər Əliyevin iqtisadi siyasətində vətəndaşların sosial müdafiəsi önəmli yerlərdən birini tutur. Ötən illər ərzində əhalinin aztəminatlı hissəsinə dövlət yardımının artırılması, kasıblığın aradan qaldırılması, eyni zamanda işğala məruz qalmış ərazilərimizdən məcburən çıxarılmış soydaşlarımızın sosial vəziyyətini yaxşılaşdırmaq üçün əsaslı addımlar atılmışdır. Son iki il ərzində bununla əlaqədar olaraq dövlət başçısının verdiyi fərman və sərəncamlar bu yöndə həyata keçirilən siyasətin bariz nümunəsidir. Bütün bunlarla yanaşı, əlbəttə ölkəmizin sosial-iqtisadi həyatı ilə bağlı həllini gözləyən bir sıra məsələlər qalmaqdadır. Bəzi obyektiv səbəblərin doğurduğu bu çətinliklərin tezliklə aradan qaldırılacağına heç bir şübhəmiz yoxdur. Ölkə iqtisadiyyatında yaradılmış güclü baza bizə bunu söyləməyə əsas verir.

Prezident Heydər Əliyevin siyasətində elm, mədəniyyət və incəsənətə qayğı hər zaman mühüm yerlərdən birini tutmuşdur. Son illərdə xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanılması, Azərbaycan dilinin daha geniş şəkildə tətbiqi, milli

mədəniyyət və incəsənətin yaşadılması, inkişaf etdirilməsi, təbliğ olunması istiqamətində mühüm qərarlar qəbul edilmişdir. Latın qrafikasına keçidlə əlaqədar atılan addım Azərbaycanın elm və mədəniyyətinin dünyaya inteqrasiyasına, çağdaş sivilizasiyanın elmi-mədəni nailiyyətlərinin mənimsənilməsinə geniş imkanlar açmışdır. Bütün bu nailiyyətlərin əldə edilməsində iqtidar partiyası kimi Yeni Azərbaycan Partiyasının özünəməxsus yeri və rolu vardır.

Əziz soydaşlar!

Hazırda müstəqil dövlətimiz dünyanın əksər ölkələri ilə çox geniş siyasi-diplomatik və iqtisadi əlaqələr saxlayır. Xarici siyasət sahəsində ölkəmiz əsaslı irəliləyişlərə nail olmuşdur. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident Heydər Əliyevin xarici siyasət doktrinasının ana xəttini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, ərazi bütövlüyümüzün bərpa edilməsi, bölgədə və dünyada yüksək nüfuza malik Azərbaycan dövlətinin inkişafı, milli və iqtisadi təhlükəsizliyinin təmin edilməsi, qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq istiqamətində fəaliyyətin qurulması təşkil edir. Prezident Heydər Əliyev tərəfindən həyata keçirilən balanslaşdırılmış, realist və praqmatik əsaslara söykənən, ardıcıl və məqsədyönlü xarici siyasət nəticəsində ölkəmizin istər Qərb dövlətləri ilə, istərsə də yaxın region ölkələri ilə qarşılıqlı faydalı münasibətləri get-gedə yeni vüsət almaqdadır.

Azərbaycan diplomatiyasının fəaliyyəti nəticəsində daha bir uğurlu addım atılmışdır. Bu günlərdə ABŞ Konqresi ölkəmizə qarşı vaxtilə tətbiq edilmiş ədalətsiz qərarını -Azadlığı Müdafiə Aktına - 907-ci düzəlişi aradan qaldırmaq istiqamətində mühüm addım atmışdır.

Hazırda müstəqil dövlətimiz bir sıra beynəlxalq təşkilatlarda layiqincə təmsil olunur. 2001-ci ilin əvvəllərində respublikamızın dünyanın ən nüfuzlu təşkilatlarından sayılan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması müstəqil dövlətimizin regional proseslərə təsir imkanlarını artırmışdır. Avropa Şurası Parlament Assambleyasında ölkəmizi təmsil edən nümayəndə heyətinin



başçısı, Yeni Azərbaycan Partiyası Sədrinin müavini İlham Əliyevin bu beynəlxalq təşkilatın tribunasından dəmir məntiqə və real faktlara söykənən cəsarətli çıxışları Ermənistanın təcavüzkarlığı və erməni terrorizmi haqqında həqiqətlərin bir daha dünyaya çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT çərçivəsində intensiv danışıqlar davam edir. Bu danışıqlarda Ermənistanın qeyri-konstruktiv çıxış etməsinə baxmayaraq, ölkə başçısının geniş və hərtərəfli fəaliyyəti nəticəsində bu problemin həlli istiqamətində bir sıra addımlar atılmışdır. Xalqımız əmindir ki, müdrik rəhbərimiz Heydər Əliyevin apardığı ardıcıl və məqsədyönlü sülh siyasəti öz məntiqi nəticəsini verəcək, məcburi köçkünlər doğma torpaqlarına qayıdacaqlar. Biz əminik ki, əgər sülh danışıqları müsbət nəticə verməsə, xalqımız bir nəfər kimi Ali Baş Komandanımız cənab Heydər Əliyevin əmri ilə ayağa qalxacaq və bütün vasitələrdən istifadə edərək torpaqlarımızı düşməndən azad edəcəkdir.

Xalqımızın üzləşdiyi əsas problemin – Dağlıq Qarabağ probleminin həll edilməsinə mühüm təsir edən amillərdən biri Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq aləmə obyektiv çatdırılması və bu yöndə dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın fəaliyyət imkanlarından səmərəli istifadə olunmasıdır. Son illərdə bu istiqamətdə çox mühüm işlər görülmüşdür.

Bu günlərdə ölkəmizin paytaxtında Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi xaricdəki həmvətənlərimizin təşkilatlanması, dünyaya səpələnmiş Azərbaycan diasporunun lobbiçilik fəaliyyətinin gücləndirilməsi baxımından olduqca önəmli əhəmiyyət daşıyır. Qurultay sübut etdi ki, bu gün dünya azərbaycanlılarının ümummilli ideya – azərbaycançılıq və müstəqil dövlətçilik ətrafında sıx birləşməsi olduqca zəruridir. Prezident Heydər Əliyevin qurultayda etdiyi tarixi çıxış dünya azərbaycanlılarının qarşısında duran vəzifələrin müəyyənləşməsi və konkretləşməsi baxımından olduqca mühüm əməli fəaliyyət proqramıdır.

Əziz həmvətənlər !

Hər bir xalq, millət, yalnız mütəşəkkil olanda, birlik nümayiş etdirəndə, həmrəy olanda güclüdür. Möhtərəm Prezidentimiz Heydər Əliyevin ideyalarının daşıyıcısı Yeni Azərbaycan Partiyası öz apardığı siyasətdə daim milli birliyə, vətəndaş sülhünə, bütün sağlam qüvvələrin həmrəyliyinə nail olmağa çalışmış və bu gün tam qətiyyətlə deyə bilərik ki, buna müvəffəq olmuşdur. Yeni Azərbaycan Partiyası Azərbaycanda fəaliyyət göstərən, mütərəqqi və sağlam mövqeyə malik partiya və ictimai təşkilatlarla fəal və konstruktiv əməkdaşlıq etməyə – milli maraqlarımızın qorunması naminə bütün səviyyələrdə vicdanlı və açıq dialoqa hazır olduğunu yarandığı gündən birmənalı şəkildə bəyan etmişdir. Yeni Azərbaycan Partiyası siyasi plüralizmi, çoxpartiyalılığı, azad siyasi rəqabəti demokratiyanın, eləcə də bütövlükdə ölkənin inkişafının mühüm şərtlərindən biri hesab edir. Bu gün Azərbaycanda Prezident Heydər Əliyevin həyata keçirdiyi siyasət sayəsində demokratik təsisatlar bərqərar olmuş, söz, mətbuat azadlığı təşəkkül tapmış, insan haqlarının qorunması təmin edilmişdir. Azərbaycanda çoxpartiyalı sistem əsasında parlament, bələdiyyə seçkiləri keçirilmiş, siyasi partayaların azad, sərbəst fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradılmışdır.

Lakin yaranmış bu imkanlardan sui-istifadə edərək, müxalifət adı altında pərdələnən destruktiv, dağıdıcı dairələr milli dövlətçiliyimiz və xalqımız əleyhinə özlərinin yaramaz əməllərini davam etdirirlər. Müxalifət dövlətin qanunlarına əməl etməli, mənsub olduğu ölkənin maraqlarına zərbə vurmamalıdır. Ancaq bu gün müxalifət adı altında fəaliyyət göstərən, adını partiya qoyub, dərnək səviyyəsindən uzağa gedə bilməyən, indiki hakimiyyətin xalqın mənafeyinə uyğun yeritdiyi siyasətə alternativ heç bir fikir və konsepsiyanı irəli sürməyə qadir olmayan Ayaz Mütəllibov, İsa Qəmbərov, Rəsul Quliyev, Etibar Məmmədov, Əli Kərimov, İlyas İsmayılov və bu kimi siyasətdə özlərini ifşa etmiş dairələr Azərbaycan dövlətinə zərbə vururlar. Onlar özlərinin xaricdəki havadarlarından aldıqları qrantlar, sədəqələr hesabına, yeri gəlmişkən qeyd edək ki, bu vəsaitlərin bir qismi ermənilərin təsir



dairəsində olan təşkilatlardan alınır, nəşr etdikləri mətbuat orqanlarında «Yeni Müsavat», «Azadlıq», «Hürriyyət» kimi qəzetlərdə milli heysiyyatımıza, mentalitetimizə, əxlaqımıza zidd yazılara rəvac verir, iqtidarın apardığı qlobal miqyaslı dövlət siyasətini gözdən salmaq üçün şər, yalan, böhtan və bu kimi çirkin əməllərindən əl çəkmirlər. Xalqımızın və müstəqil dövlətimizin əleyhinə yönəlmiş bu qəbildən olan hərəkətlər əslində müxalifətçilik deyil, milli xəyanətdir. Respublikada yaranmış ictimai-siyasi sabitliyi, mənəvi-psixoloji durumu pozmağa can atanlar, ara qarışdıranlar, milli birliyimizi pozmağa cəhd edənlər heç şübhə etmirik ki, xalqımız tərəfindən bundan sonra da rədd ediləcəkdir.

Əziz həmvətənlər !

Qətiyyətlə deyə bilərik ki, bütün Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident Heydər Əliyevin yeritdiyi daxili və xarici siyasəti böyük əzmlə, inamla müdafiə edir.

**Partiyamızın II Qurultayı keçən dövr ərzində əldə edilmiş nailiyyətləri ciddi təhlil edib yeni dövrdə, XXI əsrdə dövlətimizin və xalqımızın gələcək dinc, firavan həyatının əsas yolunu göstərən, Azərbaycanı bölgədə güclü, qüdrətli və zəngin ölkəyə çevirən əməli fəaliyyətin aparıcı istiqamətlərini müəyyənləşdirmişdir.**

Yeni Azərbaycan Partiyası xalqımızı əmin edir ki, partiyamızın Proqramında irəli sürülən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət kimi rəhbər prinsiplərdən irəli gələn məsuliyyətli vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəkdir. Rəhbərliyində Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyev kimi şəxsiyyətin olduğu Yeni Azərbaycan Partiyası öz tarixi missiyasını ardıcıl olaraq davam etdirəcəkdir.

Biz – bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının üzvləri öz əməli fəaliyyətimizdə Azərbaycan dövlətçiliyinə olan sədaqətimizi dəfələrlə nümayiş etdirmişik.

Biz, Yeni Azərbycan Partiyasının bütün üzvləri bəyan edirik ki, bundan sonra da Azərbaycanın mövcud Konstitusiyasına və dövlət quruluşuna sədaqətlə xidmət edəcək, onu azad, dünyəvi demokratik və hüquqi bir dövlət kimi daha da inkişaf etdirəcək və möh-

kəmləndirəcək, xalqımızın görkəmli oğlu, dahi şəxsiyyət, möhtərəm Heydər Əliyevin qurucusu və memarı olduğu Azərbaycan dövlətinin müstəqilliyini daim qoruyacaq, ölkəmizi dünyanın qüdrətli və zəngin ölkələri sırasına çıxaracağıq.

Heydər Əliyev yolu müqəddəs yoldur. Bu yol – müstəqil, daim çiçəklənən və tərəqqi edən, beynəlxalq birlikdə öz layiqli yerini tutan, dünyada nüfuzu durmadan artan böyük Azərbaycan yoludur.

Biz bu şərəfli yolda – Heydər Əliyev yolunda cəmiyyətimizin bütün sağlam qüvvələrini birləşməyə çağırırıq.

*Yaşasın müstəqil, qüdrətli, firavan Azərbaycan Respublikası!*

*Yaşasın Azərbaycan dövlətinin qurucusu, banisi, ümummilli liderimiz Heydər Əliyev və onun parlaq ideyaları!*



## Yeni Azərbaycan Partiyasının Siyasi Şurası

1. Əliyev Heydər Əlirza oğlu
2. Əliyev İlham Heydər oğlu
3. Abdullayev Vaqif İdris oğlu
4. Abdullazadə Fatma Hüseyn qızı
5. Abutalıbov Hacıbala İbrahim oğlu
6. Ağayev Taryel Hüseyn oğlu
7. Allahverdiyev Elxan Həsən oğlu
8. Aloyev Xıdır Binnət oğlu
9. Aslanov Aslan Əli oğlu
10. Aslanov Elnur Kazım oğlu
11. Bayramov Munis Məmməd oğlu
12. Bayramova Svetlana Qulam qızı
13. Budaqov Tahir Yaqub oğlu
14. Camalova Dilrubə Cəbrayıl qızı
15. Cəfərov Məmmədtağı İbrahim oğlu
16. Daşdəmirov Rasim Bayram oğlu
17. Eyyubov Yaqub Abdulla oğlu
18. Əbilov Şirvan Rəşid oğlu
19. Əhmədov Ağaəli Əlövsət oğlu
20. Əhmədov Əli Cavad oğlu
21. Əhmədov Namiq Məcid oğlu
22. Əkbərov Sədrəddin Hüseyn oğlu

23. Ələkbərov Əvəz Əkbər oğlu
24. Ələsgərov Fuad Murtuz oğlu
25. Ələsgərov Murtuz Nəcəf oğlu
26. Əlirzayev Əli Qəmbərəli oğlu
27. Əliyev Aqil Əlirza oğlu
28. Əliyev Cəlal Əlirza oğlu
29. Əliyev Cəmil Əziz oğlu
30. Əliyev Əlibaba Nəcəf oğlu
31. Əliyev Fərhad Şövlət oğlu
32. Əliyev Firdovsi Şahmirzə oğlu
33. Əliyev Qafar Məmməd oğlu
34. Əliyeva Nurlanə Müzəffər qızı
35. Əliyev Vaqif Qədir oğlu
36. Əliyev Vilayət Hüseyn oğlu
37. Əliyev Yaqub Canəhməd oğlu
38. Əsədov Əli Hidayət oğlu
39. Əsədov Oqtay Sabir oğlu
40. Əsgərov Ağabəy Məmməd oğlu
41. Əsgərov Şahlar Qaçay oğlu
42. Əsgərov Ziyafət Abbas oğlu
43. Fərzəliyev Abdin Ələsgər oğlu
44. Göyüşov Abbas Cahandar oğlu
45. Göyüşov Zakir Məhərrəm oğlu
46. Hacızadə Fuad Mahmud oğlu
47. Həsənov Əli Məmmədəli oğlu
48. Həsənov Əli Şamil oğlu
49. Həsənova Məlahət İbrahim qızı
50. Hümbətov Yusif Kərim oğlu
51. Hüseynov Aydın Nəsir oğlu



52. Hüseynov Hüseyn Bəşir oğlu
53. Hüseynova İradə Mehdiqulu qızı
54. Hüseynov Vaqif Aslan oğlu
55. Xəlilov Səlahəddin Sədrəddin oğlu
56. Xəlilov Şahvələd Binnət oğlu
57. Xudiyev Nizami Mənaf oğlu
58. İbrahimov Eldar Rza oğlu
59. İbrahimov Mehman Cəfər oğlu
60. İmamverdiyev Sudeyf Bəşir oğlu
61. İnsanov Əli Binnət oğlu
62. İsmayılov Fikrət İsmayıl oğlu
63. İsmayılov Nazim Mehdi oğlu
64. İsmayılov Süleyman Abbas oğlu
65. Kazımov Mirkazım Mirməhəmməd oğlu
66. Kərimov Kərim Hacıxan oğlu
67. Qaralov Zahid İbrahim oğlu
68. Qasımov Elmar Eldar oğlu
69. Qəhrəmanova Sədaqət Məmmədyar qızı
70. Qocayev Xeyrəddin Sayəddin oğlu
71. Quliyev Musa İsa oğlu
72. Quliyev Vilayət Muxtar oğlu
73. Quliyeva Zəhra Tahir qızı
74. Qurbanlı Mübariz Qəhrəman oğlu
75. Mahmudov Yaqub Mikayıl oğlu
76. Manafova Asya Sərdar qızı
77. Mehdiyev Ramiz Ənvər oğlu
78. Mehrabov Şükür Hasil oğlu
79. Məhərrəmov Abel Məmmədəli oğlu
80. Məmmədhəsənov Rafiq Musa oğlu

81. Məmmədov Novruz İsmayıl oğlu
82. Məmmədov Şahin Kərim oğlu
83. Mərdanov Misir Cumayıl oğlu
84. Mirzəyev Həsən İbrahim oğlu
85. Mirzəyev Ramiz Şəmşəd oğlu
86. Mirzəzadə Aydın Böyükkişi oğlu
87. Muradova Bahar Əvəz qızı
88. Muradverdiyev Akif Şəmşəddin oğlu
89. Musayev Alqış Həsən oğlu
90. Musayev Musa Həzi oğlu
91. Mustafazadə İsgəndər Ənvər oğlu
92. Nağıyev Əli Teymur oğlu
93. Novruzov Siyavuş Dünyamalı oğlu
94. Paşayev Hüseyn Məmməd oğlu
95. Rəhimzadə Arif Qafar oğlu
96. Rəhimzadə Vüqar Gəncəli oğlu
97. Salahlı Səyyad Adil oğlu
98. Seyidzadə Dilarə Bağır qızı
99. Sofiyeva Aynur Məmmədiyyə qızı
100. Süleymanov Aslan Qurban oğlu
101. Tağıyev Əhliman Savalan oğlu
102. Talıbov Vasif Yusif oğlu
103. Təbrizli Sirus Xudadat oğlu
104. Təhməzov Elbrus Halay oğlu
105. Vahabov Rizvan Əkbər oğlu
106. Vəliyev Misirxan İzzət oğlu
107. Zabelin Mixail Yuryeviç
108. Zeynalov Həsən Sultan oğlu



**Yeni Azərbaycan Partiyasının**
**İdarə Heyəti**

1. Əliyev Heydər Əlirza oğlu
2. Əliyev İlham Heydər oğlu
3. Abutalıbov Hacıbala İbrahim oğlu
4. Əhmədov Əli Cavad oğlu
5. Ələsgərov Murtuz Nəcəf oğlu
6. Əliyev Vaqif Qədir oğlu
7. Əliyev Yaqub Canəhməd oğlu
8. Əsgərov Şahlar Qaçay oğlu
9. Həsənov Əli Məmmədəli oğlu
10. Hümbətov Yusif Kərim oğlu
11. Xudiyev Nizami Mənaf oğlu
12. İnsanov Əli Binnət oğlu
13. Kərimov Kərim Hacıxan oğlu
14. Qaralov Zahid İbrahim oğlu
15. Qurbanlı Mübariz Qəhrəman oğlu
16. Manafova Asya Sərdar qızı
17. Məhərrəmov Abel Məmmədəli oğlu
18. Mərdanov Misir Cumayıl oğlu
19. Mirzəyev Ramiz Şəmşəd oğlu
20. Muradova Bahar Əvəz qızı
21. Nağıyev Əli Teymur oğlu
22. Novruzov Siyavuş Dünyamalı oğlu
23. Rəhimzadə Arif Qafar oğlu
24. Talıbov Vasif Yusif oğlu
25. Təbrizli Sirus Xudadat oğlu
26. Zabelin Mixail Yuryeviç

**Yeni Azərbaycan Partiyası Mərkəzi**
**Nəzarət – Təftiş Komissiyası**

1. Axundov Əli Qüdrət oğlu
2. Babaliyeva Sevda Mövsüm qızı
3. Baxışov Hüseynağa Eynulla oğlu
4. Əbülhəsənova Səriyyə Həmzə qızı
5. Əliyev İlqar İmran oğlu
6. Əliyev Şaitdin Sərdar oğlu
7. Hacıyeva Tamilla Əli qızı
8. Hacıyev Qəzənfər Xuduş oğlu
9. Heydərov İbrahim Əli oğlu
10. İmaməliyev Asif Ağalar oğlu
11. Jidkova Nadejda İvanovna
12. Qarayev Fərman Hüsen oğlu
13. Quliyev Rasim Vaqif oğlu
14. Məmmədov Oruc Paşa oğlu
15. Nağıyev Muxtar Teymur oğlu
16. Novruzov Məhərrəm Dünyamalı oğlu
17. Şükürov Məcnun Şükür oğlu

Çapa imzalanmışdır 08.01.2002. Kağız formatı 60x84 1/16. Şərti çap vərəqi 8,83.Uçot-nəşr vərəqi 8,5. Sifariş 5204. Müqavilə qiyməti ilə.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
370073 Bakı, Mətbuat prospekti, 529-cü məhəllə.